45 Rəfail Tağızadə
şeir vaxtı

Alxan Bayramoğlu **46**
tribuna

48 Türkan Turan
debüt

52 Sərvər Kamranlı
şeir vaxtı

53 Mənim adım Çalğındı
Təbriz eli

56 Şəhanə Müşfiq
Qatardakı qız

58 Nazim Əhmədli
şeir vaxtı

60 Sona Xəyal
məqam

63 Zamiq Mehdisoy
şeir vaxtı

65 Zeynəb Əliqızı
nəsr

67 İntiqam Yaşar
şeir vaxtı

69 İlhamə
nəsr

71 Qəşəm Nəcəfzadə
hücrə

73 Uilyam Yeyts
nobelçi

82 Nuranə Nur
dərgidə kitab

Təsisçilər:
Azərbaycan Yazıçılar Birliyi və «Ulduz» jurnalının kollektivi

Baş redaktor
Qulu Ağsəs

Redaksiya heyəti
Tərənə Vahid
(Baş redaktor müavini)
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Şəhər
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Sevinc Mürvətqızı
Qılman İman
Hafiz Hacxalıl
Nisəbəyim
Fərid Hüseyn
Məshəti Musa
Elşən Əzim
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Rusiya)

Bədii redaktor
Ədalət Həsən

Şöbə redaktorları
Hicran Hüseynova
Vüsal Nuru

Ünvanı: Az-1000, Bakı, Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
dursul@mail.ru
www.ayb.az
Telefon: 498-72-43
Çapa imzalanıb: 14.07.2015
«Ulduz» jurnalı redaksiyasında yığılıb səhifələnib. «Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsində çap olunub.
Sifariş. № 76, Tiraj: 300
Qiyməti: 2 man.

1967-ci ildən çıxır
Şəhadətnamə № 238

Nömrənin eksperti:
Cahangir Məmmədli



«AZƏRMƏTBUATYAYIMI»
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «Mətbuatyayımı» şöbələrinə müraciət etməyiniz kifayətdir.

«QAYA»
MƏTBUAT YAYIMI

«Ulduz» jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon «QAYA» mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

Jurnalın

1 aylıq abunə qiyməti – 2.00 man.

6 aylıq abunə qiyməti – 12.00 man.

Bakı şəhərində abunə yazılmaq istəyənlər:

440 – 27 – 85
440 – 39 – 83
440 – 46 – 94

564 – 63 – 45
598 – 35 – 22
456 – 67 – 13
564 – 48 – 96

nömrəli telefonlara zəng edə bilərlər.

ISNN 0134-522 İNDEKS AZ 1000 2 AZN

BÖYÜK ƏDƏBİYYATA GEDƏN YOL "ULDUZ"DAN BAŞLAYIR

Buludxan XƏLİLOV,
filologiya üzrə elmlər doktoru,
professor

("Ulduz"un iyun sayına baxış)

Yazmaq da, çap olunmaq da ötəri, keçici hisslərin və duyğuların nəticəsi deyil. Bu, hər adama nəsib olmayan bir Allah vergisidir. Allahın verdiyini bəndəsi ürəkdən yerinə yetirməlidir. Yazmaq istedadı varsa, yazmalıdır. Ancaq yazdıqlarını təqdim etməyi, ədəbi mühitin ixtiyarına verməyi də bacarmalıdır. İstedad bunu məqsədli bir işə çevirmədən ciddi missiyaya çevirir. Və istedadların qələmə aldıqları öz yüksək səviyyəsi ilə ədəbi mühitdə özünə yer alır. Bir müddətdən sonra istedadın öz imici, dəst-xətti və üslubu görünür. Başqaları onu tanıyır, qəbul edirlər. Onların ədəbiyyatdakı mövqelərinə qiymət verirlər. Bədii yaradıcılıq axtarışlarını izləyirlər. Bir sözlə, istedad gec-tez öz oxucusunu tapır. Bəlkə də buna öz oxucusunu qazanır da demək olar.

İstedadların üslub müxtəlifliyi onları bir-birindən fərqləndirir. Bu üslub müxtəlifliyi onların inkişafına, yüksəlişinə, nüfuzuna mane olmur. Əksinə, onlar üslub müxtəlifliyi baxımından bir-birindən fərqlənməklə ədəbi mühitin ölçüsünə, meyarına çevrilirlər. Azərbaycan ədəbiyyatı tarixinin bütün dövrlərində ədəbi mühitin belə ölçüləri, etalonları olub və olacaqdır. Əgər çap işi olmasaydı, istedadlı adamların qələm məhsulu ədəbi ictimaiyyətə çatdırılmasaydı, ədəbi mühitdə kimin kim olduğunu haradan bilmək olardı?! Bir sözlə, böyük ədəbiyyata gedən yol çapdan başlayır. Ancaq hansı mətbuat orqanında çap olunmaq da işin yarısıdır. Son dövrlərdə kifayət qədər mətbuat orqanlarının olması çap işini asanlaşdırıb. Bununla belə, ədəbiyyata gələn adamın (gəncin) ədəbi mühitin qəbul etdiyi orqanda çap olunması olduqca vacibdir. Bu mənada "Ulduz" jurnalı ədəbi mühitin əlli ilə yaxın bir müddətdə qəbul etdiyi mətbuat orqanıdır. Bu jurnal 1967-ci ildən – çap olunduğu gündən indiyə qədər böyük amallara xidmət edir. "Ulduz" jurnalı çap olunduğu vaxt milli yaddaş, milli ruh, milli düşüncə öz üstün mövqeyi ilə ədəbi mühitin barometri rolunu oynamışdır. Təzə söz, isti nəfəs, aydın və səlis məntiq, özünəməxsus deyim tərzi, bədii düşüncənin milli maraqlar çərçivəsində öz funksiyasını yerinə yetirməsi və s. məsələlər elə o dövrdə "Ulduz" jurnalının səhifələrində özünə geniş yer almışdır. Bu, "Ulduz"un missiyası, gənclərin istəyi, arzu və məramları kimi özünü göstərmişdir. "Ulduz"un bu ötən dövrlər ərzində öz ənənəsinə sadiq

qaldığının şahidiyik. Ədəbiyyatımızın nüfuz sahibləri "Ulduz"un şinelindən çıxıbdır desək, yanılmarıq.

"Ulduz" elə bir mətbuat orqanıdır ki, ədəbi mühitdə kifayət qədər nüfuzu olan hər bir qələm əhli bütün yaradıcılığı boyu onunla əlaqəsini kəsmir. Əksinə, "Ulduz" sayrışmaq istəyində olanlara həmişə qol-qanad verir, gənclik enerjisi ilə yazıb-yaratmaq istəyənlərə güc verir və yaradıcı nəsillər arasındakı rabitəni qoruyub saxlayır. "Ulduz" qədər yaradıcı nəslin (gənc, orta, yaşlı nəsil) bütün yaradıcı adamlarını birləşdirən ikinci mətbuat orqanı yoxdur. Biz burada ənənəni, mətbuat orqanının yaşını, taleyini və s. cəhətləri nəzərə alırıq. Onu da qeyd edək ki, hazırda "Ulduz" jurnalı ədəbi mühitimizdə daha ciddi addımlar atır, gəncliyin inkişafını stimullaşdırır, onların ədəbi mühitdə bərkiməsinə geniş imkanlar yaradır. Əslində "Ulduz" elə bir missiyanı yerinə yetirir ki, o, gənclikdə sabaha inam yaradır. Gəncliyi ədəbi mühitdə rəqabət yarışına qoşur. Bununla da müxtəlif janrlarda öz qələmini sınayan gənclik nəticə etibarilə janrın və bədii yaradıcılığın dinamikasına xidmət edir. Əslində bu xidmət ədəbi gəncliyi birləşdirən "Ulduz"un xidmətidir. "Ulduz" vasitəsilə ədəbiyyat inkişaf edir, yeni-yeni bədii düşüncə və təxəyyül sahibləri ədəbiyyata gəlir.

"Ulduz" jurnalı bu gün bütün ənənələrinə sadiq qalmaqla yeni ruhlu, yeni düşüncəli, yeniliyi və müasirliyi ədəbiyyata gətirmək bacarığında olan gəncləri çap etməklə hər sayında ədəbi mühitimizdə hadisə yaradır. Bu mənada "Ulduz" jurnalının iyun ayında çap olunmuş sayı da ədəbi gəncliyin inkişaf etmək istəyində nə qədər qətiyyətli, iradəli və inamlı olduğunu təsdiqləyir.

"Ulduz" jurnalının iyun sayı Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəylinin "Geniş yaradıcılıq imkanları və təkamül zərurəti" adlı ekspertizası ilə başlayır. İsa Həbibbəylinin ekspertizası güllərdən toxunan çələngi xatırladır. O, "Ulduz" jurnalının ədəbi gəncliyin yaradıcılıq axtarışlarını, boy artımını, üslub müxtəlifliyini, uğurlarını, eləcə də kəsirlərini əks etdirmək baxımından oynadığı rola yüksək qiymət verir. Eyni zamanda yaradıcı gəncliyin qəti qələbəsi üçün onların mütaliəyə, öyrənməyə xüsusi diqqət yetirmələrini qeyd edir. Əminliklə bildirir ki, ədəbi gəncliyin şeirləri düşündürücü, maraqlı və bir çox hallarda bənzərsizdir. Bu da ədəbi gəncliyə olan inamı artırır. İsa Həbibbəyli gəncliyə dünyanın hər üzünü dərk etməyi, reallıqların və gerçəkliklərin mahiyyətinə varmağı da tövsiyə edir. Doğrudan da, bunsuz böyük əsərlər yaratmaq mümkün deyil.

Həm də bu, ədəbi gəncliyin məsuliyyətini artırmaq deməkdir. Böyük ədəbiyyat yaratmaq üçün ədəbi gənclik real həyatı əks etdirməli, tipik obrazları yaratmalı, ümumiləşdirmələr aparmağı bacarmalıdır. Qənaət belədir ki, "Ulduz" jurnalı şeirlə yanaşı, hekayə janrının, pyeslərin, dram əsərlərinin çapı üçün də geniş meydan açan ədəbiyyat dərgisidir. İsa Həbibbəylinin ekspertizasında "Ulduz"un gənc nəsli düşündürmək və gənc nəslə nümunə göstərmək missiyası da ədəbiyyatın inkişafına müsbət təsir göstərəcək bir hal kimi diqqət mərkəzində saxlanılır.

Ümumiyyətlə, "Ulduz"un ekspertizası ədəbi gəncliyin yaradıcılıq məsuliyyətini daha da artırır. Gənclərin yaradıcılığına ədəbi tənqidin və geniş mənada ədəbi mühitin diqqətini yönəldir. İnanırıq ki, ədəbi gənclik bu tələbkarlıqdan düzgün faydalanacaq, öz yaradıcılıq imkanlarını daha da inkişaf etdirəcək. Onu da qeyd edək ki, hələ öz imzasını təsdiq etməmiş gəncliyin yaradıcılığına tələbkarlıq və nəzarət onların hər birinə hava, su qədər lazımdır.

"Ulduz" jurnalının iyun sayında "Ələmdar Cabbarlı: özüylə söhbəti və şeirləri" bölümündə Ələmdar Cabbarlının ürək çırpıntılarının nə qədər səmimi, doğma olduğunu görməmək olmur. Daha doğrusu, ürək çırpıntılarını hiss edirsən, duyursan, lirik "mən"in özü qədər anlayırsan. Onun özüylə söhbətində və şeirlərində oxucunu razı salan məqamlar bunlardır: özünün özünə səmimi olması, özünün özü ilə söhbət etməyi bacarması, özünə çəkinmədən hər şeyi

deyə bilməsi, özü ilə olan söhbətin tükənməməsi... Ancaq yaxşı olar ki, ədəbi gənclik bizim hər birimizi narahat edən problemlərə giley-güzarla, "sən elə, mən belə" prinsipi ilə yox, mübarizlik əhval-ruhiyyəsi ilə yanaşsın. Axı istənilən bir bədii nümunə hissdən, duyğudan qaynaqlanmaqla yanaşı, həm də tərbiyə edir, təsir edir, mənəvi qida verir. Gənclik şeirin məzmununda və poetik texnologiyasında bunları mütləq nəzərə almalıdır.

Gənclik ədəbiyyatda böyük mövqe qazanması üçün bədii yaradıcılığında zəngin dil yaratmalıdır. Ədəbiyyat tarixində özünü təsdiq etmiş görkəmli şair və yazıçıların hər biri dil üzərində ömürləri boyu işləməklə özlərinə məxsus dil, üslub yaratmışlar. Dil və üslub vəhdəti olan hər bir yazıçı və şair ədəbi mühitdə görkəmli, bacarıqlı yazıçı, şair kimi tanınır, öz imzasını təsdiq edir, bununla da imzası imzalar içərisində seçilir. Ona görə də gənc şair və yazıçılarımız öz əsərlərinin dili üzərində səmərəli çalışmalıdırlar. Bu məqsədlə ədəbi mühitdə fəaliyyət göstərən gənclik gec-tez uğur qazanacaq, öz dil və üslubunu başqalarından fərqləndirəcək. Dil və üslub fərqini yarada bilənlər həm də ədəbi dilimizin inkişafına, qol-budaq atmasına xidmət edəcək. Belələri Azərbaycan dilini uğurla təqdim etməyi bacaranlar olmaqla dilimizin bədii və poetik imkanlarını yüksəkliklərə qaldıracaqdır.

Bu gün hekayə yazmaq bəzi janrlarla qoşa addımlasa da, bəzilərini qabaqlayır, bəzilərini isə rəqabətə çəkir. Bəlkə də bu janra üstünlük vermək zamanın öz tələbidir. Vaxt, zaman itkisinin qarşısını almaqdır. Daha yığcam formada bədii təfəkkürün və təxəyyülün səviyyəsini əks etdirməkdir. Bəlkə də epik janra daxil olanlar içərisində öz yığcamlığı və təmizliyi ilə hekayənin daha çox seçilməsidir. Hər halda təsirli və mənalı hekayədə alaq otu olmur, səhralarda bitən kol-kos insanın əl-ayağına dolaşmır. Bu mənada Mübariz Cəfərlinin "Fırlanma" hekayəsi öz lakonikliyi ilə yanaşı,

həm də mənalı və düşündürücüdür. Oxucunu oyandırandır, hətta oxucunu yandıran məqamları da var.

"Ulduz"un "Şeir vaxtı" bölümündə Ulucay Akifin şeirlərindən, daha doğrusu, şeirlərinin ruhundan milli kökə, milli soya söykənən poetik düşüncənin tərtəmiz iyi gəlir, kənd və şəhər həyatının özəlliklərini duymaq istəyənlərə, bu barədə düşünmək istəyənlərə mənəvi qida verir.

"Dahilərin qadınları" bölümündə "Lu – pis qız..." yazısı Pərvinin təqdimatında olmaqla məşhur yazıçı, filosof Lu Salomedən bəhs edir. Lunun xarakterindəki fərqliliklər oxucuya dəqiq faktlarla çatdırılır. Onun sevmək, sevdirmək istedadı xarakterizə olunur. 32 yaşlı Raul Renin Luya eşq elan etməsi, onunla evlənmək istədiyini bildirməsi, ancaq nəticə etibarilə dost kimi yaşaması, eləcə də Nitsşe ilə Lunun sevgi münasibətlərinin də nəticə etibarı ilə dostluqla qurtarması maraqlı fəlsəfi şərhlərlə oxucunun insan-qadın xarakterinin bütün dərinliklərini öyrənməsi baxımından dəyərlidir. Paul, Lu, Nitsşe üçbucağının dağılması oxucunu düşündürür və qayğılandırır. Maraqlıdır ki, Lu sonra Fridrix Andreasa ərə gedir. Amma şərt belə olur ki, onların arasında kişi-qadın yaxınlığı olmayacaq. 40 ildən çox sürən bu evliliyin də uğuru olmur. Oxucuda sevginin uğursuzluqları həyatın reallıqları kimi dərin bir psixoloji gərginlik yaradır. Onu da əlavə etsək ki, Lu məşhur siyasətçi Qeorq Ledeburu da eşq macərasına mübtəla edir və bunu Fridrix Andreas bildikdə Lu Parisə qaçır, onda bir daha oxucuya qadın psixologiyasının mürəkkəbliyi və qeyri-adiliyi təsir etməyə bilmir. Qadın xarakterindəki qabarmalar, çəkilmələr, inanıram ki, oxucunun hisslərini də rahat buraxmayacaq və oxucunu qadın, kişi sevgilərinin fərqli cəhətləri barədə düşüncələrə qərq edəcəkdir. Əgər ədəbiyyat düşündürürsə, deməli, o, reallığın və həyatiliyin vəhdətini özündə daha çox əks etdirir. Bu, ədəbiyyatın uğuru kimi qiymətləndirilməlidir. Əsl ədəbiyyat əbədi missiyası ilə bağlı mövqeyini dəyişməməlidir. Və əbədi missiyasını əbədi olaraq yerinə yetirməlidir. Sevgi, istək, yaxşı, pis, bir sözlə, insan həyatı üçün lazım olunan nə varsa, hamısını əbədi yaşatmalı və təbliğ etməlidir.

Azərbaycan ədəbiyyatında poeziya ənənəsi olan bir sahədir. Bəlkə də poeziya Azərbaycan ədəbiyyatının emblemidir desək, yanılmarıq. Bütün dövrlərdə Azərbaycan poeziyası özəllikləri ilə nəinki Azərbaycan ədəbiyyatşünaslarının, həm də digər ölkələrin ədəbiyyatşünaslarının da diqqətini cəlb edib. Bu mənada "Ulduz"un iyun sayında filologiya elmləri doktoru, professor, Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin Ümumi dilçilik kafedrasının müdiri Saodat Muhammedovanın "Müasir Azərbaycan poeziyasının özəllikləri" məqaləsində (məqaləni rus dilindən Azərbaycan dilinə Arifə Arifqızı tərcümə etmişdir) müasir Azərbaycan poeziyası bağçaya, janr əlvanlığı isə gülə, çiçəyə bənzədilir. Və 2013-cü ildə Daşkənddə nəşr edilmiş "XX asr Ozarbayjon şeiriyatı antologiyası" ("XX əsr Azərbaycan poeziyası antologiyası") adlı kitabda Əli Nazimin, Səməd Vurğunun, Məmməd Rahimin, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, Musa Yaqubun, Ramiz Rövşənin, Zəlimxan Yaqubun, Ramiz Əsgərin, Elçin İsgəndərzadənin, Qulu Ağsəsin, Nazilə Gültacın, Rəsmiyyə Sabirin, Səlim Babullaoğlunun və başqalarının şeirlərinin özbək dilinə tərcümə olunaraq özbəklərə təqdim olunduğu qeyd edilir. Bu da Azərbaycan-özbək ədəbi əlaqələrinin bu gün də davam etdiyini təsdiq etməklə yanaşı, müasir Azərbaycan poeziyasının əsas xüsusiyyətlərini səciyyələndirmək baxımından mühüm rol oynayır. Söhbət poeziyadan düşmüşkən "Ulduz"un iyun sayında özünə yer alan şeirlər içərisində Cahan Gülsünün, Babullanın, İnqilab İsaqın şeirləri də bir-birindən fərqli üslub və poetik düşüncənin nümunələri kimi diqqəti cəlb edir. Və "Üç gəncin "Debüt"ü" bölməsində özünə yer alan Pərviz Seyidlinin şeirlərində istedadı və bu istedadın enerjisini duyuruq. Həm də bu qəbildən olan ədəbi gəncliyin ümidverici gələcəyi olduğunu söyləməyi özümüzə borc bilirik.

"Ulduz"un iyun sayında "Tərcümə saatı" adlanan bölmədə Pəri Mirəliyevanın tərcümə

etdiyi "Oskar Uayldın aforizmləri" oxucunun düşüncə tərzinin formalaşması, həyat, cəmiyyət, insan, dünya, sevgi, gənclik və s. barədə təcrübənin özəlliklərini öyrənməsi baxımından qiymətlidir. Ancaq aforizmlərin bir xeylisinin orijinalı və tərcüməsi verildiyi halda, bir xeylisinin isə orijinalı yox, tərcüməsi verilir.

"Tərcümə saatı" bölməsində Ziyad Quluzadənin türkcədən çevirdiyi Oğuz Atayın "Təhlükəli oyunlar", "Dəmiryolunun hekayəçiləri" əsərləri təsdiq edir ki, bizim hər birimiz insan həyatını ömrümüz boyu öyrənməliyik.

Adiləşməyi, adi olmağı qəbul etməyənlər, kamilləşməyi üstün sayanlar İbrahim İbrahimlinin "Adsız"ını oxuyub hər vaxt öyrənməyi, məlum olanı və olmayanı yaşadığımız dünyanın reallığı kimi qəbul etməlidirlər.

Nilufər Şıxlının "Sevgidən heçliyə...", Aydın Tağıyevin "Yedək" hekayələri, Əlabbasın "Yük" əsəri, Nigar Vaqifin "Xoşbəxtliyə gedən yol" debütü ömürdən, gündən gedən hər anın, dəqiqənin, saatın insana bəxş etdiklərini duymaq, anlamaq baxımından çox şey deyir. Və düşünməli oluruq... Biz həyatın hər anından, dəqiqəsindən, saatından dərs ala bilirikmi?!

Qəşəm Nəcəfzadənin ədəbi gənclik barədə fikirləri "Qəribin şeirlərində qəriblik" başlığı altında kifayət qədər səmimi bir şəkildə öz ifadəsini tapır. Qəribin sadəliyi, səmimiliyi, sədaqəti, nəğmə şəklində olan şeirləri, poetik tapıntıları, sevinci, kədəri və sevgi şeirləri təhlil olunur.

"Ulduz"un iyun sayının "Dərgidə kitab" bölməsində Elşən Əzimin qısa tərcümeyi-halı, çap olunan kitablarının adları və 12 şeiri özünə yer alır. Bu şeirlərin bəzilərində onun pessimist hisslərin təsiri altına düşmək məqamları ilə yanaşı, fərqli bir fəlsəfi düşüncəyə qadir olduğunu da görürük.

"Ulduz" jurnalının üz qabığının içərisində Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə iyun ayının 5-də Beynəlxalq Muğam Mərkəzində V Şairlər Gününə həsr olunmuş tədbirin keçirilməsi barədə məlumatın verilməsi də oxucuların məlumatlandırılması baxımından əhəmiyyətlidir. İnanırıq ki, gələcəkdə də Azərbaycan Yazıçılar Birliyinin keçirdiyi tədbirlər barədə "Ulduz" jurnalında aybaay məlumatların verilməsi oxucuların bilgilənməsinə xidmət edəcək.

"Ulduz" ədəbiyyatın inkişafı, gənc yazarların ədəbiyyata ürəkdən bağlanması üçün əlindən gələni əsirgəmir. Hətta ədəbi gəncliyə nümunə ola biləcək, onların yetişməsində örnək ola biləcək əsərləri jurnalla birgə oxuculara təqdim edir. Bu mənada Buludxan Xəlilovun "İsmayıl Şıxlı: müəllim haqqında müəllim sözü", Hüseynbala Mirələmovun pyes və hekayələrindən ibarət "Axirətdən gələn zəng" kitabı son dövrdə çap olunan kitablar seriyasından olan bu kitablara da geniş oxucu kütləsinin diqqətini yönəldir. Bununla da "Ulduz" çalışır ki, ədəbi gənclik və geniş mənada oxucu, həmişə oxumaq axtarışında olsun.

"Ulduz" bu gün öz yolunu uğurla gedir. Addımları qəti və sərrastdır. Əbədi sayrışmaq missiyasını davam etdirir. Sözün həqiqi mənasında "Ulduz" ədəbi gəncliyə mayak rolunu oynayan bir ədəbi-bədii jurnaldır. Peşəkar ədəbiyyat hər zaman "Ulduz"a borcludur. Ona görə də ədəbiyyatımızın səmasının təmiz olması naminə hər bir ədəbiyyat adamı özünü "Ulduz"a borclu hesab etməli, onun hər sayının ədəbi gəncliyə uğur gətirməsi üçün əlindən gələni əsirgəməməlidir.



Fərid HÜSEYN

özüylə söhbəti...

- Özünlə söhbət eləmək bu qədər çətindir ki, "Ulduz"un redaktorunu bir belə incidib "müsahibə"ni yubadırsan?

- Çətindir... Çünki bir tərəf "görüşə" gəlmir. Söhbət zamanı Bruce Lennin "Əjdahanın yolu" filmindəki kimi güzgülərin çoxluğundan əsl özümü itirəcəyimdən qorxuram. Özümü tapmaq üçün isə bütün güzgüləri sındırmaq istəmirəm.

- "Ulduz"un bu sayında "Səfər şeirləri"n çap olunacaq. Necə oldu, bu şeirləri yazdın?

-Səfərlərdə şeir yazmağıma səbəb odur ki, orda dünya gözümə daha aydın və dəqiq görünür. Gördüklərimi hansısa janrdasa gizlədə bilirəm, şeirdə isə bu mümkün deyil. "Moskva" şeirini 9 günə yazmışam, bu şeir hər gün səhər məni yuxudan "oyadırdı". Yusif Səmədoğlunun kitabının ağ yerlərinə yazırdım. Misirdə və İstanbulda isə sadəcə gördüyüm ağrıları kağıza köçürürdüm. Şairlik axı həm də ürəyə mirzəlik etməkdir.

-"Səfər şeirləri"ndəki təsvirlər, səncə, nə dərəcədə aydındır? Həmin şeirlərin o ölkələri görməyən insanlar üçün hansısa özəl məziyyəti varmı?

-Qürbət hissi bütün yaşadıqlarını xatirəyə çevirir. Elə bilirsən ki, dünənki həyatın belə hansısa keçmiş, uzaq, eyni zamanda, sənincün əl-əlbət aydınlaşmış bir xatirədir. Hərdən mənə elə gəlir ki, şeirlərdə olmayan hər nə varsa, unudulacaq. Nitsşenin həyatı barədə bioqrafik bir kitab oxuyanda belə məqam diqqətimi çəkdi. O, gündə bəzən 18 saat yazırmış və ona elə gəlirmiş ki, o yazmadığı nə varsa bir də heç kəsi narahat etməyəcək. Ona görə sürətlə yazıb bitirmək istəyirmiş. Bir gün qəfil yorulur, xəstəlik də bir yandan, onda məcburən qəbul edir ki, insana bütün düşündüklərini istədiyi kimi yazacaq qədər ömür verilməyib. Təvazökarlıqdan uzaq da olsa, deyim ki, yazdığım şeirlər həmin şəhərlər barədə bir ruhi informasiyaya malikdir. Kim o ruhi kanala düşə bilirsə, hökmən nələrisə duyur. Qaldı ki təsvirlərin aydınlığına, burda xüsusi məlumat xarakterli nələrsə azdır, daha çox hisslərin mənzərəsidir, ruhun xəyalı... hə, səhv demədim, məhz ruhun xəyalı...

- Şairliyə həyat tərzi kimi baxırsan, yoxsa sırf sənət kimi?

- Oskar Uayld deyir: "Həyat sənəti daha çox təqlid edir, nəinki sənət həyatı". Ömrün belə bir dönəmi də olur: sevdiyimiz yazıçıların obrazına çevrildiyimiz vaxt. Məsələn, mənim Kafkanın "Məhkəmə" romanının qəhrəmanının gününə düş-düyüm vaxt da olub. Həyatla sənət iç-içədir. Sadə insanlar onları iç-içə də yaşayıb ömrünü başa vurur, həqiqi söz adamlarısa o fərqi görə-görə. Çalışıram ki, ədəbiyyata olan hisslərimi (sırf oxucu, sadə insan kimi) itirməyim. Hər şeyə sırf sənət gözüylə baxanda onda həzz almaq olmur. Xüsusən bizim ölkəmizdə əksərən nələrəsə peşəkar rakursdan baxmaq çıraqla həqiqət axtarmağa bənzəyir. Jidin fikridir: "Verter olduğuna şübhə etməyən nə qədər adam özünü öldürməkçün yalnız Hötenin qəhrəmanının açacağı atəşi gözləyirdi". Yəni ədəbiyyat xəstəsi olmaqla, ədəbiyyatdan xəstələnməyi ayırd edə bilməli, ikincinin naqis nüanslarından özümüzü qorumalıyıq.

- Sözün gücünü və ya gücsüzlüyünü daha çox nə zaman hiss edirsən?

- "Söz var kəsdirər başı, söz var kəsər savaşı". Bu kimi ifadələrlə qulağımızı doldurublar. Belə sözləri pafos hesab edirəm. Dünyanı, Allahın əmrindən sonra idarə edən ikinci bir qüvvə varsa, o da insan iradəsidir. İradə dediyim isə o qədər geniş anlamdır ki, orda siyasətdən şəhvətə, nəfsdən zülməcən nə desən var. Söz gücdür, həm də gücsüzlükdür. Bizdə çoxları özünə sərf edəni əsas sayır, məsələn, "şairlər peyğəmbərlərdən sonra gəlir" fikrini deyib şeir yazmasıyla öyünənlər dini kitabımızdakı bu fikirləri xatırlamırlar:

Əş Şuəra: (Müşrik və kafir) şairlərə gəlincə onlara ancaq azğınlar uyar (224). Məgər görmürsünüz ki, onların hər biri vadidə sərgərdan gəzib dolaşırlar? (Hər tərəfə meyil edir, birini yalandan mədh, digərini isə əbəs yerə həcv edirlər!) (225). ƏL-Haqqə: Bu (Quran) çox möhtərəm bir elçinin (Cəbrailin, yaxud Muhəmməd əleyhissəlamın Allahın ona nazil etdiyi) sözdür (40). O, şair sözü deyildir. Yasin 69: Biz ona (Muhəmməd əleyhissəllama) şeir öyrətmədik və bu, ona heç yaraşmaz da (lazım da deyil). ƏT-TUR: Yoxsa onlar (sənin barəndə) deyir: "O şairdir... (30). Yəni sənəti həddindən ziyadə şişirtmək lazım deyil, söz həm güclüdür, həm gücsüzdür, baxır məqamına... Sözün də taleyi var.

...və "Səfər şeirləri"

BİQ BEN

Zamanı öz əqrəblərinlə çarmıxamı çəkmisən,
hər saatın tamamında
açılmaz sirlərin qapısınımı döyürsən?

Gərək saatları başımızın üstə yox,
ayağımızın altına vuraydılar,
biz zamanı başımızı qaldıranda deyil,
məyus-məyus yerə baxanda görməliydik.

Biq Ben, inan ki, vaxt getmir,
sadəcə avtomobil şüşətəmizləyənlərini
xatırladan əqrəblərin
yorğun-ağın zamanın tərini silir.

Bir də, dünya belə dünyadı,
hünəri çatmır insanların deməyə ki,
uşaqların əlləri böyüklərinkindən daha çox
öpülməlidi.

İSTANBUL

İstanbul gecələri.
Yeddi təpəlik qaranlığı var axşamlarının,
dənizlərinin saysız qolu var,
gecələr təpələrini qoynuna alıb yatar.
Mənsə durub o boyda
yolu yora-yora
sənin balığına limon sıxmağa gəlmişəm.

Rakıların üzü ağ olsun,
çörəyin dilimi qara.
Mən kimsəsiz otellərdə
ayrı-ayrı qoyulmuş
çarpayıları birləşdirməyə gəlmişəm.

İndi qardaşlarını tərifləyən
fahişələri dinləyirəm,
yazığım gəlir eşitdiyim yalanlara.
İçdiyim qəhvələrdən falıma çıxan
alagözlü qızı gözləyirəm dayanacaqda.

Yeri dünya, yeri.
qoy gözümü yumub yaşayım,
mən sənə arxadan baxmaq istəmirəm.

Tarix qəhrəmanın qılıncı ilə
Peyğəmbərin əsasını,
Kəbənin açarı ilə
ləçərlərin boyunbağılarını
bir yerdə seyr etdirir bizə.

Üzüm gəlmədi,
Topqapında qılınclardan
qanları soruşum, İstanbul.
Tarix hər şeyə "olub" deyib keçir.

Küçələrində kley iyləyib
bihuş olan uşaqları,
pianqo çarxlarında fırladılan
ümidləri gördükcə
anladım ki, qara trenlər hara aparıb kimləri.
Soruşdum ki, xoşbəxtsənmi, İstanbul?

Dedin: “Sezeni dinləyəndən
belə şey sormazlar”.

Klarnet ustası, barmaqlarına yox,
papağına atılan quruşlara baxıb çaldıqca,
ovurdlarına yığdığı ağrını üfürürdü alətə.
Sənin dərdini saydıqca
barmaqlarını unudursan, İstanbul,
canını unudursan. . .

İSTANBUL GECƏSİ

Bəzən böyük şəhərlərə
hansısa xatirələrin ardıyca gəlirsən.
Gəlirsən ki, görəsən bizim taleyimiztək daha
nələr dəyişib?

Qürbətin gözəlliyi, yəqin, həm də budur ki –
səni gözləmir heç kəs... …“nə vaxt
gələcəksən?”

Yeriyirsən küçədə Hamlet addımlarıyla.
Qürbətin yuxusundan oyananda hər səhər
bir az da yoğunlaşır darıxmağın biləngi.

Bu sükutlu qürbətdə bu sehrli yalana inanmaq
nə gözəldi:
həyat sənin üzündən ölüm maskası alıb,
sonuncu təbəssümün şəkli ancaq məndədir.

Yeriyirəm küçədə... yağış yağır... gözəldi...
Köynəyinin qoluyla uşaq silir sazını.
Hardasa bir aşiq söz verir özünə: ta bir də
ağlamaram.

Ninni oxuyuram mən təzə müşküllərimə.
Qolu qandallı birini aparırlar polislər
tez-tez qanrılıb baxır azadlığa – geriyə.

İSTANBUL SƏNSİZLİYİ

Boğaza getdim – sənsizlikdi,
rakıya endim – sənsizlikdi,
pianqo aldım – gözlərin yox.
Körpünü keçdim, sənsizlikdi,
Atatürk heykəli sənsiz,
qadın paltarları sənsiz,
bazar sənsiz,
balıq bazarında çağırmırlar səni,
pulun üstündə şəklin yox,
kitabçılar tanımır,
əsgər ayaqlarında döyülmürsən yerə,
diskin yox, şəklin yox, səsin yox,
eee... mən gəzməyə yox,
səni axtarmağa gəlmişəm, deməli.

NƏHRUN-NİL

Kimisə xatırlamağa bəzən bir ömür bəs etmir,
yoxsa gəlib gecə-gündüz düşünərsən...
...Nil uzunu...

Batanları aramırlar,
çaysa aldığı canları
itirməz, ovcun saxlar
Nil uzunu...

Bir sahildə yandırılmış binalar,
bir sahildə işıqlı restoranlar,
bir sahili bu dünyadı,
bir sahil o dünya.
Bu dünyadan o dünyaya
qayıqçılar beş qneyə aparırlar.

Sevənlər arzularını yazıb atırlar suya,
barmaqbalıqları udur dünya boyda arzuları,
bəs görən niyə talelər qarışmır Nilin canına?

Eh... indi anam mənə körpü üstündən baxsaydı,
yəqin, mindiyim qayığı qundağa oxşadardı.
Mənimsə başım günbəz,
əllərim də minarə,
Allaha şükür edirəm...
Nil uzunu...

QAHİRƏ QƏDƏRİ

Burda “Ölü şəhər”in sakinləri nəsil-nəsil əzizlərini
evlərinin zirzəmisinə gömürlər;
burda ən adi şeydən ötrü ağladınsa,
demək, ölünün üstündə,
məzar başında da ağladın.

Təhrir meydanındakı tanklar
mürgüləyən inqilabın keşiyini çəkir hələ də –
xalq oyansa, odlu iynə vurub uyudacaqlar.

Xan Xəlili bazarındakı işıqlar
insan üzündə daha da solğunlaşıblar;
iztirabları anlayıblarmı görən?
Mənisə bir qoca qarının
gəlinlik donunda dilənməsi az qala dəli eləyir.

Yaşımın indisində sözlərin gücsüz,
arzuların aldanış olduğunu anlamaqçün
otel odasındakı pərdəni sıyırmaq bəs edir mənə.

Dinin ədalətindən danışanlar məscidə girəndə
ayaqqabılarını əlinə götürürlər.

İndi dünyanın beşiyində
muncuq satan kişiylə
üzərlik gəzdirən qocanın
və oyuncaq ehramlar düzəldən ustanın
ümidləri sorğulamır inqilabı –
hamı öz yerinə ölüb: həyat müdrikdir.

Deyirlər gözlərin olsa da, qürbətdə korsan;
korun qaranlığa danışmasıdır bu gecə bu şeir...

RUSİYA HƏRB GƏMİSİNDƏ

Əslində hər şey müharibə səbəbləri kimi
sadədir,
bilmək çətin deyil əlilin idmançı köynəyi
geyinməsinin səbəbin.

Bəzən də bir istədiyindən əlinə min düşür,
ancaq səadətin rəqəmlərlə yox,
zamanla hesablandığını düşünüb yanırsan
keçmişə.
Tarix də hikkəli adamlar kimi unutmur heç nəyi.

Müharibədən xatirə qalan döyüş gəmilərinə
baxıram,
tarixə həbs olunublar axıtdıqları qanlara görə.
Sahilə mıxlanmış zəncirlərisə sulara dartılır
və bu qüssəli tələ,
yəqin, bu günahdan xilasın mümkünsüzlüyünə
nişanədi.
Mənsə daha canımı yox, üzümün ifadəsini
qorumağa çalışıram.

MOSKVA

Səsi ciyərindən üzülmüş adam kimi,
xırıldayır Moskva sübhü.
Naməlumluğa yollanan gəmi,
mənim nəyim var ki,
sənin arxanca yelləmək istədiyim əllərimdən
başqa?
O da bir qadın ovcunda külə basdırılmış kartof
kimidi...
İndi...

***

Gəmi, sən üzüb uzaqlaşdıqca
geridə qalan suları Tanrı arxanca atır, – uğur
olsun.
Burda yağışlar küçələri qab-qacaq kimi yuyur –
büllurlandırır,
öpüşlər soyuqla əlbirdi – bədənləri allandırır.
ilk öpüşdən qızarmış qadın boynudur Qırmızı
Meydan.
Özümü Yer Kürəsi hesab edirəm,
yanımdakı gözəlsə sinəmə Ay kimi doğub.

***

Təşbehsiz gözəllikləri sevirəm –
Allahın adları kimi...
İçimdəki şeiri ağzımdan çıxan buxar oxuyur
havaya,
bu vaxt bir incə səs
öz zərifliyinə sadiq qalaraq soruşur: "nə
düşünürsən?"
Mənsə doğulan gündən bu sualın cavabına
hazırammış kimi dərhal "səni" deyirəm.
Çiynimə bir baş enir, uçur göyərçin ağrılar.

***

"Kor qocayam, hər səhər yollanıram
günəşin doğuluşunu seyr etməyə.
Gözlərimi itirsəm də, itaətdə əvəzsizəm",
və görmədiklərimi də sevirəm, Sahibinə görə.
Allaha şükr etməyə o qədər səbəblər var ki,

bir-bir sayası olsaq, çox şeyi unutmaq şərtiylə qocalarıq.
İndi mən "səni sevirəm" söyləsəm,
qarşılığında "mən də səni" deyən yox,
mənim dualarıma "Amin" deyəsi birini arzulayıram.

***

Dünya – bu qədim qəbiristanlıq gülür bizə.
Bizim bu dünyagirliyimizə,
"ölümsüzlüyümüz"ə.
İnsanları gerçəklər yox, xəyallar yaşadır,
odur ki, ilk insan ölümünü ustufca unutmuşuq.

***

Müəllim kimdir? – Suallara cavabı olan.
Deməli, həyat müəllim deyil,
o, sual verməyi öyrədir.
Bir də var, sualsız yaşamaq – buyrulduğu kimi, –
Onda da məntiq çözülür:
deməli, suallar həm də düzgün yaşamayanda doğulur.

***

Moskva. Gəmisi suyuna yaraşan şəhər,
üşütməyə soyuğun, isitməyə çayın var.
Qədəhlərin dolu, şüşələrin boş,
nar gilələritək səpələnib küçələrə adamlar.

***

Hərdən elə bilirəm, kiminsə yuxusudur ömrüm,
həmin kəs oyanacaq və ömrüm bitəcək.
qəribədir, olur ki, doğrudan da, inanıram bunlara.
onda rənglər divarlardan axır,
sular solur,
pəncərələr örtülür –
çəkilirəm taleyimin mənzərəsi önündən.

***

Olur ki, bəxt, siqaret də verir, alışqan da –
hətta odlayır – canına cəfa basıb.

Sən bu qulluqdan xoşhal olmaya bilmirsən,
fəqət anlayanda ki, bütün bunlar sənin ziyanınadı,
hətta gözəl günlər də ömründən çıxılır,
onda ya susursan,
ya da ustadın kitabındakı sözləri xatırlayırsan:
"Kökünüz kəsilsin, ikiayaqlılar".

***

İnsan qəfil qocalsaydı,
bəlkə də, həyatın qədrini daha yaxşı bilərdi.
Ömürsə şəkildəki kimidi –
tərpənmir – köhnəlir sakitcə.

***

…daha öz həyatımla özümü yormuşam.
Nə pisdi oyun olduğunu bilə-bilə oynamaq,
nə deyim, – onsuz da, doğrusun Allah bilir.
mənsə bildiklərimlə həyata yalan qatmaq
istəmirəm – susuram.

***

Həyatı "həya at" sözüylə səhv saldız:
Soyunduz – soğantək soyulduz,
ancaq vicdanınız göynəmədi.
İsmətsiz qadınlar rahathulqumdu:
yeyilir – doydurmur kişini.
nə də ki, doldurmur kiminsə yerini.

***

Ürəksə qoy olsun doktorun –
mənimki bir qırıq könüldü.
sevdalı, daha çox hisslərə nabələd.

***

Tanrı bilir – bir insan bəs edir, bir insan.
odur ki, qolumuz, qoynumuz bir yerlik.
bax indi, Moskva, siqaret yandırım
acısı canıma –
tüstüsü də sənə, üzərlik.

NƏSR

Təzə şitillər

Təranə VAHİD

Qəlbindəki bütün hissləri köklü-köməcli çıxarıb atdı, yerində təzə şitillər əkdi...

Güləhməd axşam-səhər qonşusu Niftalının beynini yeyirdi ki, dəyişilmək lazımdı. Mütləq lazımdı! Nə yolla olursa-olsun, nəyin bahasına olursa-olsun, lazımdı da, qardaş. Bu həyatdı, dəyişsən, yaşayacaqsan, dəyişməsən, yox, başqa çarə yoxdu.

Yetmişinci baharını xırda pul kimi yenicə sayıb ömür daxılına atan Niftalı Güləhmədin hücumlarından nə qədər yayınsa da, hərdən nakauta düşürdü. Dəyişə bilməsə, başına gələcəklərinin xofu onu əməlli-başlı havalandırırdı. Amma necə dəyişsin, dəyişməyə haradan başlasın, harasını birinci dəyişsin, bax bu qəliz suallar qarmaq kimi yaxasından yapışırdı.

Bir dəfə çəkinə-çəkinə mətləb üstə gəldi, məsləhət istədi. Güləhməd əlindəki təsbehi tərsinə fırladıb iri gözlərini bərəltdi:

- Burnundan başla. Uşaq vaxtından əngəllidi. Əvvəlcə burnunu səliqə-səhmana sal...

Təsbehini bir də çevirib sözünə davam elədi:

- Sonra başla bala-bala dəyişilməyə.

Niftalı əvvəlcə vahimələndi, sonra açıqdan-açığa Güləhmədə yaltaqlandı:

- Güləhməd, gəl burnuma toxunmayaq, başqa yerdən başlayaq, məsəlçün elə üst-başımdan.

- Olmaz!

Güləhməd bomba kimi partladı.

Üç gündən sonra Niftalı burnu gipsli evə gələndə Güləhməd bir şüşə konyak, yanında da italiyan şokoladı alıb Niftalının burungördüsünə getdi.

Birinci əməliyyat uğurlu keçmişdi. Niftalı təzə burnu ilə hələ nəfəs ala bilməsə də, hərəkətləri ilə birtəhər başa saldı ki, əməliyyat ağır olub, ölüb ölümdən qayıdıb. Niftalının gözündəki təlaş Güləhmədi əvvəl qorxuya salsa da, iki qədəh konyakdan sonra dəyişilməyin necə xeyirli şey olduğu barədə sicilləmə hekayət uydurdu.

Sözün düzü, Niftalının yeni burnu gözlədiyi kimi qalmaqalla qarşılanmadı. Arvadı Səmənixanım daldaya düşəndə ərinə çıldırlatdı ki, gözəl-göyçək yaraşıqlı kişiymisən, heç xəbərim olmayıb.

Bu alovlu sözlərdən sonra bir müddət Niftalının günü güzgü qabağında keçdi. Amma Güləhməd bir ucdan "dəyişmək, mütləq dəyişmək" – deyib qonşusunun beynini yeyirdi.

- Bura bax, Niftalı, dəyişdin, ölmədin ki, azından 20 yaş cavanlaşdın da, qardaş, bu da dəyişilməyin xeyri.

Niftalı qonşusunun sözündən lap ürəkləndi.

- Sən de, dəyişim də, bu qara lələşin ölməyib ki.

Güləhməd zəndlə qonşusuna baxdı.

- Niftalı, səni anadan olandan tanıyıram. Yarım əsrdən çoxdu saçını yana darayırsan. Başa düşürəm, ortada burun söhbəti vardı. Bu dağı əritdin, indi zəhmət çək, saçını arxaya dara, krem çək, balaca burunla bu fason noxudla pivə kimi gedər.

Niftalı qonşusundan daha ağır şərtlər eşidəcəyini güman elədiyindən Güləhmədlə ələstü razılaşdı.

Sabahı Niftalı yeni imiclə məhəllədə gəzib-dolaşanda heç kim ona pis gözlə zadla baxıb

eləmədi. Əksinə, təzə qonşularından biri etiraf etdi ki, ağsaqqalarda belə həyat eşqi görəndə yaşamaq istəyir. (Gör cavanlar nə gündədir).

İkinci qələbədən sonra Niftalı dəyişilməyin dadını bildi. Özünü bütünlüklə Güləhmədin ixtiyarına verib təcrübə siçovulu kimi itaətkar oldu. Güləhmədin "Dəyişilmək qanunu"nun müddəalarına əməl edə-edə camaatın 20 ildə əldə edə bilmədiyi yenilikləri əldə etdi. İngilis dili kursuna yazıldı, kompüter bilgilərinə yiyələndi, Nitşse fəlsəfəsindən vurub hind fəlsəfəsindən çıxdı, köhnəliyin buxovlarından azad olub yeni insana çevrildi.

Elə-belə yox ha, Güləhmədin sayəsində. Güləhməd adi Güləhməd deyildi. Yaşı 80-i haqlasa da, qısqıvraq, özünə baxan, müasir, açıqgözlü zəmanə adamı idi. Uzun illər zavodların birinin mədəniyyət evində müdir işləmişdi. Öz qanunları ilə yaşayan bu adam bütün istəklərinə nail olmuşdu. şagirdindən on yaş böyük olsa da,bir məhəllənin uşağı idilər. Güləhməd Niftalı üçün etalon idi. Dünən də, elə bu gün də...

Güləhməd vaxtaşırı şagirdinə təlqin edirdi:

- Azadlıq, sərbəstlik, özünə inam insana oksigen kimi lazımdı. Sən beş dəqiqə oksigensiz yaşaya bilərsən? Bilmərsən, qardaş, heç üç dəqiqə də dözmərsən. Ruhuna azadlıq ver, preslənib eyyy içində, onu elə, bunu eləmə, belə oturma, belə durma, belə yemə, belə içmə, belə sevmə, belə ölmə. Qardaş, bu...

Bu yerdə Güləhməd dahiyanə görkəm alıb uzun-uzadı fikrə gedirdi. Niftalı xırda gözlərini qonşusunun ağzına dikib açıqdan-açığa möcüzə gözləyirdi.

Əvəzində handan-hana Güləhməd:

- Bu, yaşamaq deyil – deyib köks ötürürdü.

Bir sözlə, Güləhməd dönə-dönə Niftalıya qərb insanının təfəkkürünü, həyat tərzini nümunə gətirir, Niftalıya zamanın içində özünü axtarmağı, özünü tapmağı tövsiyə edirdi. Allah üçünə Niftalı gecə-gündüz özünü axtarırdı. Başı özünə o qədər qarışmışdı ki, ailəsindən, evindən, keçmişindən uzaqlaşıb soyuqqanlı, laqeyd, başısoyuq Niftalıya çevrilmişdi.

Axır vaxtlar Niftalının arvadı gülərüz, qonaqpərvər Səmənixanım Güləhmədə əvvəlki sifəti göstərmirdi. Daldaya düşəndə gileylənirdi ki, Niftalı quzu kimi fağır, abırlı-həyalı bir adamıydı, kişinin evini bu bambılı yıxdı.

Güləhmədsə məhəllədə şortiklə gəzən, qulağında nauşnik, ingilis dilini təkmilləşdirən, keçən ay arvadının təqaüdünü öz təqaüdünün üstünə qoyub velosiped alıb yıxıla-yıxıla öyrənən Niftalıyla fəxr edirdi.

Amma öz işini bildiyindən Niftalıgilə daha əvvəlki kimi ərklə, ürəklə gedə bilmirdi.

Bu dəfə ideya qardaşları vədələşdikləri yerdə - məhəllədəki çayxanada görüşəndə zamanla ayaqlaşmaq üçün daha hansı yollara əl atacaqlarından, hansı yeniliklərdən yararlanacaqlarından uzun-uzadı danışdılar.

Əldə etdiyi yeniliklər Niftalının tək gözünü yox, dilini də açmışdı. Ömrü boyu qırışa-qırışa gəzən Niftalıda özünə inam qədərini çoxdan aşmışdı. Güləhmədin xəbəri yox idi ki, Niftalı içindəki hissləri köklü-köməcli çıxarıb atıb, yerində təzə şitillər əkib.

Niftalı çoxdandı kompüterdə odnoklassnikdə yeni sevdaya tuş gəldiyini deyəndə, okeanın o üzündə - Amerikada – Florida ştatında həyatının qadınını – Ursulanı tapdığını, nə yolla olursa-olsun qara mirvarinin ardınca gedəcəyini inadkarcasına söyləyəndə, Güləhmədin ağzı açıla qaldı. Niftalı birbaşa Güləhməddən sitat gətirdi: "İnsan qısa, çox qısa ömründə ürəyinin istəyinə qulaq asmırsa, ölüdü!!!" Mən ölü deyiləm, Güləhməd! Dırnağımın ucundan başımın tükünə, hüceyrələriməcən dəyişmişəm. Dəyişilməyimin qarşısını heç kəs ala bilməz, heç sən də!

Güləhməd quyruğu tələdə qalan tülkü kimi vaqqıldadı. Fağır Niftalı şir kimi nər-nər nərildəyirdi.

- Bəs pul, ora getmək üçün bir ətək pul lazımdır, qardaş. Bir də o qara-qura qadından ötərin bu boyda yolu getməyə dəyər, dəyməz, bunu bilmirəm? – deyib Güləhməd Niftalını qərarından daşındırmaq istədi.

- Bəs dəyişmək nəyə deyirsən, Güləhməd? Mən Ursulanın səsinə səs verməyə gedirəm. Evdəkinin bir az lazımsız metal kütləsi vardı– qır-qızılı deyirəm, dəyər-dəyməzinə satdım, bilet aldım, sabah uçuram.

Güləhmədin rəngi ağardı.

- Belə tez?

- Gözləmək uduzmaqdı, qardaş, - bu dəfə Güləhmədin sevimli "qardaş" sözünü o dedi.

- Tələsməliyik. Qara mirvarinin ürək döyüntülərini eşidirəm. Adamların səsinə səs vermək, adamları dəyişdirmək üçün dünyanın o başına da getməyə dəyər.

- Bəs Səmənixanım, bəs milli-mənəvi dəyərlər, bəs...

- Dəyərlər??? Hansı dəyərlər? İnsan hissləri qarşısında bütün dəyərlər dəyərsizdi. Biz dəyərləri ona görə uydururuq ki, kimsə öz arealından kənara çıxmasın, öz çəmənində otlasın Dəyərlər sərhəddi. Mən o sərhədi yaracam, azad adam olacam.

Güləhməd təcrübə siçovulunun belə fərasətli olacağını heç ağlına da gətirməmişdi. Ömrü boyu ayaqqabı fabrikində mühasib işləyən, bir ömür şotkada rəqəmləri sağa-sola şaqqıldada-şaqqıldada daşıyan, adət-ənənələrdən yarım santimetr kənara çıxmayan Niftalı 9 min kilometrlik məsafəni keçməyə hazırlaşırdı.

Görüşüb ayrıldılar.

O gecə Güləhməd səhərəcən çimir eləmədi. Özünü Niftalı uçandan sonrakı tufana hazırladı. Belə dolma-dolaşıq fikirlərin arsında səhərə yaxın mürgüləmdi...

Səhər heç nə baş vermədi. Heç sonrakı günlərdə də fövqəladə bir şey olmadı. Güləhməd uzun müddət Səmənixanımın gözünə görsənmədi.

Axır bir gün qarşılaşdılar. Səmənixanımın tükü də sınmamışdı. Güləhməd ürəklənib Niftalını soruşdu.

Səmənixanım canıyananlıqla dedi:

- Ay Güləhməd qardaş, gedəni saxlamaq olmaz. Niftalı fb-da uşaqlarla hər gün danışır. İpini qırıb çəmənliyə qaçan at kimi kefi sazdı. Qoy gəzib-dolaşsın, havasını dəyişsin, anası ölmüş eşşək kimi işləməkdən başqa bu dünyada nə gün görüb.

Elə bil Güləhmədin üstündən dağ götürüldü...

Yeddi aydan sonra Niftalı qəflətən peyda oldu. Güləhmədlə həmişəki çayxanada görüşdülər. Niftalı elə bil yenidən doğulmuşdu. Pivə içə-içə səfəri barədə xeyli danışdı. Dediyinə görə, həyatının qadını Ursula ilə yeddi ay unudulmaz günlər yaşayıb. Sevgi bağı soluxub payız bostanına çevriləndə hər ikisi razılıq yoluyla hekayələrinə nöqtə qoyub, qara mirvari onu təmtəraqla öz keçmişinə yola salıb. Nəvələrinə pay-puş da göndərməyi unutmayıb. Üstəlik dəyişilmə əməliyyatını uğurla həyata keçirdiyinə görə Niftalıya ömrünün sonunacan bəs edəcək bir sürü ayaqqabı alıb bağışlayıb. Tövsiyə eləyib ki, bacardıqca bütün ölkələrin torpağını tapdalasın. Qadında ürəyə bax!

Niftalı danışdıqca Güləhməd özünü naftalin kimi hiss edirdi.

Niftalı söz verdi ki, Güləhmədi dəyişdirəcək, mütləq dəyişdirəcək! Güləhməd təcrübə dovşanı kimi key-key baxırdı...

DURNA ADAM

... Yaddaşını küləklər daradıqca çox-çox uzaqlarda sümüyü sürmə olmuş anasının həzin laylasını eşidirdi...

... iki yaddaşın arasında nə edəcəyini bilmirdi.

Əlif kişi payızda sümüklərini şaqqıldada-şaqqıldada evdən həyətə çıxar, köhnə kötüklərdən birinin üstündə oturub özünü guya günə verərdi. Belə vaxtlarda hardansa bir durna qatarı qaqqıldaşa-qaqqıldaşa kəndin, həm də elə payızın üstündən ötüb keçərdi. Əlif kişi başını qaldırıb pıçılğanlı gözləriylə göydə durna qatarını axtarar, koruş gözləri qara kölgələrdən başqa bir şey seçməzdi. Dişsiz ağzını marçıldadıb "Allahın altında dönüb durna olaydım. Qoşulaydım bu qatara, gedəydim dünyanın axırına. Ax, ax..." – deyib uzun-uzadı ah çəkərdi.

Bu sözləri hər payız deyərdi, papağını fırlatmamış payız özünü yetirərdi.

Bu dəfə də payız qapının ağzını kəsdirib alabəzək qanadını kəndin üstünə sərmişdi. Əlif kişi kötüyün üstündə oturub cani-dildən, ürəyinin lap dərinliyində insanlıqdan üz döndərib durna olmaq istəyirdi. Çox istəyirdi, lap çox istəyirdi eyyy....

Bu dəfə möcüzə baş verdi, əvvəl ruhu titrədi, yer-göy birləşdi, qoca, heysiz bədəni qayış kimi bərkidi, uzunboyun, uzunayaq, uzundimdik ağbaş durnaya çevrildi. Bircə yaddaşı özündə qaldı, üstünə bir az da durna yaddaşı artırıldı. Kötüyə söykəli əl ağacı sürüşüb yerə düşəndə başı dən yeməyə qarışmış toyuq-cücə həyətdəki yad quşu görüb səs-səsə verdi.

Əlif kişinin gəlini Firəngiz həyətə çıxıb nə baş verdiyini öyrənmək istədi. Kötüyün üstündəki durnanı görəndə elə pilləkənlərdəcə əlini ağzına aparıb qıyya çəkdi:

- Boooyyy, bu durna hardan gəlib? – dedi.

Arvadının səsi evdə mürgü döyən ərini diksindirdi. Nəcəf arvadının keçmiş-keçəcəyini söyə-söyə eşiyə çıxdı.

- Az, noolub, ay naxırçı Güləhmədin qızı, dünyamı dağılıb?

- Ə, noolajaq, durniyə, bax, durniyə. Dimdiyinin uzunluğuna bax, ayaxlarına bax, dədənin evi yıxılsın, durna yeyəsi.

Nəcəfin gözləri çalağan ov görən kimi parıldadı. Pıçıltıyla:

Az, səs salma, ürkütmə - deyib dalı-dalı evə keçdi. Yan otağın pəncərəsini açıb eşiyə çıxdı, odunluğa gedib oduncaqların arasından əlinə keçəni götürüb ehtiyatla durnaya yaxınlaşırdı ki, nəvəsi Nəriman hardansa peyda olub quşun qənşərində dim-dik dayandı. Uşaq durnaya maraqla baxıb:

- Nətəhər də babama oxşayır, - deməyi ilə Nəcəfin salvanı qolazlamağı bir oldu. Salva durnanın başının üstündən vıyıltıyla keçib qızılgül koluna ilişdi.



Durna diksinib qanadlarını çaldı, göz qırpımında göyə qalxdı.

Nəcəf durnanın dalınca gücü gəldikcə bağırıb, yağlı bir söyüş söydü. Nəvəsi gözlərini qıyıb mırıq dişlərinin arasından:

- Getdi – dedi.

Firəngiz əlini-əlinə vurub:

Yediyiz!!! – deyib şaqqanaq çəkdi:

Nəcəf donquldana-donquldana evə keçdi, Nəriman gördüklərinin üstünə beşini də qoyub danışmaq üçün qonşugilə yüyürdü.

Qısa payız günü dağın dalına keçib itdi, axşam düşdü. Evin külfəti malı-qoyunu, toyuq-cücəni, iti-pişiyi rahatlayandan sonra evə yığışdı.

Əlif kişinin yoxluğu da onda üzə çıxdı. Əlif kişinin taxtın üstündəki bomboş yeri, söykəndiyi ipək mütəkkəsi, kəhrəba təsbehi, yay-qış üstündən düşməyən dama-dama şalı elektrik işığında birtəhər göründü.

Birdən-birə hamı narahat oldu, Firəngizin rəngi qaçdı. Günahkarcasına:

- Hara getmiş olar bu kişi? – deyib çiyinlərini çəkdi.

Nəcəf gözünü oğlunun, gəlininin, sonda nəvəsinin üzündə gəzdirib dilxor-dilxor:

- Düzünü deyin, bəlkə, kimsə kişinin xətrinə dəyib? – deyə səsini qaldırdı.

Evdəkilərin ağızlarına su alıb durmaları onu təbdən çıxardı.

- O boyda kişi iynə olub yoxa çıxmadı ki?!

Firəngiz kəkələdi.

Nəriman həyətə qaçdı, bir azdan Əlif kişinin əl ağacı ilə qayıdanda kişinin başında qəzavü-qədər olduğuna hamı inandı...

...Əlif kişi iynə olmamışdı, amma quş olub göyə uçmuşdu. Göylərin genişliyi, rahatlığı, azadlığı ağlını başından almışdı. Qocalıqdan canı qurtarmış, işıqsız gözlərinə haradansa işıq axmış, nəfəsinin yeri genəlmiş, ayaqları, qolları quş kimi yüngülləşmişdi. Uzun qanadları enib-qalxdıqca, ürəyində "İlahi, kərəminə şükür, bəxtimdə durna olmaq da varmış" – deyib Yaradandan dualarını əsirgəmirdi. Göylərdə süzdükcə ovuc boyda kənddə

doğulub, yaşayıb, ölməyin necə kasad olduğunu düşünürdü. Pambıq tayaları kimi yumşaq buludlara baş vurduqca ləlekləri dincəlir, tər-təmiz havanı ciyərlərinə çəkdikcə yaşamaq, yaşamaq istəyirdi.

Yuxarıdan yer üzü ovuc içi kimi aydın görünürdü. Göllər güzgüyə, çaylar mavi rəngli lentə, dağlar yumru qayalara bənzəyirdi.

Hansısa hiss, hansısa yaddaşı onu elə hey səsləyirdi.

Əlif kişi nə qədər uçduğunu, nə qədər qanad çaldığını xatırlamır. Bircə onu xatırlayır ki, ay işığında ağ-qara səslər eşidib yerə endi. Çayın kənarında köç salmış durna ailəsinə yaxınlaşdı.

Onun gəlişi köçə qarışıqlıq saldı. Durnalar ona ögey, yad gözlə baxdı, durnabaşı açıqdan-açığa üstünə yeriyib dimdiyi ilə onu qovmağa çalışdı. Əlif kişi bir ayağı üstə dayanıb dəstəsindən ayrı düşmüş qərib durna kimi davrandı.

Durna köçü dalğalandı, durnalar pıçıldaşdı, deyəsən, nəşələrini pozmaq istəməyib Ağbaş durnanı başına buraxdılar. Əlif kişi çaya enib göz yaşı kimi dupduru, aydın suda yuyunub-darandı, çayın qırağındakı körpə otlardan,qum dənələrindən çinədanına atıb, sal daşın üstünə qonub mürgü döydü. Sən demə, durnalar da yuxu görürmüş. Əlif kişi durna yuxusunda gördü ki, müdrik bir durna qanadının ucuyla torpağın üstündə xətt çəkib durnalardan soruşdu:

- Kim deyər, xəttin o üzündə nə var?

Durnalardan biri:

Xəttin o üzündə torpaq var.

Bu cavab müdrik durnanı qane etmədi.

Başqa bir durna:

- Xəttin o üzündə yadlıq var. Ora sərhədin o üzüdür, ora mənə yaddır, ora təhlükəli yerdi, – dedi.

Müdrik durna razılıqla başını tərpətdi.

Sonra müdrik durna həmcinslərinə son tövsiyəsini verdi:

- Yaddaşınıza yazın, durna üç iqlim, üç sərhəd keçə bilər. Dördüncü sərhədi keçən geri dönməyəcək.

Sonra durnalar yox oldu, Əlif kişiyə bərk-bərk tapşırıldı ki, keçmişini yaddaşından silib atsın, durna olduğunu unutmasın.

Əlif kişinin yuxusunu durnaların səsi qırdı.

Durnabaşı uçub Əlif kişinin daşına qondu, onu dimdiklədi, gözlərinin içinə baxdı, dəstəsindən ayrı düşmüş durnaya nədənsə qanı qaynamadı, ağbaş durnaya inanmadı. Bunu Əlif kişi də duydu, amma neyləyə bilərdi. Dünyanı görmək, ölkələrin üstündən keçmək üçün nələrdən keçməmişdi?

Durnabaşı sonda Ağbaş durnaya dəstəsinin sonunda yer verdi.

Əlif kişi sevindiyindən rəqs etdi, durna rəqsi...

Ağ işığını yer üzündən çəkəndə dəstə havaya qalxdı...

Uçuş zolağında Əlif kişinin insan yaddaşıyla durna yaddaşı toqquşdu. İnsan yaddaşı onu keçmişə, durna yaddaşı gələcəyə səsləyirdi. Bu qarışıq hisslər ona dinclik vermir, iki yaddaşın arasında nə edəcəyini bilmirdi. Gün yarı olanda Durnabaşı sərt əmrini eşitdi. Bir azdan sərhədi keçəcəyik. Sərhədi keçəndə yaddaşımız itəcək, köhnə yaddaşımız silinəcək, yeni yaddaş, yeni yol başlayacaq. Bu sirri bircə durnalar bilir. Hazırlaşın, bir azdan keçmiş bütün sevinci, kədəri ilə heç olmamış kimi unudulacaq. Sərhədi keçən kimi yeni yaddaş yazılacaq. Əlif kişi eşitdiklərinə mat qalmışdı. O, keçmişi unutmaq istəmirdi, keçmiş onun içində ürək kimi döyünürdü. Sərhəd həmişə incə bir duyğu kimi qəlbini titrətmişdi. İndi günəşli havaya, dadlı otlara, giləmeyvələrə görə yaddaşından keçəcək? Kəndini, evini, ona doğma olan nə varsa hamısının üstündən xətt çəkəcək? İnsan yaddaşını durna yaddaşına təslim edəcək?

Əlif kişi ağ zolaqda - sərhədin sərhədində dayandı. Bütün qəlbi titrəyirdi, bütün vücudu əsirdi, keçmişindən qaçmaq, keçmişindən ayrılmaq, keçmişini unutmaq ona ağır gəlirdi. Dəstə sərhəddən keçirdi, dəstə yaddaşını itirirdi, Əlif kişi öz sərhəddini keçsə də, Vətənin sərhədini keçə bilmədi. Yaddaşları silinən durnaların arxasınca uzun-uzadı, qanadları yorulanacan baxıb geri döndü.

Uçduğu yollar, keçdiyi sular, toxunduğu buludlar, dincəldiyi, nəfəsini dərdiyi torpaqlar ona nəğmə deyirdi. Əlif kişinin insan yaddaşını küləklər daradıqca çox-çox uzaqlardan sümüyü sürmə olmuş anasının həzin laylasını eşidir, göz açdığı kənd, gəzdiyi torpaq, yaşadığı vaxt onun yolunu gözləyirdi.

Günlərlə uçub öz yurduna yağışlı, küləkli bir gündə qayıtdı.

Əlif kişinin yoxa çıxmasından üç gün keçirdi.Yağışın altında evlər hüznlü, kədərli

görünürdü. Əlif kişi uzun yoldan sonra ürəyi döyünə-döyünə köhnə kötüyün üstünə qondu. Möcüzə baş vermədi, Əlif kişi dönüb adam olmadı. Səhərəcən köhnə kötüyün üstündə büzüşüb, bir ayağını götürüb, o biri ayağını qoydu.

Səhəri gün ev sahibləri dəstəsindən ayrı düşmüş durnanı kötüyün üstündə görəndə çaşıb qaldılar. Üzünü tük basmış Nəcəf durnaya doğması kimi baxdı, Firəngiz qərib durnanı görüb ağlamsındı, Hikmət babasına oxşatdığı durnanın boynuna sarılmaq istədi.

Əlif kişi əzizlərinin ürəyindən keçənləri anladı, kötüyün üstündən yerə enib dən yeyən toyuq-cücəyə qarışdı.

Nəcəf:

- Ona toxunmayın, madam ki, bu qapıya pənah gətirib, qoyun kefi istədiyi qədər burda yaşasın, - dedi.

Bir vaxtlar sahibi olduğu həyətdə durna kimi yaşamaq çətin olsa da, Durna Adam hər şeyə razı idi, təki keçmiş xatirələrinin həzinliyi, yaşadığı illərin ətri, yaddaşının sərhədləri pozulmasın.

Əlif kişi hər payız köhnə kötüyün üstünə çıxıb köç edən durnalara baxır, adam olacağı günü gözləyirdi...

ÜMİD SATAN

Adamlar çörək axtaranda ümid,
ümid axtaranda heç nə tapmır...

Yadulla kişinin kefi olmayanda özünə ağı deyirdi. Sözləri də təxminən belə olurdu: adın qara daşlara yazılacaq, baş daşından o yaraşıqlı oğlan, oğlan ha, yetmişi çoxdan keçib, oğrun-oğrun boylanacaq.

Ağının bu yerində nədənsə Yadulla kişinin ağlına gəlirdi ki, şəklini daşa döyəndə bığı yaddan çıxıb qalacaq. İlin-günün bu vaxtında hansı axmaq iki gün daşa bığ döyər? Ömrü boyu bığlı gəz, son mənzildə bığını ixtisara salsınlar.

Ağının bu yerinə çatandaYadulla kişi lap ümidsizləşirdi. Dodağının altında mızıldanırdı:

- Bu bığsız sifətinlə bir müddət baxacaqsan dünyaya. Nə vaxtsa baş daşın da yağışa, qara, küləyə, zəlzələyə, ekoloji fəlakətlərə - ədalətsizliyə tab gətirməyib çat verəcək. Ondan sonra dünyayla biryolluq üzülüşüb gedəcəksən işinin dalınca...

Bu qısa hekayətdən və vida mərasimindən sonra Yadulla kişi qaramatını töküb yüngülləşirdi. "Bəsdi zarıldadın ə, yekə kişisən, dur ağaya, get çörəkpulunu qazan" – deyib sanki əllərilə çiyinlərindən tutub özünü yerdən qaldırırdı.

Yalan olmasın, sovet dağılandan Yadulla kişinin lotereyada bəxti gətirmişdi. Şəhərin o tini, o döngəsi, o səkisi yox idi ki, qışın soyuğunda burnunun suyunu axıtmasın, metroların, yeraltı keçidlərin o çıxışı yox idi ki, yayın istisində tər vurub dabanından çıxmasın. Əvəzində özünün icad elədiyi "Ac quşlar + ümid tələsi = çörəkpulu" düsturu ağır illərdə onu çörəksiz qoymamışdı. Hərdən zarafata salıb deyirdi ki, lotereya həyatımın mənasıdır. Bir vaxtlar bu sözləri bir az da bəzəyib arvadı Təzəgülə deyərdi. O vaxtlar elə uzaqda qalmışdı ki, heç yadına da düşmürdü. Onun aləmində Təzəgül çoxdan köhnəlmişdi. Amma özü Köhnəgüldən də köhnə idi. Əl-ələ verib beş uşaq böyüdüb ev-eşik sahibi eləmişdilər. Elə-belə yox ha, Montindəki beşotaqlı evlərini xırda-xırda sata-sata sovetskinin balaca zirzəmilərinin birinə sığınmışdılar. Sovetski də bu-gün sabah sökülüb qurtaracaq, sonraları necə olacaq, bunu Allahdan başqa kimsə bilmir...

Hə, uzağa getməyək. Yadulla kişi 25 ilə yaxındı ki, yay-qış, şənbə-bazar istirahət etmədən, məzuniyyətə çıxmadan, xeyirə-şərə getmədən lotereya satır.

Lotereya alan adamlara cek-pod arzulayır, bəxti gətirməyənlərin, bunlar o qədər çoxdur ki... dərdini çəkir...

- Day-day, yoxla da bu lotereyanı...

- Qardaş, bu dəfə məni sevindir...

- Əmi, məni naümid qaytarma...

Yadulla kişi də ehtiramla lotereya kağızını alıb xırda rəqəmlərlə sıralanmış qəzet səhifəsini süfrə kimi balaca stulunun üstünə sərib səbirlə gözdən keçirər, handan-hana mülayim səslə deyərdi:

- Dayı qurban, bu dəfə bəxtin gətirməyib, zəhrimara qalmış xal yandırıb ey, bax özün, olan şeydi, yenə istəyirsən?

"Bu dəfə" sözü çoxlarını tələyə salardı. Gələn dəfə bəxtinin gətirəcəyinə ümid edən, cibindəki son manatını lotereyaya xərcləyənlərə ürəyində yazığı gəlsə də, lotereyanı almasalar, özünün yazıq günə qalacağını gözə alıb susardı.

Bu illər ərzində Yadulla kişi əməlli-başlı insan sərrafına dönmüşdü. Müştərilərinin çoxunu üzdən tanıyırdı, xasiyyətlərinə azdan-çoxdan bələd idi. Elə müştərisi vardı ki, yalan olmasın, 20 il idi

ondan lotereya alırdı. Belə höcət adamların inadı Yadulla kişini hövsələdən çıxarırdı. Öz-özünə "görürsən bəxtin gətirmir, əl çək də bu zəhrimardan" – deyib dalısınca deyinirdi.

Budu, soyuq fevral günündə ilk müştərisi lotereyabaz Qədir müəllimdi. Eşitdiyinə görə, Qədir müəllim astronomdu. Ömrü boyu rəsədxanada işləyib, ömrü boyu ulduzları güdüb, təqaüdə çıxanda ağlayıb. Görünür, yeni ulduz kəşf eləmək istəyirmiş, yaşı imkan verməyib.

- Sabahın xeyir, Yadulla kişi, axır ki, qarı yağdırdın. Bu lotereyanı təbiətin şərəfinə alıram. Bilirsən nə var, Yadulla kişi, təbiət heç bir qanuna tabe olmur. Təbiətin nə vecinə ki, sən kimsən, kimin qohumusan, başının içində nə var, cibindəki nədi. Təbiət insan kimi nankor olsaydı, indi Yer kürəsi qalaktikada toza dönmüşdü. Nə sən vardın, nə mən, nə də lotereya.

Qədir müəllim bu sözləri deyib ləzzətlə güldü. Əlini paltosunun cibinə salıb portmanatını çıxardı.

- Üçün ver, hələ maaşa xeyli var, gələn dəfə də almalıyam axı.

Yadulla kişi lotereyaları salafanın altından çıxarıb kom şəklində ona uzatdı. Qədir müəllim incə barmaqları ilə üç lotereya seçib aldı.

Yadulla kişi müştərisinin arxasıyca baxıb "bu da bizim başbilənimiz" – deyib başını yellədi.

Həmin gün Qədir müəllimin ayağı düşərli oldu. Lotereyalar su kimi satıldı. Axşama bircə lotereya qaldı. Nədənsə bu lotereya Yadulla kişinin gözünə qızıl balıq kimi göründü. Uzun illər lotereya satan Yadulla kişi həyatında ilk dəfə qazancından bir manat ayırıb lotereya aldı...

...Sən demə, lotereya almağın başqa ləzzəti varmış. Keçən saatlarda Yadulla kişi nə xəyallar qurdu, nə planlar cızdı, bircə özü bilir, bir də Allahı. Sonda bütün məbləğlərdən yayınıb gözünü cek-pota dikdi. 168 min manat. Bu məbləğlə uzun illər yaşadığı və sonralar məcburiyyət qarşısında satdığı köhnə məhəllələrindəki xudmani evi yenidən alardı, həyatı boyu həsrətində olduğu, elə bu gün də maşınların gözü saydığı qara volqaya sahib olardı. Nəolsun ki, indi bu maşın maşın sayılmır. Leylaya Məcnunun, Volqaya Yadullanın gözüylə bax.

Ömrü boyu ehtiyac köynəyini əynindən çıxarmayan Köhnəgülə azacıq maya qoyub Təzəgüldən də təzə edərdi. Uşaqlara, nəvələrə təzə pal-paltar alar, dost-tanışa, qohum-qonşuya üçdən beşdən əl tutar, lotereya satmağın da daşını biryolluq atıb heç olmasa ömrünün axırını adam kimi yaşayardı.

Xəyyallar Yadullanı qanadına alıb yerdən azacıq yuxarı qaldırdı: səhər yuxudan oyanır, bayırda qar yağır, o da heç yerə tələsmir, qaçmır, mürəbbəli çay içə-içə mavi ekranda "Buz dövrü" cizgi filminə baxır. Allah-Allah, elə bil uşaqdı, cizgi filmlərindən ötrü ürəyi gedir, bütün gün oturub baxsa, yenə doymaz. Yadulla kişinin xəyalları yerə endi. Öz-özünə:

- Gör dünyada nələr varmış, - dedi.

Yadulla kişi həmin gün ümid dənizində yolu azmış gəmi kimi xeyli vurnuxdu. Dəqiqələri saysa da, axşam lotereya oyunu başlayana yaxın işıqları söndü. Yadulla kişi dəli olmasın, neyləsin. Aydan-aya işıqpulunu verir, ömründə bir dəfə lotereya al, onda da işıqlar sönsün. Gecəni pis yatdı, əslində heç yatmadı. Əzbərləyib yaddaşına yazdığı cek-pot nömrəsini görmək ümidi ilə səhəri dirigözlü açdı. Səhər tezdən işə qaçdı. Bu da açıq səma altında Yadulla kişinin "ofis"i. Göydən təktük qar gəlir. Evdən tələsik çıxan adamlar yarıyuxulu halda harasa tələsir.

Axır ki, lotereya paylayan diribaş oğlan ona yaxınlaşıb təzə lotereyaları qəzetlə birlikdə Yadulla kişiyə verdi. Yadulla kişi qəzeti tələsik alıb balaca stolun üstündəki şəffaf örtük altında gizlətdi. Oğlan dönüb gedən kimi qəzeti tələm-tələsik açdı. Çox həyəcanlı olduğundan rəqəmlər gözündən qaçdı. 12.69. Yadulla qəflətən duruxdu, yanaqları qızardı, gözünə inana bilmədi, inanmaq istəmədi, heç inanmadı da. Axı necə inansın? 168 manatın yerinə bir manatla necə razılaşsın?!

Bütün bunlar bir anda baş verdi. Yadulla kişinin qurduğu xəyallar qar kimi başına uçdu. Yadulla kişi o gün özünə xeyli ağı dedi. And içdi ki, bir də lotereya satsa...

Üstündən düz bir il keçir. Yadulla kişi hər səhər özünə ağı deyə-deyə evdən çıxıb lotereya satır. Neyləsin, iş var?!

Adil MİRSEYİD

Çap olunmamış şeirlər

ALLAHIM QORU MƏNI

alça ağacları tumurcuqlayır
yarpaqların nəğməsini dinlədim
gözlərim yol çəkir gör neçə gündü
mənə məmləkətdən bir xəbər yolla
büllur güldanda üç qızıl gül var
caz musiqisi bilmərrə sərxoş
fit çalır bayırda sərsəri rüzgar

sənin nəbzin döyünür alça budaqlarında
ustufca sənin nəbzini tutdum
mən buradan çox uzaqlarda
bir daha kimsəyə qardaş demərəm
bir daha kimsəyə könül açmaram
bahar gəlib keçər damarlarımdan
dağ daş yarpaqlayar mən gül açmaram

ağacın da dili canı ruhu var
boş qalmış yuvalarda unudulmuş yuxu var
qəfil bir sevdaya tutular ürək
ağlı başdan alan yaz havasında
Allahım qoru məni allahım
bir adam öldürə bilərəm bu gün
missinin zəncisinin caz havasında

NAR ÇİÇƏKLƏRİNİN SİRRİ

nar ağacı çiçəkləyib al qırmızı kinövər
nar ağacı çiçəkləyib havada gilavar
səni sevdiyim üçün səni sevdiyim üçün
yalnızlıq nar çiçəyitək gözəl görünür bu gün
axıb gedən buludların düzümünə baxıram
axıb gedən buludlarla göyüzündə axıram
bəzən gözəl anları olur yalnızlığın
məsələn bir qəfil yağış yağır pəncərənə
məsələn bir balaca quşcuğaz
uçub girir hücrənə
ya da gözləmədiyin bir axşamda
uzaq norveçdən qonağın gəlir
ya da bir macəra romanın arasında
gəncliyindən yazdığın bir şeir
ya da bir ailə fotosu çıxır
o axşam əski günlərə aparır səni
bir şüşə qırmızı çaxır
ürəyim sıxılır kədərli düşüncələrdən
ürəyim sıxılır ulduzsuz gecələrdən
içimdə nar çiçəklərinin sirri
gözlərimdə bir nisgil alnımda möhür yeri
göyüzü mavi ağaclar yaşıl
quşların qanadında umudlar pırıl pırıl
mən dünyanı xəyal etdiyim kimi görmək
görmək istədiyim kimi düşünmək üçün
dua edirəm hər gün

DOSTUNUN MƏZARI BAŞINDA

qılıncımı cavan ölmüş dostumun
məzarı başındakı ağacdan asıb getdim
yolda dərvişə rast gəldim
ömrün qısalığından buludların gözəlliyindən
və həyatın mənasızlığından
ona şikayət etdim

heybədə şərabım çörəyim vardı
qoca dərviş şərab içdi
amma heç nə yemədi
mən şeir oxudum mövlanadan
dərviş yenə susdu bir söz dəmədi
mən bir yalquzaq adamam unutma bunu
daha məni heç nəylə dünyaya bağlamır həyat
çiçəkləmiş badam ağacının kölgəsində
uzanıb ölmək istədim Allah
ölmək istədim ağrısız rahat
saz səsi hardan gəlir kimdi qara saz çalan
gerçək bildiyim hər şey yalanmış yalan yalan
uzaqdakı təpənin üstündə bir ağac var
ağacın kölgəsində təzə qazılmış məzar

QRANİT ŞAİRİN SİLUETİ VƏ ŞEKSPİRİN SONETİ

sənin solğun üzün mübarək olsun
bir rüzgar axıb könlümə dolsun
daha bir qədəh şərab isitmir qanımızı
daha bir gözəl şeir coşdurmur qanımızı
dibçəkdəki çiçək də təsəlli deyil daha
ölüm çox ucuzdu bu şəhərdə çox ucuz
eşq umud səadət həmişə baha
görəsən nə pıçıldayır bu anda
qranit şairin sağır qulaqlarına
səksəkəli şəhər göyərçinləri
bu şəhərdə yaşa dolduqca
gözlərimin çiçəkləri solduqca
yüksəklik qorxusuna yenilir adam
mən balkonda oturub uzun uzadı
buludları seyr edirəm hər axşam
insan ayağı dəyməyən yerlərə
gedirəm hər axşam
qarşı divarda işıq kölgə oyunu
qarşı divarda qranit şairin silueti
shell l comprre thee toa summers day
hardan gəldi ağlıma şeksprin soneti
axşam dumanına bürünür şəhər
xəyal ürünütək görünür şəhər

DON KİXOT MASKALI ADAMIN MACƏRASI

eynəyinin xamelion şüşələri
böyüdürdü kədərli gözlərini
unutmadım unutmaram onun şeirlərini
eşq şərab və gül qoxuyan gözlərini
şeir yazırdı amma şair saymırdı özünü
don kixot maskasıyla yaşayırdı
adamlar arasında
don kixot maskası arxasında gizlədirdi üzünü
təzəcə ölmüşdü sevdiyi qadın
oysa bu ölümə alışmamışdı
şanel qoxusu ölüm qoxusuydu artıq
onun üçün
o qədəri ilə barışmamışdı
onunçün hər zaman aylardan aprel
eyni vaxtı göstərir odasında zəngli saat
bəzən sentimental bir qrafomanın
şeirlərinə bənzəyir həyat
rüzgarqarışıq yağmur bürünüb qaranlığa
döysələr qapısını şaşırar bir anlığa
gecələr aynadan bir mələk baxar
gözlərindən damla damla yaş axar

BİR TABLONUN ARXASINA YAZILMIŞ MİSRALAR

şairləri peşman edər bu dünya
bir gün səni özünə düşman edər bu dünya
düz iyirmi il üzünü görmədiyin bir adam
gəlib qapını döyər bir axşam
qapını açarsan gözlərin dolar
divanə misalı bir halın olar
birdən məhəllədə işıqlar sönər
kədər boğazında qurşuna dönər
köksündən vurulub yurd savaşında
bu adam ölmüşdü cavan yaşında
məzarı dağlarda burdan çox uzaq
ağlama bu anda ağlamaq yasaq
bayırda fit çalan kimdi küləkmi
kimdi pəncərədən baxan mələkmi
qurdmu quşmu ulduzmu əcəldirmi
ah Allahım ölüm belə gözəldirmi
bəlkə elə mən özüməm hər axşam
öz əlimlə öz qapımı döyən talesiz adam

QIZIM AYAN ÜÇÜN NAR ÇİÇƏKLƏRİ

mayın ortasında nar çiçəkləyir
içimdə dekabr qar çiçəkləyir
gözlərimdə hüzn üzümdə kölgə
belə bir axşamda öləcəm bəlkə

ağrıdan qıvrılır ürəkdə umud
bir nar çiçəyi ver bir əlçim bulud
yaramı sarıdım bir şeir yazdım
gördüyüm yuxunu xeyirə yozdum

al məni qoynuna dəniz küləyi
bir nar çiçəyidi şair ürəyi
mən başı bəlalı türk şairiyəm
hələ həyatdayam hələ diriyəm

mən hələ nəğməmi bitirməmişəm
hələ cənnətimi itirməmişəm
göy qübbəsində bir mələk uçur
qürbət mövsümündə nar çiçək açır

ÖMÜR GÜN YOLDAŞIMA

yağışlı bir gündə öləcəyəm mən
başımda bir gözəl eşq macərası
bilmirəm belə gec anladım nədən
bayatıdı olum ölüm arası

şair qarısısan qara bağlama
iki gözün iki çeşmə olmasın
dost düşmən var dua elə ağlama
ürəyində qönçə umud solmasın

sağlığımda mənə tələ quranlar
əlini öpərlər xoş söz deyərlər
yaman gündə bizdən uzaq duranlar
təsəlli verərlər sən döz deyərlər

can bədəndə ikən hələ umud var
ölümün üzünə güləcəyəm mən
gələn getməlidir göydə bulud var
yağışlı bir gündə öləcəyəm mən

"GƏNC YAZARLAR ÜÇÜN NƏZƏRİYYƏ DƏRSİ"

Məti OSMANOĞLUnun təqdimatında

Əziz oxucular!

"Ulduz" jurnalı ilə "Gənc yazarlar üçün nəzəriyyə dərsi"ni açmaqda əsas məqsədimiz kiməsə müəllimlik etmək olmamışdı. Əslində, tənqidimizin müəllimlik həvəsinə yüngül eyham vurmağa cəhd eləmişdik. Bu həqiqətə arxalanmışdıq ki, gör-götür dünyasıdır: dünyada mövcud olan, haqqında çox danışılan, yazılıb-pozulan nəzəri cərəyanlar, tez-tez işlənən, lakin müxtəlif mənalar daşıyan müəyyən anlayışlar, terminlər barədə onların öz mənbəyindən, gəldiyi qaynaqdan məlumat verək. Oxuyan da sağ olsun, oxumayan da. Öyrənən də sağ olsun, öyrənməyən də...

Ancaq ekspertiza rəyləri gözlədiklərimizdən bir qədər fərqli oldu. Bizi müəllimlik ədasında qınayan da oldu, təqdim etdiyimiz mətnlərin başa düşülməməsində də...

Mən, ümumiyyətlə, başa düşməməyi imtiyaza çevirməyin qəti əleyhinəyəm. Gərək başa düşək. Səhvi də, düzü də. Xeyri də, ziyanı da. Lazımlını da, lazımsızı da.

Bu məntiqlə "dərsləri" davam etdirməyin lazımlı olduğunu düşünürəm.

Sizə təqdim edilən növbəti mətn XX əsr ədəbiyyatşünaslığında "rus formalizmi" adlanan cərəyanın ən məşhur kitablarının birindən götürülüb.

"Ədəbiyyat nəzəriyyəsi. Poetika" əsərinin müəllifi ***Boris Viktoroviç Tomaşevski*** (1890-1957) rus elminin son dərəcə maraqlı şəxsiyyətlərindən biridir. O, 1912-ci ildə Rusiyada universiteti elektrik mühəndisi ixtisası üzrə bitirəndən sonra Parisdə Sorbon universitetinin dinləyicisi olub. Bir müddət mühəndis işləyib. Sovet hökumətinin ilk illərində Rusiyada "Poetik dil nəzəriyyəsinin araşdırılması cəmiyyəti"nin («Общество изучения теории поэтического языка» - ОПОЯЗ) üzvü olub. 1924-cü ildən Peterburq (o vaxt Leninqrad) universitetinin filologiya fakültəsində mətnşünaslıq, ədəbiyyat nəzəriyyəsi və Puşkinin yaradıcılığı üzrə mühazirələr oxuyub. Məşhur "Ədəbiyyat nəzəriyyəsi. Poetika" əsərini də həmin illərdə yazıb. Lakin 1931-ci ildə formalist nəzəriyyəçilər məktəbinə qarşı siyasi kampaniya zamanı onu filologiya sahəsindən uzaqlaşdırıblar. B.V.Tomaşevski fəaliyyətini Nəqliyyat İnstitutunda tətbiqi riyaziyyat müəllimi kimi davam etdirib və bu sahənin seçilən mütəxəssislərindən olub. Puşkinin ölümünün 100 illiyi münasibətilə ona filoloq kimi ehtiyac yaranıb və B.V.Tomaşevskini yenidən filologiyaya qaytarıblar. Beləliklə, çoxları üçün "gedər-gəlməz" ili olan 1937-ci il B.V.Tomaşevskinin bəraət və ədəbiyyata qayıdış ili olub. 1941-ci ildə ona filologiya üzrə professor adı verilib.

Boris TOMAŞEVSKİ

B.Tomaşevskinin "Ədəbiyyat nəzəriyyəsi. Poetika" əsəri sonradan semiotikanın təşəkkülündə təməl rolunu oynayan formal nəzəriyyəsinin ən maraqlı nümunələrindən biri sayılır. Əsərdən bir hissəni diqqətinizə təqdim edirik. Bu hissəinin xüsusilə ədəbi tənqid və nəzəriyyə, eləcə də nəsrlə məşğul olan gənclərə maraqlı olacağı qənaətindəyik.

FABULA VƏ SÜJET

Mövzu bir qədər ümumidir. Müəyyən əlaqə üzrə yerləşdirilən xırda tematik elementlərdən təşkil olunur.

Bu tematik elementlərin yerləşməsində iki çox mühüm tip müşahidə olunur: 1) daxil edilən tematik material arasında səbəb-zaman əlaqəsi; 2) təqdim olunanın eynizamanlılığı və ya mövzuların başqa cür, təqdim olunanın daxili səbəb əlaqəliliyi olmadan növbələnməsi. Birinci hala fabulalı əsərlərə (povestlər, romanlar, epik poemalar), ikinci hala isə fabulasız, "təsviri" ("deskriptiv və didaktik poeziya", lirika, "səyahət": Karamzinin "Rus səyyahının məktubları", Qonçarovun "Freqat "Pallada"sı və s.) əsərlər aid edilir.

Qeyd etmək lazımdır ki, fabula üçün yalnız zaman əlaməti deyil, həm də səbəb əlaməti tələb olunur. Səyahət də zaman əlamətinə görə qurula bilər, lakin səyahət səyahətçinin şəxsi macəralarını deyil, yalnız gördüklərini nağıl edərsə, bu, fabulasız təhkiyə olur.

Bu səbəb əlaqəsi nə qədər zəif olarsa, təmiz zaman əlaqəsi o qədər güclü olur. Fabulalı romandan fabula zəiflədikcə "xronikaya" – zaman üzrə təsvirə keçirik ("Baqrovun nəvəsinin uşaqlıq illəri").

Birinci tip (*fabulalı*) əsərlər üzərində müfəssəl dayanaq, çünki bədii əsərlərin əksəriyyəti məhz ona aiddir, bununla yanaşı, fabulasız əsərlər də bədii əsərlərlə prozaik əsərlərin (sonuncu sözün geniş mənasında) sərhədində dayanır.

Fabulalı əsərin mövzusu bir-birindən doğulan, biri digərinə bağlı olan hadisələrin az və ya çox dərəcədə hər hansı vahid sistemini əks etdirir. Qarşılıqlı daxili əlaqədə verilən hadisələrin cəmini *fabula* adlandırırıq.

Adətən, fabulanın inkişafı nağıletməyə öz aralarındakı marağa görə əlaqələndirilən və ya başqa əlaqələri (məsələn, qohumluq) olan bir neçə şəxsin ("personajın", "qəhrəmanın") daxil olması ilə aparılır. Hər bir verilən anda personajlar arasındakı qarşılıqlı əlaqə *situasiya* (vəziyyət) adlanır. Məsələn, əsərin kişi qəhrəmanı qadın qəhrəmanını, qadınsa onun rəqibini sevir. Burada üç personaj var: əsərin kişi qəhrəmanı, onun rəqibi və qadın. Əlaqələr isə kişi qəhrəmanın qadına məhəbbətindən, qadının da rəqibə məhəbbətindən ibarətdir. Tipik situasiya *ziddiyyətli* əlaqələri olan situasiyadır: müxtəlif personajlar müxtəlif üsullarla bu situasiyanı dəyişmək istəyirlər. Məsələn, kişi qadını sevir, qadın da kişini, ancaq valideynlər nikah bağlamağa mane olurlar. Kişi ilə qadın nikaha girməyə, valideynlər isə qəhrəmanları ayırmağa can atırlar. Fabula bir situasiyadan başqa situasiyaya keçidlər üzərində qurulur. Bu keçidlər: yeni personajların daxil edilməsi (situasiyanın kəskinləşdirilməsi), mövcud personajlardan birinin aradan götürülməsi (məsələn, rəqibin ölümü), əlaqələrin dəyişdirilməsi hesabına edilə bilər.

Beləliklə, fabula formalarının əksəriyyətinin əsasını mübarizə təşkil edir.

Fabulanın inkişafını ümumi şəkidə bir situasiyadan başqa situasiyaya keçid kimi səciyyələndirmək olar[1], bu zaman hər bir situasiya maraqların ziddiyyəti – personajlar arasındakı *kolliziya* və mübarizə kimi səciyyələndirilir. Fabulanın dialektik inkişafı sosial-tarixi hadisənin inkişafı ilə oxşardır. Sosial-tarixi hadisə isə hər bir yeni tarixi mərhələnin özündən əvvəlki mərhələdəki sosial qrupların mübarizəsinin yekunu kimi və bununla yanaşı, mövcud sosial "quruluşu" təşkil edən yeni sosial qrupların maraqlarının mübarizə meydanı kimi səciyyələnir.

Bu zidd maraqlar, qəhrəmanlar arasındakı mübarizə personajların qruplaşdırılması və hər bir personaj qrupunun digər personaj qrupuna qarşı özünəməxsus taktikası ilə müşayiət olunur. Bu mübarizənin gedişi *intriqa* adlanır (dramatik forma üçün tipikdir).

İntriqanın inkişafı (və ya personajların mürəkkəb qruplaşması, paralel intriqalar zamanı) ya ziddiyyətin aradan qaldırılmasına, ya da yeni ziddiyyətlərin yaranmasına aparır. Adətən, biz

fabulanın sonunda bütün ziddiyyətlərin barışdığı, maraqların razılaşdırıldığı situasiyanın şahidi oluruq. Özündə ziddiyyət ehtiva edən situasiya fabulaya hərəkət verərsə, mübarizə aparan iki başlanğıcdan biri hansı şəkildəsə üstün gəlir, onların uzunmüddətli mövcudluğu mümkün deyil, çünki barışıq situasiyası gələcək inkişafa yol vermir, oxucuda gözləntilər yaratmır, elə buna görə də həmin vəziyyət sonluq təşkil edir və *razvyazka* adlanır. Qədim nəsihət romanlarında keçid situasiya kimi xeyirin zülmə düçar olması, şərinsə qalib gəlməsi (əxlaqi nizamın ziddiyyəti) səciyyəvidir, razvyazka üçünsə xeyir mükafatlandırılır, şər isə cəzalandırılır.

Bəzən bu cür taraz situasiya əsərin başlanğıcında müşahidə edilir (Məsələn, "Qəhrəmanlar əmin amanlıqda, sakit yaşayırdılar. Birdən nəsə baş verdi və s.") Fabulanı hərəkətə gətirmək üçün başlanğıcda verilən taraz situasiyaya tarazlığı pozan hadisə daxil edilir. Başlanğıc situasiyanın hərəkətsizliyini pozan və hərəkəti başladan bu cür hadisələrin toplusu *zavyazka* adlanır. Adətən, zavyazka fabulanın bütün gedişini müəyyənləşdirir, bütün intriqa isə yalnız zavyazka vasitəsilə daxil edilmiş əsas ziddiyyəti müəyyənləşdirən fəaliyyətin fərqli dəyişmələri ilə qovuşur. Bu dəyişmələr peripetiyalar (bir situasiyadan başqa situasiyaya keçid) adlanır.

Situasiyanı səciyyələndirən ziddiyyət nə qədər mürəkkəb olarsa, eləcə də personajların maraqlarının qarşı-qarşıya qoyulması nə qədər güclü olarsa, situasiya da bir o qədər *gərgin* olar. Vəziyyətin böyük ölçüdə dəyişməsinə yaxınlaşdıqca situasiyanın gərginliyi artır. Adətən, bu gərginlik dəyişikliyə hazırlıq yolu ilə əldə olunur. Məsələn, şablon avantür romanda qəhrəmanın ölümünü gözləyən rəqibləri daim üstün olurlar. Onlar qəhrəmanın ölümünü hazırlayırlar, lakin bu ölümün qaçılmaz olduğu şübhə doğurmayan son anda qəhrəman qəfildən xilas olur, qətl baş tutmur. Bu cür hazırlıq yolu ilə situasiyanın gərginliyi gücləndirilir.

Razvyazkadan öncə gərginlik ən yüksək nöqtəyə çatır. Gərginliyin bu kulminasiya nöqtəsi, adətən, alman sözü ilə Spannung (şpannunq) adlandırılır. Şpannunq fabulanın ən sadə dialektik quruluşunda, bir növ, antiteza (tezis – zavyazka, antitezis – şpannunq, sintez – razvyazka) təşkil edir.

Lakin maraqlı hadisələr zəncirini əldə etməyə onun məhdud başlanğıcı və sonu kifayət deyil. Bu hadisələri bölgüyə ayırmaq lazımdır, onları müəyyən bir nizama düzmək, ifadə etmək, fabula materialından ədəbi kombinasiya yaratmaq lazımdır. Əsərdə hadisələrin bədii şəkildə düzülmüş bölgüsü əsərin *süjeti* adlanır. Süjet anlayışı mürəkkəbdir və onun dəqiqləşdirilməsi üçün bir neçə yardımçı terminin gətirilməsinə ehtiyac var.

Mövzunu bölməzdən əvvəl onu hissələrə ayırmaq, xırdaca təhkiyə vahidlərinə "paylaşdırmaq" lazımdır ki, sonradan bu vahidləri təhkiyə sırasına düzəsən. Mövzu anlayışı əsərin söz materialını birləşdirən *yekunlaşdırıcı* anlayışdır. Mövzu bütün əsərin ola bilər, bununla yanaşı, əsərin hər bir hissəsinin də öz mövzusu vardır. Əsərdən hər bir hissəni ayrıca tematik ümumiliklə birləşdirən hissələrin bu cür seçilməsi əsərin bölünməsi adlanır. Məsələn, Puşkinin "Atəş" povesti təhkiyəçinin Silvio və qrafla görüşü əhvalatına və Silvio ilə qrafın toqquşması əhvalatına bölünür. Öz növbəsində, birinci – alaydakı həyat əhvalatına və kənddəki həyat əhvalatına; ikinci isə Silvionun qrafla ilk duelinə və onların son görüşünə bölünür.

Əsərin bu cür tematik hissələrə böyünməsi yolu ilə biz axırda *bölünməz* hissələrə, tematik materialın ən xırda parçalarına gəlib çatacağıq. "Axşam düşdü", "Raskolnikov qarını öldürdü", "Qəhrəman öldü", "Məktub yetişdi" və s. Əsərin bölünməz hissəsinin mövzusu *motiv* adlanır. Əslində, hər bir cümlənin öz motivi var.

Burada demək yerinə düşər ki, tarixi poetikada "səyyar" süjetlərin (məsələn, nağılların) müqayisəli öyrənilməsində istifadə edilən "motiv" termini bizim qəbul etdiyimizdən ciddi şəkildə fərqlənir, baxmayaraq ki, onlar, adətən, eyni cür müəyyənləşdirilir. Müqayisəli təlimdə müxtəlif əsərlərdə rast gəlinən tematik ümumiliyi motiv adlandırırlar (məsələn, "gəlinin qaçırdılması", "yardımçı heyvanlar", başqa sözlə, çətinliklərin aradan qaldırılmasında qəhrəmana kömək edən canlılar və s.). Bu motivlər bütövlükdə bir süjet quruluşundan o birinə keçir. Müqayisəli poetikada onları daha kiçik motivlərə ayırmağın mümkün olub-olmaması mühüm deyil. Mühüm olan yalnız budur ki, tədqiq olunan müəyyən janr daxilində bu "motivlər"ə daim bütöv rast gəlinir. Beləliklə,

"bölünməyən" sözünün yerinə müqayisəli tədqiqatda tarixən bölünməz barədə, əsərdən-əsərə səyahət zamanı öz bütövlüyünü saxlamaq haqqında danışmaq mümkündür. Bununla belə, müqayisəli poetikada motivlərin çoxu öz mənasını nəzəri poetikada olduğu kimi məhz motiv şəklində saxlayır.

Motivlər öz aralarında uzlaşaraq əsərin tematik əlaqəsini yaradırlar. Bu baxımdan, fabula motivlərin məntiqi səbəb-zaman əlaqəsindəki məcmusudur, süjet isə həmin motivlərin əsərdə verildiyi şəkildə ardıcıllıqla verilməsinin məcmusudur[2]. Fabula üçün əhəmiyyətli deyil ki, əsərin hansı hissəsində hadisə barədə xəbər tutur, hadisə ona müəllif tərəfindən birbaşa ötürülür və ya personajın hekayəsində verilir, kənar eyhamlarla verilir. Süjetdə isə məhz oxucunun diqqət sahəsinə *motivlərin daxil edilməsi* rol oynayır. Müəllif tərəfindən uydurulmamış gerçək hadisə fabula kimi xidmət eləyə bilər. Süjet isə bütövlükdə bədii konstruksiyadır.

Əsərin motivləri müxtəlif olur. Əsərin fabulasını sadə nağıl edən zaman dərhal görürük ki, təhkiyənin bağlılığını pozmadan nəyi *buraxmaq* olar, eləcə də hadisələr arasında səbəb əlaqəsini pozmadan nəyi buraxmaq olmaz. Buraxılması mümkün olmayan motivlər rabitəli motivlər adlandırılır; hadisələrin səbəb-zaman bütövlüyünü pozmadan kənar edilməsi mümkün olan motivlər isə *sərbəst* motivlərdir.

Fabula üçün yalnız rabitəli motivlər əhəmiyyət daşıyır. Süjetdə isə məhz sərbəst motivlər ("haşiyələr") əsərin quruluşunu müəyyənləşdirən dominant rol oynayır. Bu kənar motivlər ("təfərrüatlar" və s.) hekayənin bədii quruluşu məqsədilə daxil edilir və müxtəlif funksiyalar daşıyır (biz bunların üzərinə yenidən qayıdacağıq). Bu cür motivlərin daxil edilməsi əsaslı dərəcədə ədəbi ənənə ilə müəyyənləşir və hər bir məktəb üçün özünün sərbəst motivlər repertuarı səciyyəvidir. Rabitəli motivlər, adətən, "canlılığı" ilə fərqlənir, daha doğrusu, müxtəlif məktəblərdə onlara eyni cür rast gəlirik. Buna baxmayaraq, fabulanın hazırlanmasında da, aydındır ki, ədəbi ənənələr əhəmiyyətli rol oynaya bilər (məsələn, XIX əsrin 40-cı illəri üçün xırda məmurun bəlaları barədə novellavari fabulalar: Qoqolun "Şinel"i, Dostoyevskinin "Kasıb insanlar"ı; 20-ci illər üçün avropalının qürbətdə faciəli məhəbbəti haqqında Puşkinin "Qafqaz əsiri", "Qaraçılar"ı kimi tipik fabulalar səciyyəvidir).

Puşkin özünün "Məzarçı" hekayəsinə sərbəst motivləri salmaqla məhz ədəbi ənənələrdən danışır:

"Ertəsi gün düz saat 12-də qəbirqazan və qızları yeni aldıqları evin qapısından çıxıb qonşuya yollandılar. İndiki romançıların adətinə xilaf çıxıb nə Adrian Proxoroviçin rus kaftanını, nə də Akulina və Daryanın avropasayağı bəzəyini təsvir edəcəm. Lakin, zənnimcə, bunu demək artıq olmaz ki, qızların ikisi də sarı şlyapa və qırmızı başmaq geymişdi, onlar bunu yalnız təntənəli hadislər zamanı edirdilər".

Burada geyimin təsviri o dövrün (1830) sərbəst motiv ənənəsi kimi qeyd olunur.

Müxtəlif motivlər arasında hərəkətverici motivləri ayrıca dərəcə kimi fərqləndirmək lazım gəlir, bunların digər motivlərlə tamamlanması tələb olunur. Nağıllarda bu vəziyyət qəhrəmana tapşırıq verilməsi ilə tipikdir. Məsələn, ata öz qızı ilə evlənmək istəyir, qız nikahdan yayınmaq üçün ona yerinə yetirilməsi mümkün olmayan iş tapşırır. Və ya: qəhrəman şahın qızına nişanlanır; şahın qızı nifrət etdiyi nikaha girməmək üçün ilk baxışda yerinə yetirilməsi mümkün olmayan tapşırıq verir. Puşkinin "Baldanın nağılı" ilə müqayisə et. Keşiş nökəri başından əkmək üçün ona şeytandan töycü yığmağı tapşırır. Bu *tapşırıq* motivi tapşırıqların özü barədə təhkiyənin konkret tamamlanmasını tələb edir və tapşırığı yerinə yetirən qəhrəmanın macəralarını hekayəyə daxil etməyə xidmət edir. Hadisələrin gecikdirildiyi nağılda da motiv belədir. "1001 gecə"də Şəhrizad nağıl danışmaqla onu gözləyən edamı gecikdirir. Nağıletmə motivi nağılların özlərinin daxil edilməsi üçün üsuldur. Avantüra romanlarında təqib motivləri də belədir və s. Adətən, təhkiyəyə sərbəst motivlərin daxil edilməsi daxiledici motivin tamamlanması kimi baş verir. Daxiledici motiv özlüyündə rabitəlidir, başqa sözlə, onun hekayənin motivindən çıxardılması mümkün deyil.

Digər yandansa motivləri motivdə olan obyektiv fəaliyyət baxımından təsnif etmək lazımdır.

Situasiyanı dəyişən motivlər *dinamik motivlər*, dəyişməyənlər isə *statik motivlərdir*. Məsələn, Puşkinin "Kəndli xanım" povestinin sonundan əvvəlki situasiyanı götürək: Aleksey Berestov

Akulinanı sevir. Alekseyin atası onu Liza Muromskaya ilə evlənməyə məcbur edir. Aleksey bilmir ki, Akulina ilə Liza eyni adamdır, ona görə də atasının istədiyi nikaha etiraz edir. Muromskaya ilə vəziyyəti aydınlaşdırmağa gedir və Lizanın timsalında Akulinanı tanıyır. Vəziyyət dəyişir, Aleksey tərəfindən nikaha qarşı əngəl aradan götürülür. Lizanın şəxsində Akulinanın *tanınması* motivi dinamik motivdir.

Sərbəst motivlər, adətən, statik olur, lakin statik motivlərin hamısı sərbəst olmur. Məsələn, fərz edək ki, qətl törətmək üçün fabulanın gedişində qəhrəmana revolver lazımdır. Revolver motivi, onun oxucunun diqqət dairəsinə daxil edilməsi - statik motivdir, lakin rabitəlidir, çünki revolver olmadan həmin qətli törətmək mümkün deyil. Bu misala Ostrovskinin "Cehizsiz qız" əsərində baxın.

Tipik statik motivlər təsvirlərdir – təbiətin, məkanların, şəraitlərin, personajların, onların xarakterlərinin və s. təsviri. Dinamik motivlərin tipik nümunələri qəhrəmanların əməlləri, hərəkətləridir.

Dinamik motivlər fabulanın hərəkətverici motivləridir. Süjet tərtibində isə, əksinə, statik motivlər birinci plana keçə bilər.

Fabula baxımından, motivlər öz əhəmiyyətinə görə asanlıqla bölünür. Əsas yeri dinamik motivlər, sonra onları hazırlayan motivlər, sonra situasiyanı müəyyənləşdirən motivlər və s. tutur. Daha ətraflı nağıletmə ilə müqayisədə yığcam şəkildə nağıletmə zamanı fabulanın əhəmiyyətinin böyük və ya kiçik olması üzə çıxır.

Fabula materialının süjet tərtibi prosesində bu məqamlar nəzərə alınmalıdır: 1) Başlanğıc vəziyyətinə təhkiyə girişi daxil etmək lazımdır. Personajların və əlaqələrinin ilk tərkibini müəyyən eləyən şərtlərin təqdimatı *ekspozisiya* adlanır.

Təhkiyələrin hamısı ekspozisiya ilə başlamır. [3] Müəllifin hər şeydən öncə bizi fabula materialının iştirakçıları ilə tanış etməsi kimi son dərəcə sadə bir halla qarşılaşırıqsa, bu – birbaşa ekspozisiyadır. Lakin təqdimatın artıq başlanılmış olan fəaliyyətdən başladığı və müəllifin bizi qəhrəmanların vəziyyətləri ilə tədricən tanış etdiyi qəfil başlanğıc (ex abrupto) kifayət qədər səciyyəvidir. Bu halda biz *ləngidilmiş ekspozisiya* əldə edirik. Bu ləngidilmiş ekspozisiya başqa halda çox uzanır – ekspozisiyanı təşkil edən motivlərin daxil edilməsi müxtəlif olur. Bəzən situasiyanı kənar eyhamlardan öyrənirik, əlaqələndirici təsəvvür isə sanki təsadüfi verilmiş qeydlərin bir araya gətirilməsi nəticəsində baş verir. Bu halda ayrıca ekspozisiya, yaxud ekspozisiya motivlərinin bir araya gəldiyi bütöv təhkiyə parçası görmürük.

Lakin bəzən ümumi rabitə daxilində başa düşmədiyimiz hər hansı bir hadisəni təsvir edərkən müəllif həmin hadisənin aydınlaşdırılması (istər öz təqdimatı, istərsə də personajın nitqi formasında) kimi bu cür ekspozisiya – artıq əvvəlcədən söylənilmiş hadisə barədə hekayə verir. Burada biz ekspozisiyanın yerdəyişməsini – fabula materialının açılışında *zaman yerdəyişmələrinin* xüsusi halını görürük.

Ekspozisiyanın bu cür ləngiməsi təqdimatın sonuna qədər davam edə bilər: təhkiyə boyunca oxucu baş verən hadisələri başa düşmək üçün zəruri olan hər şeyi bilmir. Adətən, oxucunun bu bilgisizliyi təhkiyəyə personajların əsas qrupunun həmin şəraitlər haqqında bilgisizliyi şəklində daxil edilir, başqa sözlə, oxucuya yalnız hansısa personajın bildikləri barədə məlumat verilir. Razvyazkada bu naməlum şərait barədə məlumat çatdırılır. Özündə ekspozisiya elementlərini ehtiva edən və peripetiyanın əvvəlki təqdimatından məlum olanların hamısını sanki əks işıqla işıqlandıran bu cür razvyazka *reqressiv razvyazka* adlanır. Təsəvvür edək ki, "Kəndli xanım"ın oxucusu da Aleksey Berestov kimi Akulina ilə Liza Muromskayanın eyni adam olduğunu bilmir. Bu halda həmin eynilik haqqında məlumat razvyazkada reqressiv gücə malik ola bilərdi, başqa sözlə, bütün baş vermiş situasiyalar barədə həqiqi və yeni anlayış yarada bilərdi. Puşkinin yazdığı Belkinin hekayələrindən "Çovğun"un quruluşu da belədir.

Adətən, ekspozisiyanın bu cür ləngidilməsi əsərə sirlər sistemi kimi daxil edilir. Bu zaman belə kombinasiyalar yarana bilər: oxucu bilir, qəhrəmanlar bilmir; qəhrəmanların bir hissəsi bilir, bir hissəsi bilmir; oxucu və qəhrəmanların bir hissəsi bilmir; heç kim bilmir – həqiqət təsadüfən üzə çıxır; qəhrəmanlar bilir, oxucu bilmir.

Bu sirlər bütün təhkiyəyə də nüfuz edə bilər, yalnız ayrıca motivləri də əhatə edə bilər. Bu halda eyni motiv süjet quruluşunda bir neçə dəfə

görünə bilər. Belə bir səciyyəvi romantik üsulu götürək: qəhrəmanlardan birinin hadisələr baş verməzdən xeyli əvvəl uşağı oğurlanır (birinci motiv). Tərcümeyi-halından yad insanlar tərəfindən böyüdülüb tərbiyə verildiyini və valideynlərini tanımadığını bildiyimiz personaj peyda olur (ikinci motiv). Sonra məlum olur ki (adətən, tarixlərin və şəraitlərin müqayisəsi və ya "yadigar" motivinin, boyunbağının, anadangəlmə xalın və s. köməyi ilə), oğurlanmış uşaq və yeni qəhrəman eyni şəxslərdir. Beləliklə, birinci motivlə ikinci motiv arasında əlaqə yaradılır. Motivin şəklini dəyişmiş formada bu cür təkrarlanması o süjet quruluşları üçün xarakterikdir ki, onlarda fabula məqamları özlərinin təbii xronoloji qaydasında daxil edilmir. Təkrar olunan motiv, adətən, süjet quruluşunun hissələri arasında mövcud olan fabula əlaqəsinin əlaməti olur. Məsələn, tipik nümunə kimi göstərdiyimiz "itmiş uşağın tanınması" misalında tanınma vasitəsi boyunbağıdır, bu boyunbağı motivi həm birinci uşağın yoxa çıxması barədə hekayəni, həm də yeni personajın tərcümeyi-halını müşayiət edir (məsələn, Ostrovskinin "Günahsız günahkarlar"ına baxın).

Hissələrin bu cür motiv üzrə əlaqələndirilməsinin[4] köməyi ilə təhkiyədə müvəqqəti yerdəyişmələr etmək mümkündür. Ekspozisiyanın yerinin dəyişdirilməsindən əlavə, fabulanın ayrı-ayrı hissələri nə baş verəcəyindən oxucunun xəbəri olandan sonra verilə bilər.

Hadisələrin hadisələrdən əvvəl baş vermiş əhəmiyyətli hissələrinin əlaqələndirici təqdimatı forgeşixte (*Vorgeschichre*) adlanır, bununla təqdimat daxil edilir. Forgeşixtenin səciyyəvi forması *ləngidilmiş* ekspozisiyadır və ya yeni situasiyaya daxil edilmiş yeni personajın bioqrafiyasıdır. Buna Turgenevin romanlarında xeyli nümunə tapmaq mümkündür.

Əlaqələndirici hekayəyə daxil edilən, hadisələrin gəlişindən əvvəl nə baş verəcəyi barədə gələcəyi hazırlayan təhkiyə – Nachgeschichte (naxgeşixte) daha az hallarda olur. Nachgeschichte bəzən gələcəkdən xəbər gətirən yuxu, peyğəmbərlik, çox və ya az doğru olan ehtimallar şəklində verilir.

Fabula materialının dolayı açılışında "hekayəçi" böyük rol oynayır, çünki süjetin hərəkətləri, adətən, hekayənin xüsusiyyəti kimi daxil edilir.

Hekayəçi müxtəlif olur: ya təhkiyə sadə məlumat kimi, bu hadisələrin necə aşkar olması barədə izah verilmədən (dolayı hekayə) müəllifin adından obyektiv aparılır, ya da təhkiyə konkret olmayan şəxs kimi hekayəçinin adından verilir. Bəzən bu hekayəçi başqa şəxslərin danışıqlarına qulaq asan (Puşkinin "Atəş", "Stansiya nəzarətçisi" hekayələrindəki hekayəçi) insan kimi daxil edilir, yaxud az və ya çox dərəcədə yaxın şahid kimi və ya nəhayət, təqdim olunan fəaliyyətin iştirakçılarından biri kimi (Puşkinin "Kapitan qızı" əsərinin qəhrəmanı) daxil edilir. Bəzən bu şahid və ya dinləyici hekayəçi olmaya da bilər, obyektiv dolayı hekayədə məlumat verilə bilər ki, bu dinləyici təhkiyədə heç bir rol oynamasa belə, nəyi bilib və eşidib (Matürenin "Dərbədər Melmot"u). Bəzən təhkiyənin mürəkkəb metodları tətbiq olunur (məsələn, "Karamazov qardaşları"nda hekayəçi şahid kimi daxil edilir, bununla bərabər, romanda iştirak etmir və bütün təhkiyə dolayı hekayə kimi aparılır).

Beləliklə, təhkiyənin iki tipi var: dolayı nağıletmə və konkret nağıletmə. Dolayı sistemdə müəllif qəhrəmanların gizli düşüncələrinə qədər hər şeyi bilir. Birinci şəxsin adından verilən konkret hekayədə (bu bəzən Ich-Erzahlung alman termini ilə ifadə olunur) bütün təhkiyə hekayəçinin psixologiyasından keçirilir, bu zaman təhkiyəçinin (və ya dinləyicinin) hadisə haqqında hansı yolla və nə vaxt bildiyi barədə hər bir məlumat üçün izah verilir.

Qarışıq sistemlər də mümkündür. Adətən, dolayı hekayədə təhkiyəçi ayrıca bir qəhrəmanın taleyini izləyir və bunun nəticəsi olaraq biz həmin personajın etdiklərindən və bildiklərindən xəbər tuturuq. Sonra bir personaj qalır, diqqət başqasına yönəldilir – biz yenidən bu yeni personajın etdiklərindən və bildiklərindən xəbər tuturuq. Beləliklə, adətən, personaj bir növ təhkiyənin ipinə çevrilir, daha doğrusu, gizli formada – həmin təhkiyəçiyə çevrilir, eyni zamanda da öz qəhrəmanı nə nağıl eləyə bilərsə, yalnız o barədə məlumat verməyin qeydinə qalır. Bəzən təhkiyə ipinin birləşdirilməsinin yalnız bu məqamı əsərin bütün konstruksiyasını müəyyənləşdirir. Bu cür personaj – təhkiyənin aparıcısı hər şeydən öncə əsərin baş qəhrəmanı olur. Həmin fabula materialında müəllifin başqa personajı izlədiyi halda, qəhrəman da dəyişə bilər.

Nümunə kimi Hauffun "Xəlifə-leylək" nağılını təhlil edək. Onun məzmunu qısaca belədir:

Bir dəfə xəlifə Hasid və vəziri çərçidən içində sirli toz və üstündə latınca yazı olan bir təmbəki torbası alır. Alim Səlim həmin yazını oxuyur. Orada yazılmışdı ki, bu tozu burnuna çəkib "mutabor" deyən adam hansısa heyvana çevrilə bilər; lakin heyvana çevriləndən sonra gülmək olmaz, çünki söz unudular və yenidən insan şəklinə qayıtmaq mümkün olmaz. Xəlifə və vəzir leyləyə çevrilirlər; başqa leyləklərlə ilk görüş onları gülməyə vadar eləyir. Söz unudulur. Leyləklər – xəlifə ilə vəzir həmişəlik quş olmağa məhkum olunurlar. Bağdadın üzərindən uçarkən onlar küçədə canlanma və səs-küy görürlər, car çəkilir ki, Hasidin qatı düşmənlərindən olan sehrbaz Kaşnurun oğlu Mirzə Bağdadda hakimiyyəti ələ alıb. Onda leyləklər peyğəmbərin məzarını ziyarət etməyi niyyət edirlər ki, düşdükləri bəladan xilas olsunlar. Yolda gecələmək üçün hansısa xaraba bir yerə qonurlar. Orada insan dilində danışan və öz hekayəsini nağıl eləyən bayquşa rast gəlirlər. Demə, o, Hindistan şahının yeganə qızı imiş. Onu öz oğlu Mirzəyə nişanlayan Sehrbaz Kaşnur rədd cavabı alandan sonra bir dəfə zənci görkəmində saraya girir, sehrli içki verərək onu bayquşa çevrir və ona deyir ki, kimsə sənlə evlənməyə razılıq verənə qədər bayquş qalacaqsan. Digər yandan da uşaq vaxtı açılmış fala görə ona leyləklər xoşbəxtlik gətirəcəkmiş. O, xəlifəyə azad olmağın qaydasını öyrətməyə bu şərtlə razılaşır ki, xəlifə onunla evlənməyə razı olsun. Xeyli tərəddüddən sonra xəlifə razılaşır və bayquş onu sehrbazların toplaşdıqları otağa gətirir. Orada xəlifə Kaşnurun xəlifəni aldadan çərçi barədə hekayəsini dinləyir. Hekayədən o, unutduğu "mutabor" sözünü yada salır. Xəlifə və vəzir, eləcə də bayquş insana çevrilirlər, onların hamısı Bağdada qayıdır, orada Mirzədən və Kaşnurdan qisas alırlar.

Nağıl "Xəlifə leylək" adlanır, başqa sözlə, qəhrəman Hasiddir, çünki müəllif təhkiyədə onun taleyini izləyir. Şahzadə-bayquş əhvalatı onların xarabalıqdakı görüşü zamanı bayquşun xəlifəyə danışdığı hekayə kimi daxil edilib.

Şahzadə-bayquşu qəhrəmana çevirmək üçün materialda yüngülcə yerdəyişmə aparmaq kifayətdir: əvvəlcə onun başına gələnləri danışırsan, xəlifənin başına gələnləri isə nağıla sehrdən qurtuluş ərəfəsində danışdığı hekayə kimi daxil edirsən.

Fabula yerində qalacaq, süjet isə əhəmiyyətli şəkildə dəyişəcək, çünki bu zaman təhkiyənin əlaqələndirici ipi dəyişir.

Burada motivlərin yerdəyişməsini qeyd edim: çərçi motivinin və Mirzənin atası Kaşnur motivinin xəlifə-leylək sehrbazı dinləyəndə eyni şəxs olduğu üzə çıxır. Xəlifənin leyləyə çevrildiyi şərait onun düşməni Kaşnurun fitnə-fəsadlarının nəticəsidir, bu, təqdimatın praqmatikliyi baxımından nağılın əvvəlində deyil, sonunda verilib.

Fabulaya gəldikdə, burada ikiqatdır:

1. Kaşnur tərəfindən aldadılma yolu ilə tilsimlənmiş xəlifənin əhvalatı.

2. Elə həmin Kaşnurun tilsimə saldığı şahzadənin əhvalatı.

İki paralel fabula qanadı xəlifə ilə şahzadənin görüşü və qarşılıqlı öhdəliklər götürməsi zamanı kəsişir. Sonra bir fabula – onların xilas edilməsi və sehrbazın cəzalandırılması verilir.

Burada süjet düzümü xəlifənin taleyinin izlənilməsi sıralanması üzrə verilmişdir. Qapalı formada xəlifə hekayəçidir, daha doğrusu, zahirən ayrılmış hekayə zamanı məlumat xəlifənin nəyi bildiyi və necə bildiyi sıralama üzrə verilir. Nağıl süjetinin bütün düzümü də bununla müəyyənləşir. Bu hal səciyyəvidir, adətən, qəhrəman bu cür gizli (potensial) hekayəçi olur. Novella formasında nə üçün tez-tez memuar quruluşuna müraciət olunması, başqa sözlə, qəhrəmanın öz başına gələnləri danışmağa məcbur edilməsi də bununla izah edilir. Elə bununla da qəhrəmanın izlənilməsi üsulu açılır, məhz verilmiş və verildiyi qaydada daxil edilmiş motivlər əsaslandırılır.

Ayrı-ayrı əsərlərin süjet quruluşunun *(süjet düzümünün*) təhlili zamanı təhkiyədə *zamandan* və *məkandan* istifadəyə xüsüusi diqqət yetirmək lazımdır.

Bədii əsərdə fabulanın zamanını və təhkiyənin zamanını fərqləndirmək lazımdır. Fabulanın zamanı – təqdim olunan hadisələrin baş verəcəyi nəzərdə tutulan zamandır, təhkiyənin zamanı – əsərin oxusuna həsr olunan zamandır (müvafiq olaraq – tamaşanın göstərildiyi müddətdir). Bu, son vaxtlar əsərin *həcmi* anlayışı altında verilir.

Fabulanın zamanı bu cür verilir: 1) hadisə anının tarixi ilə, mütləq (sadəcə, baş verən əhvalatın xronologiyası göstərilir, məsələn, 18..-ci il yanvarın 8-də saat 2-də) və ya nisbi (hadisələrin eyni vaxtda baş verdiyinin və zaman nisbətinin göstərilməsi ilə: "iki ildən sonra" və s.), 2) hadisələrin baş verdiyi zamanın müddəti göstərilməklə ("söhbət yarım saat davam elədi", "səfər üç ay çəkdi" və ya dolayı şəkildə "mənzil başına beşinci gün çatdılar", 3) bu zaman müddəti haqqında təsəvvür yaratmaqla: bu zaman biz danışıqların həcminə və ya hadisələrin normal müddətinə əsasən, dolayı şəkildə təqdim olunan əhvalatın nə qədər zaman ala biləcəyini müəyyənləşdiririk. Qeyd etmək lazımdır ki, üçüncü forma ilə yazıçı tam sərbəst davranır, uzun nitqləri qısa müddətə sığışdırır və əksinə, qısa nitqləri və ya sürətlə baş verən hadisələri uzun zaman müddətinə yayır.

Bu zaman təhkiyə formaları, bir qayda olaraq, *fasiləsiz* fəaliyyət parçalarından ibarət olur (adətən, personajın hekayəsinin aparıcısının iştirakı ilə). Fəaliyyət parçaları zaman intervallarına bölünür və bu intervallara düşən və ya fasiləsiz təhkiyənin hüdudlarından kənara çıxan (hekayənin başlanmasına qədər və ya onun sonundan sonra baş verən) hadisələr barədə yekunlaşdırıcı məlumatla (aparıcı personaj olmadan) tamamlanır.

Hadisələrin baş verdiyi məkana gəlincə, burada iki tip səciyyəvidir: bütün qəhrəmanların bir yerə toplaşdıqları (gözlənilməz görüşlər üçün imkan yaradan "mehmanxanalar" və onların ekvivalentləri buna görə çox tez-tez peyda olur) *statiklik,* yaxud zəruri münaqişələr üçün qəhrəmanların bir yerdən başqa yerə keçirildikləri ("səyahət" tipli hekayələr) *kinetiklik*. Hər iki halda elə yer seçilməlidir ki, personajların görüşündə yaranan intriqa zərurətlərini daha yaxşı doğrulda bilsin.

---

[1] Əgər bir sıra personajların yerinə, əlimizdə bir qəhrəmanın daxili psixi hekayəsinin təqdim olunduğu psixoloji novella olsa, bu, tam belədir. Onun əməllərinin ayrı-ayrı psixoloji motivləri, mənəvi həyatının müxtəlif tərəfləri, instinktləri, ehtirasları və s. adi personajlar rolunu oynayır. Bu mənada, bütün əvvəlkiləri və sonrakıları ümumiləşdirmək olar.

[2] Qeyd edim ki, "fabula" və "süjet" terminləri təcrübədə çox fərqli mənalarda işlədilir, bəzən də burada istifadə olunan mənanın tam əksinə. Burada göstərilən tərif şərtidir, lakin ümumi mövzunun izahı zamanı xeyli rahatlıq yaradır.

[3] Təhkiyə materialının düzülüşü nöqteyi-nəzərindən təhkiyənin başlanğıcı *giriş* və ya *müqəddimə,* sonu isə *sonluq* adlandırılır. Elə ola bilər ki, girişə ekspozisiya və razvyazka daxil edilməsin. Eynilə bunun kimi sonluq mövzu baxımından razvyazka ilə uyğun gəlməyə bilər.

[4] Əgər bu motiv az və ya çox dərəcədə təkrarlanırsa və xüsusilə də sərbəstdirsə, yaxud fabulaya sıx bağlı deyilsə, onu leytmotiv adlandırırlar. Məsələn, təhkiyədə müxtəlif adlar altında verilən (təğyir-libas) bir sıra personajlar onların tanınması üçün çox vaxt hansısa daimi motivlə müşayiət olunurlar.

Günay Səma ŞİRVAN

Həyatımın sahibinə

(esse)

Bir kağıza "Sənsizlik" yazdım. Yenə də çox xoşuma gəldi. Çünki "Sənsizlik" kəlməsi belə "Sən"lə başlayır.

Cəmal Sürəyya

Əzizim, sənə Sənsizlikdən danışım…

Dünyanın ən şirin sevinci ilə ən dərin acısından doğan sevgi, yetim-yetim yollara boylananda doğulur Sənsizlik. Bir baxışının qüdrətini min dildə tapmayan dəli könlüm ovulanda üstümə bozarır Sənsizlik…

Mövlam demiş, illər öncəsi qəlbimin qapısından "Kimsə girəmməz" yazıb asmışdım. Sən girib oturdun yuxarı başda, güldün, "mən oxumaq bilmirəm"–dedin.

Səni sevdim,

Vətən seçdim bəla örpəkli könlümə.

Vətənsiz qalmaqdı –Sənsizlik…

Bir dəfə xəstəxanada onkoloji dioqnozu üzünə oxunmuş bir gürcü görmüşdüm. Çox naümid adamlarla rastlaşmışam… Amma o gürcünün üzündəki ümidsizliyi, kədəri, qüssəni, hər kəsin üzünə həyatla vidalaşırmış kimi son dəfə baxmasını heç kimdə görmədim.

İndi, sənsiz qalanda bu ağrının acısını yalnız o gürcünün üzündəki ifadə ilə yanaşı qoya bildim. Sənsizliyin çarəsizliyinin yanında o gürcünün üzündəki ifadə gülümsəyə bilir amma…

Səhərlər "Sabahın xeyir", axşamlar "Gecən xeyrə qalsın"ı qayçı dodaqlarımız kəsməz olandan, dünyaya qaranlıq çöküb. 21 Dekabr—Dünyanın sonu bu imiş yəqin.

Görünür, insan həyatda heç bir şeyi çox istəməməli. İstədiyin şeyin istəmədən əsiri olursan çünki. Heç bir insan heç bir halda bir an öncəki insan deyil…

Lakin dəyişən və dəyişilən insanın öz hisslərinə gücü çatırmı? Bilmirəm. Bəlkə də kimsə daha güclüdür…

"Mən burda atəşində qovrularkən sən orda üşüyürsənsə…" Bu mümkünsə?

Günəş də hərdən üşüyür, yəqin…

Sənsizliklə baş edəmmirəm.

kəndiri boğazındaykən son kərə sevdiyinin üzünü görə bilməməkdi Sənsizlik.

Yuxusuz gecələrə sakitləşdirici vasitə idi varlığını duymaq.

Sənsizliyi yenəmmirəm.

P.S.

Az qala unudacaqdım. Lap Edip Cansevər demiş:

"Bu aralar elə hey əllərim üşüyür…
Həkim "Qansızlıq" deyir,
mən sənsizlik deyirəm"…

...BİR OVUC KÜL

Məni tanıyan adamları
əvvəl atəş sarar,
Sonra
külü ovucumda qalar...

Mən
ocağın külündən alışanam.
Od başına dönüb ulum.
Ruhumda Od eşqi var.

"Od parçası" olmaqdan
bezəndə gördüm
hər odun sonu külmüş.

İndi
tufanların tərkində
bir ovuc küləm mən də.
Çapır köhlən küləklər.

QANADLI QƏLBİM

"Güclü qadın"ın güclü qəlbi,
"Güclü qəlb"in qanadları var, dostum.
Dinləməmisənmi çırpıntılarını?

Qəlbinin qanadları ilə pərvazlanar…
Sevildiyini duyunca uçar qadın.
Qartaltək zirvələr fəth edər,
tovuztək göz oxşayar,
tutitək dil-dil ötər...

Qanadı qırılmış qəlb
xoşbəxt olmasa belə,
xoşbəxt görünməyi bacarar,
Təbəssümü əskik etməz üzündən,
canı yansa belə.

Bağışlayar
qəlbinə daş atanı da,
daşı da…
Güclü qadınının qanadları var - qəlbinin...
Bəxtəvər başına! –
Qanadlı qəlbim!

TANRININ YARATDIĞI HEKAYƏ

Yaratdığı min ağacın içində
birini də artırdı Tanrı.

Yavaş-yavaş kök saldı quru səhrada Ağac.
Qasırğalara sinə gərdi...
Günəşə boylandı.

Qol-budağının altında sərinlənənlər,
barından bəhrələnənlər -
bir udum suyu
çox gördülər köklərinə.

Rəhmi gəldi Tanrının yaratdığına,
yağışını bol,
torpağını münbit etdi....

Bu, "insan" deyilənlər
əvvəl "mənimdir"-deyə hasara aldılar,
sonra qanadlarını qırıb
şəkilləri üçün çərçivə düzəltdilər.
Kimsə eşitmədi
qolsuz gövdənin sızıltısını.

Bir gün
unudulacaq Tanrının hekayəsi.
Xatırlamaz insanlar,
səhra belə,
Tanrı belə...

Sergey ZOLOTOV
(Rusiya)

Bu yaxınlarda həmyerlim, həmkarım şairə Alina Talıbova Həştərxanda beynəlxalq ədəbi toplantıya qatılandan sonra Bakıya qayıdıb, köhnə bakılı, indi Xəzərin şimal sahillərində məskunlaşmış Sergey Zolotovdan xoş müjdə gətirdi və Həştərxanda rusca çıxmış "Barışmazlıq" adlı kitabını mənə çatdırdı. Üz qabığında ağsaç, üzügülər kişinin portretini görüb Bakıda vaxtilə dostlaşdığım qələm dostumu tanıdım... Kitabı vərəqləyib misraları ana dilimizdə səsləndirməyi özümə borc bildim, dost sovqatına dost cavabı sandım...

***

İlkin misra Tanrıdandır,
İkincisi kimindir?
Yazarlar bir qazandır
Hər biri qəhrəmandır.

Hər kəsin haqqı var, yəqin,
Öz sözünü deməyə.
Yuxusuna haram qatan
Can atır şöhrətlənməyə.

Şöhrət də tərs-tərs baxır,
Xatırladır ötkəmə:
İlkin söz Tanrıdandır,
Sözünü boş xərcləmə!

***

Doğma yurddan aralandım
Sütül oğlan çağımda
Atam - məni ötürdü,
Anam da köks ötürdü,
Bu ayrılıq anında:
"Allah amanında!"

Yola çıxdım şir kimi,
Hər işə qadir kimi.
İstəsəm, göyə uçaram,
Biçəmmədim istəyimi...
Ömür yolu - hamar, rahat,
Qət etməyə - dedim - nə var!
Hər bir çayın bənd-bərəsi,
Düz yolu tap, qalma naçar!
Ora-bura vurnuxaraq
əngəl gördüm, yarğan açdım,
yoxuşlara dırmaşaraq
hey süründüm,
heydən düşdüm.
Gah əlləşdim iş başında,
Gah büdrədim axışında,
Yaxşı gördüm, yaman gördüm,
Uçammadım can atsam da,
Yer tapmadım asimanda,
Qayıtdım ata ocağına,
Atamı görə bilmədim daha.
Ağlamsındı yazıq anam,
Köks ötürdü yana-yana:
"Şükür olsun Yaradana!"

Ruscadan çevirdi:
Səyavuş MƏMMƏDZADƏ

Kərim GÜLTƏKİN

YADPLANETLİLƏRİN QIYAMI

Qiyam başlayandan bəri evdən çıxmırdım. Hadisələri otağımın bir divarı boyda olan monitordan izləyirdim. Küçələrdə quraşdırılmış üç yüz altmış beş dərəcə çəkə bilən obyektivlərlə hər tərəfi aydın görürdüm. Fikirləşirdim ki, bu hadisələr haqqında kimsə düşünməlidi, gələcəyin xətrinə yazmalıdı. Mən də bütün bunları qəzetlər üçün yazırdım və evdən çölə çıxmadan da pul qazana bilirdim.

O vaxtdan bəri ilk dəfə küçəyə çıxdım. Qiyamın kəskin qoxusu nəfəs yoluma doldu. Texnologiyanın inkişafı kütləvi etirazları dağıtmaq üçün polislərin əvvəllər istifadə etdikləri bibər qazını iki yüz ilin eksponatına çevirmişdi. Amma planetin yeni çağrılmamış qonaqları üçün müəyyən qədər keçmişin təcrübəsinə məcburən əl atmışdılar. Çünki maqnit dalğaları, şüuru zəiflədən, beyinin müəyyən hissələrinə təsir edən kapsulalar keplərə təsir etmirdi. Deyirdilər ki, güclü telepatik qabiliyyətləri var və onlara qarşı düşünülən hücum planlarını əvvəlcədən bilib, tədbir görürlər. Bircə bibər qazını həzm edə bilmirdilər.

Keplərin niyə qiyam qaldırdığını yaxşı bilməniz üçün gərək sizə onların hekayəsini danışım.

Bir əsr öncə insanlıq tarixinin qeyri-adi hadisələrindən biri gerçəkləşdi. UFO-ların hələ bir əfsanə olduğu zaman idi. Əvvəllər iddia edildiyi kimi qlobal istiləşmə həyatımızı çəhənnəmə çevirəcək dərəcəyə hələ çatmamışdı. Bir neçə böyük müharibəni və onun sonrakı təsirini saymasaq, həyat adiliyi ilə davam edirdi. Amma bir gün insanlar gecədən sabaha çıxanda o məxluqlarla qarşılaşdılar. Özü də bir-iki nəfərilə deyil, miyonlarla yad məxluqlarla.

Sən demə, "Kep" adıyla tanınan bu məxluqlar tükənməkdə olan Keplər-222 adlı bir planetdən Yerə *keçid* ediblər. "Keçid" sözünü təsadüfi demirəm. Keplər qara dəliklərdə yüzlərcə işıq ilini az bir məsafədə qət edib bizim qalaktikaya keçib, ordan da yerə gəlmişdilər. Bununla da başqa planetlərdəki həyat haqqında gedən mübahisələrə birdəfəlik son qoyuldu.

Qısa boylu, qəhvəyi dərili, iri gözlü və dimdik burunlu bu varlıqların dörd qolu olmağına baxmayaraq, insana bənzəyirdilər. Bu, yaxın zamanlarda yerə gələn yad çisimlər haqqındakı xəbərlərin ən dəhşətlisi idi.

Keplər Türkiyə sərhədini keçmişdi. Minlərlə öləni saymasaq, kifayət qədər kep ölkəyə daxil olmuşdu. Vəhşi olmayan bu varlıqların, onsuz da, insanlıq qarşısında elə bir şansı yox idi. Amma belə varlıqlarla ilk dəfə qarşılaşanlar qorxudan çaşqınlıq içində oldular.

Keplər-222 günəşin udduğu bir planetdi. Kəşf olunsa da, haqqında heç bir informasiya yayılmamışdı.

Keplər-222-yə həyat verən ulduzdakı hidrogen partlayışları artmışdı və ulduz ölümə gedən zamanın başındaydı. Amma öz ölümündən əvvəl Keplər-222-yə üfürdüyü həyat nəfəsi kəsiləcəkdi. Günəşin istisi arta bildikcə artmış və planetdə həyat cəhənnəmə dönmüşdü. Keplər günəşin işğal etdiyi yer üzündən qaçıb torpağın altına sığındılar. Milyon illərlə yaratdıqları hər şey başlarının üstündə əriyirdi.

Keplər başa düşürdülər ki, sonsuza qədər torpağın altında yaşamaq mümkün deyil. Adi insan kimi onların da ağ ciyərləri var idi və oksigenlə nəfəs alırdılar. Ancaq Keplər-222 - də oksigen tükənirdi və onlar gələcəkdəki aqibətlərini artıq bilirdilər. Onlara məlum idi ki, getdikcə günəşin təsiri daha da artacaq və hər şey kül olub sovrulacaq. Həyat izləri tamamən silinəcək.

Fəqət Kep əhalisi tamamən məhv olmamışdan gözlənilməz bir hadisə baş verdi. Dünyamızla Keplər-222 arasında bir tunel peyda oldu. Sağ qalmış keplər planetlərindən qaçaraq bizim meşələrə, şəhərlərə, küçələrə evlərimizin damına yerləşdilər. Üstümüzə yağış kimi yağdılar.

Onların üzərində aparılan araşdırmalardan, zəhlətökən sorğu-suallardan, verilən işgəncələrdən sonra bu keçidin necə baş verdiyi, bura necə və nə məqsədlə gəldikləri məlum olmuşdu. Keçid anını heç biri xatırlamırdı, o anlar beyinlərindən sadəcə silinmişdi.

Keplərlə yaşamağımızın tarixcəsi, onların hekayəsi budur. Təbii ki, sonralar insanlıq tarixi çox maraqlı hadisələrə şahid oldu. Keplər yaşayan ölkələr öz demokratiyasına uyğun olaraq məxluqlara bəzi hüquqlar verdi. Onlar üçün şəhər salındı, xəstəxanalar tikildi, təhsil ocaqları quruldu. Dörd əlli olmaları keplərin hər işin öhdəsindən gələcəklərinə inam yaratmışdı. Beləcə yeni bir işçi sinfi törəmişdi.

Küləyin yaydığı bibər qazı mənə də təsir edirdi. Qoruyucu eynəyimi taxdım və mini hava filtirini burnumun dəliklərinə tıxadım.

Bir necə kepin hündür binanın divarlarıyla yuxarı dırmaşdığını gördüm. Həm çox cəld idilər, həm də dırmaşmağı yaxşı bacarırdılar. Polislərin onlarla yerdəki mücadilələri çox vaxt nəticəsiz olduğundan havadan təsir göstərməyə çalışırdılar.

Qiyam iki həftədi davam edir. Bir dəfə dostum demişdi: “Dövlət həmişə qazanır. Bir müddətdən sonra hər şey unudulacaq ”.

Mən nə keplərin, nə də dövlətin tərəfindəydim. Amma bildiyim bir şey var idi: dövlət böyüməz, kiçilməz və yaxud qazanıb itirməz. Dəyişən, ölçüsü dəyişdirilən, varlıq və yoxluq arasında gedib-gələn bizik. Tarix bəzi şeyləri əsla unutmaz...

Hadisələr keplərin sıx yaşadığı yerlərdən birinin gözlənilməz şəkildə yüksək dəyərlənməsiylə başladı. Bəzi mühüm şəxslərin təklifinə əsasən rəhbərlərin həmin yeri qiymətləndirməsi, fitilə od vurmaq oldu. Amma tarixdən xəbəri olan adamlar bilir ki, keplərin qiyamlarının əsas səbəbi bu deyildi. Əslində onların qiyamları gözlənilməz hadisədi. Hirsdən, öfkədən cəsarət doğar. Suyun daşacağı an əvvəl-axır gəlməliydi, gəldi.

Hələ də gəzirdim. Barrikada qurulmuş yollar boz dumanlığa bürünmüşdü. Bir sürü kep polislərdən qaçıb arxa küçələrdə itdi. Mənə ürkək baxan keplərlə tez-tez rastlaşırdım. Bəzi qrupların amansız hücumlarına məruz qaldıqları üçün adamlardan qorxurdular. Buna baxmayaraq, onlara qarşı xoş münasibətdə olduğumu göstərməyə çalışırdım.

Uzun saçlı bir kişi kepin səkinin daşlarını sökdüyünü gördüm. Durub izlədim. Görürdüm ki, barrikada qurmaq üçün daş yığmır, reklam panosunun yerə girmiş dirəyini çıxartmağa çalışır. Əllərindən birində qalın dəmir parçası tutmuşdu. Hiss edəndə ki, onu kənardan izləyirəm, duruxdu və qol-qanadını qırdığı türkcəylə “beynimi təmizləyirəm” dedi. Sonra qaldığı yerdən işinə davam elədi. Çaşıb qalmışdım. Keplərin bu tərzdə stress atdıqlarını təsəvvür etmirdim.

Bu hadisələrin təsiri məni o qənaətə gətirdi ki, qiyam həyatın və tarixin hər zamanında olub. Hər qiyamın öz hekayəsi var. Bəzi başlanğıclar bunun səbəbidir. Adəmlə Həvvanın o məlum meyvəni yeməsi, insanın bir qadağasının başlanğıcıdır.

Şeytanın müqaviməti başqa bir qiyamın nümunəsidir. Dini rəvayətlər, miflər, dastanlar həmişə sərhədlərlə, təzyiqlə, qadağalarla mücadilənin; itaətdən azadlığa çatmaq cəhdi, qəbul olunmuşun etiraza gedişinin təsiriylə doludu. Həyatımızın müəyyən zamanları etirazlarımıza həsr olunur. Hələ uşaqlıqdan istəmədiklərimizə qarşı qəti etirazlar edirik. Nizam qaydalarının ətrafımızdakı görünməz dairələri bəzən səbrimizi daşırır. Odur ki, etiraz etmək, itaət etmək qədər adidir. Etiraz hər canlının təbiətində var. Sonsuz kainatda yaşayan hər canlı nəyəsə etiraz edir.

Şəhər meydanını ovcumun içində görə biləcəyim yerə çatmışdım. Aşağıda çox böyük qarışıqlıq var idi. Polislər nə qədər çalışsalar da, meydanı boşalda bilmirdilər. Keplər hər tərəfdən axışırdı. Onlara dəstək verən insan qrupları da xeyli idi. Kütlə kepsevərlər və kep düşmənləri olaraq iki yerə ayrılmışdı. Küçələrdə olub-bitənlər sürətlə yayılırdı. Keplər telepatik qabiliyyətlərindən ötürücü mexanizm kimi istifadə edərək son durumu bir-birlərinə ötürür, meydana cəlb edirdilər.

Layihələrə sərmayə yatıran bəzi kepsevər qeyri-qanuni qruplar prosesin gedişatını dəyişə biləcək bir cihaz icad etmişdilər. Onun vasitəsilə keplərin bir-birlərinə ötürdükləri informasiya ortaq beyin şəbəkəsinə daxil olurdu. Yaşanan hər hadisə bir şəkildə beynimizə yerləşirdi. Ancaq insanlar aldıqları informasiya kodlarını dəqiqliklə dərk edə bilmirdilər. Onlara çatan dalğalar beyinlərində bir növ xəbər manşetləri kimi qəbul olunurdu. Detalları bilmək üçünsə gərək sibernetə girələr.

Uzun müddətdir keplərin telepatik qabiliyyətlərinin qarşısını almaq üçün müxtəlif üsullar hazırlanır. Bəzi inkişaf etmiş ölkələrdə varlıqların bu qabiliyyətləri sıxışdırılırdı. Keplər adi insanlar kimi idi. Zaman-zaman bunun tam əksinə də işlər görülürdü. Yeni irq yetişdirmək üçün kep kişilərindən istifadə edilməsi insanlar arasında etirazlara səbəb olmuşdu. Dinlərin əvvəlki nüfuzunu itirdiyi bir dönəm olsa da, onlar da buna qarşı çıxırdılar.

Keplərin bir-birləriylə əlaqələrini kəsmək məqsədiylə dalğaqırıcı siqnallardan istifadə edirdilər. Ancaq onların telepitik dalğaları çox fərqliydi. Ötürücü dalğalarını zəiflətmək olsa da, tamamən kəsə bilmirdilər.

Mən oturub hadisələri seyr edirdim. Meydan qatı tüstüyə bürünmüşdü. Dostumun dediyi kimi, bir gün bu hadisələr mütləq bitəcəkdi. Amma hər qiyamdan sonra mütləq bir yenilik olur. Ən azından düşüncələr, fikirlər, münasibətlər dəyişir.

Aşağıdakı qarşıdurma birdən dayandı. Polis göstərdiyi təzyiqləri saxladı. Onların olduğu yeri aydın görməyə çalışdım. Mövqeyindən geri çəkilən yox idi. Sadəcə olduqları yerdə dayanmışdılar. Bu vaxt dəhşətli bir uğultu başladı. Başımı qaldırıb göyə baxdım. Səmanın maviliyində qara nöqtələr gördüm. O qara xallar getdikcə böyüyürdü. Meydana insanlar və keplər toplaşıb heyrətlə göyün dərinliyini izləyirdilər. Uçan obyektlər sürətlə yaxınlaşırdı. Onların yaydığı möcüzə gözlə görünürdü. Dəqiqələr irəlilədikcə nöqtələr daha da böyüdü, yerdə həyəcan səsləri yüksəldi.

Gələnlər nəhəg uzay gəmiləri idi...

Meydan bayaqkı durğunluqdan çıxmışdı və yenidən canlanmışdı. Amma bu dəfə insanlar və keplər qaçaraq aylarla zəbt etmək istədikləri meydanı boşaldırdılar. Başımızın üstündə boğuq səs yayıldı. Hədə və ürküdücü səs ortaq dünya dilində danışırdı. Deyilən sözlər bütün dünyada tələffüz olunurdu.

Bu yad qonaqlar açıq-aşkar mesaj verirdilər: “Planetinizi işğal etdik. Bu andan etibarən hamınız Tegari İmperatorluğunun əsirisiniz. Etiraz şansınız yoxdur. Ən kiçik qiyam çoxunuzun ölümüylə cəzalandırılacaq!”

Əsl qiyam indi başlayırdı...

Çevirəni: Vüsal NURU

***

Elə bil dalınca düşübsən,
Saat qaçır, harasa tələsir.
İndi ağlıma bir fikir gəlir,
Güləcəksən, bəlkə də, mənə,
İstəyirəm barmağımdakı üzüyü
Saatın əqrəblərinə taxıb,
uçam yanına…
Küsmə nə olar,
Gələcəm mütləq!.

***

Görmədiyimə görə,
Nə küləyə, nə günəşə bənzədə bilmirəm səni.
nə üzümə əsdin həzin-həzin,
nə də isitdin məni ilıq-ilıq.
Baxa-baxa qalmışam indi:
Bəlkə, sən elə səhər yağan yağış,
ya ertə çıxan gün idin.
İndi axşamdır-
Nə yağış, nə də gün var,
nə də mənim gileyim...

***

Əlil arabasına bənzəyir məhəbbətin-
Sənə çatım deyə,
qarşıdakı yolu keçmək,
maşınları saxlamaq lazımdır.
Alınası iş deyil-
Bu şəhərdə maşınlar sürətli gedir!

GECƏ BİRİ OYAQDIR

Bir şeir yaz, sağ əlim,
İçində sevgi olsun,
Bolluca xoşbəxtlik qat,
Ac ruhum, bəlkə, doysun.

Bir şeir yaz son dəfə,
Ağlasın içində qız,
Tez-tez açım oxuyum,
Ərisin gözümdə buz.

Bir şeir yaz gecədən
Səhərə işıq salan,
Getsin yuxuya tezcə
Bu biçarə ağlağan.

Sətirlər olsun ,
Aparsın xəyalları,
Daha bizə kim batar,
Ey təkliyin adamı!

Hərdən yağışa dönüb
Axsın damcı-damcı yaş,
Mən çəkiləcəm geri,
Ruhumla özün dalaş!

Bir şeir yaz, sağ əlim,
Sevginin gözü dolsun,
Yağsın həsrət üstünə,
Bir azca hüzn olsun.

Bir gün kəsib atacam,
Sağ əl, səni kökündən;
Gecə vaxtı çıxardın
Ruhumu beşiyindən.

Tənhalıq nəğməsinin
Notları baş-ayaqdır.
Sus, qoy heç kəs bilməsin,
Gecə biri oyaqdır!

ÜRƏYİNDƏN KİM KEÇİR, OLSUN HƏYAT YOLDAŞIN

Şəkilə möhkəm vurul,
Getsin ağlın başından
Göz çək, qaş çək üzünə,
Saçlarını tünd qaralt
Qondarıb məhəbbəti
Bir ağ kağızdan yarat!
Ürəyindən kim keçir,
Lap qoy ona oxşasın
O da bu gündən belə
Olsun həyat yoldaşın.
Qondarıb məhəbbəti
Bir ağ kağızdan yarat!



ELDAR BAXIŞ:

Onu tanıdığım qədər

«Mən poeziyaya möcüzə kimi baxsam, ancaq o dini kitablardakı möcüzə kimi baxaram. Mən poeziyadan çəkdiyimi heç nədən çəkmirəm. Mən şeir yazmıram, and olsun o bir olan Allaha, səmimi deyirəm bunu, mən öz rahatlığım üçün yazıram, canımı qurtarıram şeirdən, şeir məni qoymur yaşamağa, mən də istəyirəm kəpənək kimi atılım-düşüm, ağac kimi tərpənim, su kimi axım…»

Eldar Baxış

Bir parça işıq düşdü
Çarpayımın üstünə,
O işıqda tərpəndi
bu kədərim, bəlkə də…
Bütün dostlarım gedir
haqq yolunda döyüşə-
gedir onlar inamla,
hamısı bir cərgədə.

Bir parça işıq düşdü
çarpayımın üstünə-
işıqdımı,
dişdimi,-
Sən ölümdə dişə bax,
haqq yolunda döyüşdə
ölmək istəyirdim mən,
amma yorğan- döşəkdə
öləcəyəm, işə bax!...

96-cı ilin may ayı, bəlkə də, bu dünyanın ən gözəl aylarından biri kimi yadımdan çıxmır. Bahar bütün gözəlliyi ilə ağaclara, evlərə, ürəklərə, məmləkətin hər bir guşəsinə işıq və yaşıllıq saçırdı. Amma o ay həm də sevincimizə zəhər qatdı, Azərbaycanın ən istedadlı şairlərindən biri - Eldar Baxış dünyasını dəyişdi. Televiziyanın bir verilişində onu yataqda, ölümün cəngində göstərirdilər. Şair Qulu Ağsəs böyük bir ürək yanğısı ilə görkəmi tamam dəyişmiş, gözlərində həyat eşqi sönmüş Eldar Baxışın son durumundan söz açırdı. Həmişə deyib-gülən, boyu-buxunu, yaraşığı, görkəmi ilə çoxlarında qibtə hissi oyadan Eldar Baxış 49 yaşına bir ay qalmış gözlərini yumdu və içimizə - onu sevənlərin dünyasına Eldar Baxış nisgili səpələdi.

Eldar Baxışın yoxluğu indi artıq dərəcədə hiss olunur və poeziyadan bir işıqlı səsin, öz sözünün, öz qəlbinin, öz taleyinin şairi olan bir insanın var olmaması hər şeydən əvvəl, ədəbiyyat üçün ağır itkidir. Mən nəyə desəniz, and içərəm ki, yaşasaydı, bəlkə də, ən gözəl şeirlərini yazacaqdı. O yaza bilmədiyi şeirlər, deyə bilmədiyi sözlər də onunla getdi.

O, Qubadlı rayonunun Diləli Müskanlı obasında, bir kəndli ailəsində doğulmuşdu. ADU-nun tarix fakültəsini bitirmişdi. Məndən iki kurs yuxarıda oxuyurdu. Biz onu elə tələbəlik illərindən şair kimi tanıyırdıq. Eldarın səsi şeir gecələrindən, qəzet, jurnal səhifələrindən gəlirdi. Çox çəkmədi

ki, Eldar Baxış öz ədəbi nəsli içərisində ön sıralarda göründü. Yaxşı xatırlayıram, «Azərbaycan» jurnalının 1978-ci ilin avqust nömrəsi «Ədəbi gənclik» rubrikasında üç cavan şairin - Vaqif Cəbrayılzadənin, Vaqif Bəhmənlinin və Eldar Baxışın şeirlərini gen-bol təqdim eləmişdi. O zamankı Əkrəm Əylisli redaksiyanın qapılarını istedadlı gənclər üçün taybatay açmışdı və Eldar Baxışı tanımayan minlərlə oxucu onun şeirlərini oxuyub poeziyada təzə bir səsin, nəfəsin varlığını hiss etdi. O şeirlərin içində «Kəndin dediyi» mənə daha çox təsir elədi. Bu, o illər idi ki, kəndli cavanların şəhərə axını başlanmışdı və Eldar Baxış kəndin dilindən deyirdi:

Hara qaçırsınız, kənd uşaqları,
göbəyiniz burda kəsilməyibmi?
Burdan - bu qaraca damın altından,
bu ağcaqovağın, şamın altından
hara qaçırsınız, kənd uşaqları?

Bu dağları atıb, daşları atıb,
bu yayları atıb, qışları atıb,
körpəcə-körpəcə quşları atıb
hara qaçırsınız, kənd uşaqları?

Çay qalxıb,
çay daşıb - keçən gərəkdi,
arandan yaylağa köçən gərəkdi,
biçənək otlanıb - biçən gərəkdi, -
hara qaçırsınız, kənd uşaqları?

Bütün yaradıcılığı boyu Eldar Baxış bu səpkidə, bu tempdə - sadə, hamının anlayacağı tərzdə yazdı. Sübut elədi ki, Azərbaycan şeirini tapmaca, krassvord, müəmma oyununa qarışdırmaq olmaz.

O tarixçi idi. Bakı kəndlərində öz ixtisası üzrə müəllimlik də eləmişdi, sonra öz ərizəsi ilə bir il əsgəri xidmətdə də olmuşdu. Sonralar Televiziya və Radio Şirkətində uzun müddət çalışdı, müstəqilliyimizin ilk illərində «Səs» və «Nəfəs» qəzetlərini yaratdı, sonuncu iş yeri yenə radio oldu, Uşaq verilişləri Baş redaksiyasının baş redaktoru vəzifəsində çalışdı. Ancaq tale onu ŞAİR yaratmışdı və mənimlə görüşlərində həmişə şeirdən, şairlərdən söz açardı, axırda da yaxşı lətifələr söyləyərdi. Özü də daha çox Cəlal Bərgüşaddan.

Yaxşı yadımdadır, Zəngilanda idik. Yazıçılar İttifaqı Təbliğ bürosu xətti ilə kəndləri gəzirdik. Mən hər dəfə giriş sözü ilə çıxış edir, sonra Eldara söz verirdim. Ancaq Eldar düz yarım saatdan sonra şeirlərini oxuyardı. Bu yarım saat ərzində isə Nizamidən üzü bəri ta çağdaş ədəbiyyatımıza qədər xoşladığı şairlərin şeirlərini oxuyardı. O şeirləri əzbər söylədikdən sonra deyərdi: «İndi də bu gözəl şeirlərdən sonra bir kəndçi balasını- Eldar Baxışı dinləyin».

Eldar Baxış deyirdi: «Mən bir adi adam kim - kəndçi balası, şəhərli balası, yer oğlu, göy oğlu kimi şeir yazan gündən qalmışam beş daş arasında. Birinci daş mən özüməm. İkinci daş mənim qələmimdir. Üçüncü daş kağızdı. Dördüncü daş Tanrıdı (daş dediyimə görə Tanrı məni bağışlasın. Ona görə ki, ağacı, quşu yaratdığı kimi, daşı da Tanrı özü yaradıb). Beşinci daş bu gidi dünyadı. Dəyirman daşı buğdanı, arpanı necə əzirsə, bu daşlar da mənim duyğumu, düşüncəmi eləcə əzir». Amma bu daşlar Eldar Baxışı heç də o dediyi kimi əzə bilmədi. Bircə Ölüm olmasaydı. Belə bir kəmfürsət ölümü heç kim gözləmirdi. «Ölüm» sözü ilə Eldar Baxışı yan-yana qoymaq, bəlkə də, bu dünyanın ən ədalətsiz işi olardı. Ancaq nə etmək? Bu ölüm, sən demə, doğulduğu gündən onunla yol gəlirmiş. Ölümünü yaşaya-yaşaya o, ölümə meydan oxuyurdu. «Ölüm» dedim, Eldar Baxışın «Balıq ölümü» poemasını xatırladım. Bu poema qısa bir ömür sürmüş, amma o az, yarımçıq ömrüylə də xatirələrdən, yaddaşlardan silinməyən Səməd Behrəngiyə həsr edilmişdi. Bu poema haqqında indiyə kimi tutarlı bir söz deyilməyib. Halbuki, «Balıq ölümü» nəinki Eldarın yaradıcılığında, ümumən ədəbiyyatımızda uğurlu bir hadisə sayılmalıydı. Bu poemada Eldar əbədi Ölüm və Həyat, Sənətkar və Zaman kimi poeziya üçün əsrlər boyu əbədi olan mövzulara üz tutmuşdu. Dədə Dərviş və Ölüm simvolik obrazları ilə o, Ölümün Şər, Qaranlıq, Mefistofel xislətini, Həyatın, Sənətkarın isə əbədi yaşarılığını, ölümsüzlüyünü nəzərə çarpdırırdı. Səməd Behrəngi Cənubi Azərbaycanın azadlıq ruhu ilə yoğrulan bir sənətçisiydi, uşaqlar üçün yazdığı nağılları ilə böyük şöhrət qazanmışdı, lakin öz ölkəsində onu sevmirdilər, çayda boğulub ölməsi isə hələ də sirr olaraq qalır.

Ölümün işi varlığı, var olanı yox etməkdir. Amma Eldar Baxış Ölümə təkcə bu məntiqlə yanaşmır, ölüm insan cəmiyyətindəki bütün reallıqları, həqiqəti bəyan edir:

Kövşən də - insan özü,
Yazı da - insan özü.
Qurd da insan özüdü.
Quzu da insan özü.
Hələ eşitməmişəm
At deyə:
«- Atı öldür».
Ot deyə:
«-Otu öldür».
Qurd deyə:
«-Qurdu öldür»:
Amma insan deyir ki,
Yeri, insanı öldür
Deyən,
gülən,
düşünən
Diri insanı öldür.

«Balıq ölümü»ndə Eldar Baxış Səməd Behrənginin faciəsi fonunda təkcə bir insanın deyil, bütöv millətin - o taylı-bu taylı Azərbaycanın düşdüyü bəlaları, mənəvi girdab canlandırır və bu da təsadüfi deyildi. O, bir şair və hər şeydən əvvəl, bir türkçü və möhkəm azərbaycançı kimi şeirində də milli və turançılıq ideyalarını gizlətmirdi.

Azərbaycanın başı üstündə qara buludlar oynayırdı və belə bir vaxtda Eldar bir sıra söz adamları kimi müstəqillik savaşına qatıldı. İslaholunmaz dərəcədə azad və sərbəst adam olduğu üçün qırmızı bayraqların dalğalandığı bir vaxtda «Yaşılım, yaşılım, hara gedirsən?» şeirini yazdı.

Ağac yaşılım, hara gedirsən?
hara gedirsən yarpaq yaşılım?
Ot yaşılım, hara gedirsən?
hara gedirsən, kəpənək yaşılım?
Getmə, qayıt geri, başına dönüm.

Zori Balayanın «Ocaq» kitabı çıxanda ona etiraz edən şeiri o zaman dillər əzbəri idi:

O nədir yazmısan, Zori Balayan,
Kür-Araz deyirsən - kəkələyirsən.
Xırda budaqların üstə oturub,
Böyük budaqları silkələyirsən.

Tamam unutmusan vaxtı, zamanı,
Bir də görmüsən ki, iş işdən keçib.
Bu azar tək sənin azarın deyil,
Bu azar hampadan, keşişdən keçib.

Dünya nə haydadır, sən nə haydasan,
A köhnə palazı sırıyan oğlan.
İrəvan dilində xoruzlanırsan,
Moskva dilində zarıyan oğlan.

Sən Zori Balayan, mən Eldar Baxış,
Baxıram, eləcə zoğallayırsan.
Keşiş zurna çalır, sən də keşişin
Qara zurnasını sığallayırsan.

Hələ yüzdən biri, mindən biridir
Bu, mənim dərdimin, mənim sərimin.
Samvel Azərbaycan xalq şairidir,
Ancaq adı yoxdur Əli Kərimin.

Bax bir ürəyimin genişliyinə,
De, kimə lazımdır bu haray-həşir?
Sənin ürəyinə bir ovuc torpaq,
Mənim ürəyimə dünya yerləşir.

O nədir yazmısan, Zori Balayan,
«Bala» da bizimdir, «zor» da bizimdir.
Ölmək istəyirsən, gəl Qarabağa,
Kəfən də bizimdir, gor da bizimdir.

Belə deyirdi: «Dünyada olan bütün insanların milləti var. Mən türkəm, sən ingilissən, o birisi fransızdı, bir başqası yapondu - yaxud peyğəmbərləri götürək: tutaq ki, İsa peyğəmbər cühuddu, Məhəmməd peyğəmbər ərəbdi. Hamımızın milləti var, amma Tanrının milləti yoxdu. Bəlkə buna görə də Tanrı göy üzündədi, biz yer üzündə. Bəlkə, buna görə Tanrı hamıdan - məndən, səndən, bizdən, sizdən, peyğəmbərdən, imamdan böyükdü, uludu. Bəlkə, buna görə min-milyon ildi əlləşirik, vuruşuruq, dua oxuyuruq, dəstəmaz alırıq, namaz qılırıq, oruc tuturuq, ancaq gedib o böyük, ulu Tanrıya qovuşa bilmirik».

Amma o, elə sağlığında Sözün Tanrısına qovuşmuşdu. Ən yaxın dostlarından olan Vaqif Bayatlı Önər onun ölümündən sonra bu sözləri yazmışdı: «Eldar Baxış Azərbaycan dilinin yox, türk dilinin şairidir. Türk dili Göyüzünün və Yerüzünün dilidir. Bu mənada Eldar Tanrının, Göyüzünün şairi olmaqla, həm də bizim yaşadığımız bu yer üzünün şairidir. Bu, Eldarın hamının gördüyü kiçik bir hissəsidir.

Deyilənə görə, vəsiyyət eləyib ki, onun başdaşına bircə söz-«Azadlıq» sözü yazsınlar. Eldar Tanrının seçdiyi ən Azad adamlardandı. O, Azadlığı özü üçün yox, bizimçün istəyirdi… Müstəmləkəçilik, köləlik əslində, Eldarın Azadlığının əsriydi.

Ana yurd deyilən bu torpağa basdırılan isə Eldarın yerüzündəki çox kiçik bir hissəsidir».

Eldar Baxış Azadlıq aşiqiydi («Asılı deyiləm mən bir adamdan, Bir adam da məndən asılı deyil») və o, insan azadlığına qənim kəsilən nə varsa, ona qarşı sözünü açıq, həm də kəskin söyləyirdi.

Bir dərdimiz, bir sərimiz bizimdi,
Yerdə qalan hər şeyimiz özgənin.

Bu yurdun qızılı, gümüşü də var,
Altına sərməyə palazı yoxdur.

Əyri kef eləyib əyriliyindən,
Yanıb düz adamın bağrı görmüşəm.

Mən Eldarın «Böyük qorxu», «Qələm», «Şair dostlar», «Deyə bilmədiyim sözlər», «Nəsə çatmır, çatmır bu yer üzündə», «Səsin nağılı», «Kəlbəcər şeirləri», «Əl», «Rəsul Rzanın ölümü», «Yolun iki üzü», «Qara qarışqalar» şeirlərini, «Çaldıran döyüşü», «Kənd», «Balıq ölümü», «Davanın axırıncı günü» poemalarını dönə-dönə oxumuşam və bu şeirlərdəki poetik incələmələr bir yana, sözün içindəki o Azadlıq yanğısı heyrətə gətirib məni.

Təzədən doğulmaq, təzədən gəlmək
Təzədən böyümək, boy atmaq olmaz.
Mənim ölən yerim buradı elə,
Daha burdan geri qayıtmaq olmaz.

Öyülməli torpaq öyülə gərək,
Əyilməli torpaq əyilə gərək,
Dəmir isti-isti döyülə gərək,
Dəmiri saxlamaq, soyutmaq olmaz.

Yerin çuxuruna hamar deməklə,
Yurdun payızına bahar deməklə,
Şüar söyləməklə, şüar deməklə
Milləti yuxudan oyatmaq olmaz.

O, bütün varlığı ilə Azərbaycana bağlıydı, Livandan, Fələstindən yazanda da bizim dərdlərimizi ora qatırdı. Amma mən onu həm də insan hisslərinin, zərif duyğuların şairi kimi sevirdim. Onun orijinal bayatılarından, «Oyun havaları» silsiləsindən yazdığı «Heyvagülü», «Gəlinatlandı», «Koroğlu nağarası», «Tərəkəmə», «Yallı» şeirlərindən xalq poeziyasının rayihəsini hiss edirdim:

Mən aşıq, yol açıqdı,
yar gəldi yola çıxdı.
Dizlərin –yurd yeridi,
Əllərim-alaçıqdı.
Mən aşığam, sarısı,
Ay-həsrətin sarısı.
Sən gül ol, sən çiçək ol,
mən üstünün arısı.
Mən aşıq, aran yeri,
dağ yeri, aran yeri.
Qibləyə döndərmişəm
sevgilim duran yeri.

Eldar Baxış güllü bir may günündə gözlərini yumdu. Amma «Ölən öldü, qurtardı, Dərd qalanın dərdidi». Eldar Baxış nisgili ürəyimizdən silinib getmədi…

Vaqif YUSİFLİ

Eldar BAXIŞ

***

Şəhərdə qalmazdım, belə bilsəydim,
götürüb qaçardım şələ-şüləmi.
Orda da tapardım
burda tapdığım
kitabı, dəftəri,
kağız-qələmi…

…Kərənti vurardım, bağ bağlayardım,
pencəni yığardım pencənin üstə.
Evə də gəlməzdim axşam düşəndə,
yıxılıb yatardım gecənin üstə.

Ulduzlu göyləri, aylı göyləri
çəkərdim başıma yorğan yerinə.
Bir də durardım ki, dan yeri dönüb
bir ları xoruzun ləələklərinə.

Qalxıb bütün günü ot daşıyardım,
papiros çəkərdim kötüyə kimi.
Hortum yarpağını,
gül yarpağını
gözümə təpərdim tütüyə kimi.

…Şəhərdə qalmazdım belə bilsəydim,
dəmir çarığımı geyib gələrdim.
Orduxan əmimi,
Xanış kirvəmi,
Şahsuvar dayımı deyib gələrdim.

Qoşulub onlara calaq vurardım,
qələmə vurardım arzularımdan.
Kəkotu qoxusu,
nərgiz qoxusu
gələrdi həmişə yazılarımdan.

***

Ağac yaşılım,
hara gedirsən?
hara gedirsən,
yarpaq yaşılım?
Ot yaşılım,
hara gedirsən?
hara gedirsən,
kəpənək yaşılım?

Çəkdiyin bəs deyilmi
kiçik-kiçik danışan Böyük çillədən,
böyük-böyük danışan Kiçik çillədən
boz-boz danışan Boz aydan-
çəkdiyin bəs deyilmi,
Yaşılım,
yaşılım, hara gedirsən?

çiçək qanadından, ot qanadından
palıd qanadından, tut qanadından,
sallana-sallana hara gedirsən?

Yaya güvənirsən? Güvənmə yaya!
Yayın istisinin axırı yoxdu.
Yayın istisi də it günündədir.
atı var,
otu var, axuru yoxdu.
Baxsan bu istiyə, allanacaqsan,
sənə yol verəcək-yollanacaqsan,
böyründən-başından xallanacaqsan.
Yaşılım,
yaşılım, hara gedirsən?

Bu odun-istinin o tərəfində
o sarı zamanın sarı payızı,
o sarı payızın sarı küləyi,
o sarı küləyin sarı şilləsi
ağzını ayırıb səni gözləyir.

O sarı zamanın sarı payızı,
o sarı payızın sarı küləyi,
o sarı küləyin sarı şilləsi
sındıracaq səni, əyəcək səni,
düşəcək dalınca canavar kimi,
qurd kimi dağıdıb yeyəcək səni, -
Yaşılım,
yaşılım, hara gedirsən?
Getmə, qayıt geri, başına dönüm.

***

Göz görmək üçündü, söylədin,
Qulaq eşitmək üçündü,
dil danışmaq üçündü, söylədin,
ayaq yerimək üçündü,
bunu nənəm də bilir.
Təkcə gözünlə görürsənsə,

qulağınla eşidirsənsə təkcə,
təkcə dilinlə danışırsansa,
ayağınla yeriyirsənsə təkcə,
səndən şair olmayacaq.
Gözün işləməyən torpağı görə bilməsən,
eşidə bilməsən qulağın eşitməyən səsi,
dilin deməyən sözü deyə bilməsən,
gedə bilməsən ayağın getməyən yerə,
səndən şair olmayacaq.

***

Pişik istədiyindən
yeyir balasını.
mən də səni yeyirəm istədiyimdən-
təndirindən çıxan çörəyi yeyirəm,
pətəyindən süzülən balı yeyirəm.
Yemişəm, yeyəcəyəm…
Axırda səndən,
bir qarış yer,
bir ovuc torpaq istəyəcəyəm,-
canımla, ətimlə, qanımla
təndirindən çıxan çörəyin,
ağacın gətirən barın,
pətəyindən süzülən balın
yerini verməkdən yana.
Vətən,
uşaq anasını,
yetim göz yaşını,
kasıb komasını
nə qədər istəyirsə,
mən də səni o qədər istəyirəm.
İnanmırsan, get soruş,
Semaşko xəstəxanasından soruş,
Baxış həkimdən soruş.
Baxış həkimin barmaqlarından soruş.

Rəfail TAĞIZADƏ

KEÇİR

Susan məhəbbətin alt yaddaşında
hər an oyanacaq ocaqları var.
Sevincə həsrətli hissin, duyğunun
təzədən qol açan qanadları var.

Sən ha gizlətsən də, yavaş desən də,
gündüzün səsləri gecədən gəlir.
Evin dərdlərini divar saxlamır,
sədası qonşudan, küçədən gəlir.

Dünya fırfıradı bir oxun üstə,
gündüzlər gecədən ələnib keçir.
Bu gündən sabaha ümid daşıyan
ömrümüz yuxuya bələnib keçir.

Sevincdən gözləri alışıb-yanan
yüz eşqin dərdləri bir ah içində,
nə qədər qaçsaq da, yaşadıq yenə
gecəli, gündüzlü günah içində.

SOZÜN SƏSİ

Ilahi, bu kimdi belə?
Üz-gözündən baxış yağır,
elə baxır ki göylərə,
şıdırğı bir yağış yağır.

Ağac görüb çiçəkləyir,
arı görüb beçələyir,
gözəllikdən nitq tutulur -
adam tamam çeçələyir.

Sən bir sözün səsinə bax,
adamı alıb aparır,
səmada qanad çalanın
sehrinə salıb aparır.

Bu üzdə günəşmi doğub,
bu qədər də işıq olar?
Bu gözlər, ilahi gözlər,
baxan, gözə aşiq olar.

QƏMLİ BAXIŞLAR

Necə silim o şəklin mən göz yaşın?
Çarpaz qollar boğur məni şəkildə.
Çıxart məni köynəyinin içindən
enib-qalxır ürəyintək şəkil də.

İndi hara baş götürüb yol gedir
gəl-gəl deyib, söz söyləyən baxışlar.
Qəm götürüb, dərd yükləyib dağ çəkir
ürəyimə sən çəkdiyin naxışlar.

Üz-gözündə son illərin baxışı,
sevincimi qəmlər boğur haçandı,
ha bağrıma basıb, basıb, hey öpdüm,
dərd sönmədi... təzə dərdlər oyandı.

... Danış şəkil, danış gözlər, danış, din.
Kim deyir ki, illər bizi itirməz?
Baxma mənim sən arxamca beləcə,
gözlər məni bir də geri gətirməz.

Alxan BAYRAMOĞLU
filologiya üzrə elmlər doktoru, professor

Qara dənizin
Türk sevdalı çırpıntıları

Tanınmış Azərbaycan şairi Əhməd Cavadın yaradıcılığı milli-mənəvi ruh yüksəkliyi, təəssüb hissi, istiqlal təşnəsi və vətənpərvərlik duyğusunun vüsəti ilə diqqəti cəlb edir. Bu xüsusiyyətlər onun türksoylu xalqların tarixi taleləri ilə bağlı məsələlərə münasibətdə özünü daha qabarıq büruzə verir. Fikrimizə əsas olaraq şairin "Çırpınırdın, Qara dəniz" şeirini göstərə bilərik. Bu şeirin məşhurluğu onun ifadə etdiyi vətənpərvərlik duyğusunun dərin təəssüb hissi ilə aşılanmasında, daşıdığı ideya - məzmun yükünün siqlətində və yazıldığı tarixi-siyasi şəraitin mahiyyətindədir. Şeirin elə ilk misralarından ifadə etdiyi həsrətin yanğısı dərin, uzunömürlü və tükənməzdir:

Çırpınırdın, Qara dəniz,
Baxıb Türkün bayrağına,
"Ah!.." deyərdin heç ölməzdim
Düşə bilsəm, ayağına!

Qara dənizin türk bayrağına baxaraq keçirdiyi bu təşnəli çırpıntıları uzun tarixi icbari ayrılıqdan sonra yaranan vüsal fürsətindən güc alır. Həmin həsrətin gücü isə milli tarixi yaddaşın təlqin etdiyi vətənpərvərliklə, yurd sevgisi ilə bağlıdır. Belə ki, Qafqazın Batum diyarı türkün illərdən bəri qəsb edilmiş tarixi torpaqlarıdır. Ona görə əcdadların rahatsız və həsrətli ruhlarının gözü övladlarının yoluna dikilib. Nəhayət, yolun üfüqlərindən görünən qaraltı həsrətin sona çatacağına olan ümidi şölələndirməklə yanaşı, övlad vəfadarlığına inamı bir qədər də möhkəmləndirir. Qara dənizi də, Batum elini, Qafqaz torpağını da Türk bayrağının yenidən onun cənub sərhədlərinə doğru yönəlməsi ümidləndirir. Onun ürəyi qəfəsdən çıxmaq ərəfəsinin gərginliyini yaşayan əsir bir quşun qəlbi kimi çırpınır; övladını bağrına basıb ətrini, nəfəsini duyub, ciyərlərinə çəksə, ölümsüzlük qazanacağına inanır.

Əzəli tarixi türk torpaqlarına Türk bayrağı altında yaxınlaşan "Həmidiyyə" zirehli hərbi gəmisi idi. 1914-cü ildə Batum sahillərinə yaxınlaşaraq Rusiyanın "Kazbek" hərbi zirehli gəmisinə meydan oxuyan "Həmidiyyə" 1912-ci il Balkan müharibəsində Yunanıstanın "Averof" hərbi gəmisini məhv etmişdi. Həmin qələbənin şöhrət dolu ruh yüksəkliyi o vaxt Batum sahillərini, bütün Qafqaz ellərini türkün yeni şanlı qələbələrlə tarixi haqqını bərpa edəcəyinə bəslənən inamı möhkəmləndirməkdə, alovlandırmaqda idi. Əhməd Cavad da belə bir tarixi sevinc anlarında bütün Türk dünyasının ruhunu, duyğularını ifadə edərək müjdəli sevinclə yazırdı:

Ayrı düşmüş dost elindən,
İllər var ki, çarpar sinən!..
Vəfalıdır gəldi, gedən,
Yol ver Türkün bayrağına!

Qara dənizə tövsiyə edirdi ki, "Həmidiyyə" gəmisinin yolunu açsın, hər hansı fırtınanı kənara çəksin:

İncilər tök, gəl yoluna,
Sırmalar səp sağ, soluna!
Fırtınalar dursun yana,
Salam Türkün bayrağına!

Vətənpərvər şairin arzuları fırtınaların belə kənara çəkilib türk bayrağını salamlaması istəyi ilə tükənmir. O arzu edirdi ki, saf türk qanı daşıyan "Həmidiyyə" kapitanı Rauf Orbay və bütün gəmi heyətinin qəhrəmanlıq şöhrətinə yeni bir səhifə açılsın və bu dəfə onun qurbanı Rusiyanın "Kazbek" hərbi zirehli gəmisi olsun:

"Həmidiyyə" o Türk qanı!
Heç birinin bitməz şanı!
"Kazbek" olsun ilk qurbanı!
Heyran Türkün bayrağına!

Məlumdur ki, Ə.Cavad bu şeiri sevinc dolu həmin anları eşidərkən Gəncədə qələmə almışdır. Bu zaman Azərbaycan ellərinin necə bir coşqunluq keçirdiyinin şahidi olduğu üçün duyğularını belə ifadə edirdi:

Dost elindən əsən yellər,
Bana şeir, salam söylər.
Olsun bizim bütün ellər
Qurban türkün bayrağına!
Yol ver türkün bayrağına!

Şeirin türk sevdalı həsrət dolu çırpıntılarla daşıdığı vətən, yurd sevgisi, təəssüb və milli qürur duyğusu ilə yoğrulmuş məzmun və fikir tutumu öz ruhunu, enerjisini doğma torpaqdan, vətənə, millətə - soykökə bağlılıqdan aldığı üçündür ki, onu eşidən hər bir türkü dərhal ağuşuna alıb ümid, xəyal, arzu qanadlarında sonsuzluğa qədər sarsılmayacaq bir amal üstə kökləyir. "Çırpınırdın, Qara dəniz"in bu milli bəşəri gücü dünya durduqca var olacaq.

Hekayəmsən, hekayəm

Türkan TURAN

"Yorma məni!

Get və yoxluğunla bu qəfəsdən çıxart məni!"

Hər işvəli aşiq kimi, mən də sinəmə döyürdüm. Öz aləmimdə guya səni unudacaqdım. Guya sən olmasan, həyatım rəngarəng olacaqdı. Məsələn: artıq istədiyim yerə gedəcəkdim, istədiyim çevrəyə qatılacaqdım, sənsiz etməli olduğum nə varsa hamısını edəcəkdim. Yox, alınmadı! Müxtəlif çevrələrə qatıldım, "parti"lər, əyləncələr, qonaqlıqlar…

Öz aləmimdə sosiallaşmağa qərar vermişdim, dostlarımla əlaqələrimi bərpa etdim. Hər gün bir dostla çay, qəhvə içdim. Nəticəsi bilirsən nə oldu? Oxu!

Yazar dostumla görüşdük! Ədəbiyyatdan, son çıxan kitablardan, şairlərdən, şeirlərdən danışdıq.

Dostum bu günlərdə İstanbuldakı kitab sərgisindən qayıdıb. Təəssüratları çoxdu, dayanmadan danışır. Qəhvəm acı, söhbət uzun, düşüncə dərin…

Ani olaraq "mənə bilmədiyim bir şeydən danış" dedim. Məsələ burasındadır ki, danışdığı ədəbiyyat sən idin. Mənim ədəbiyyatım! Hekayəm, romanım, şeirim…

Üstünü yazıb atdığım kağız parçasını, bir neçə gün sonra sənin masanda tapmaqla başladı o roman… Bütün obrazlarım, süjet xəttim, nöqtəm, vergülüm hamısı səndən ibarətdir. Ədəbiyyatımı sənlə kəşf etmişəm, özüm də fərqində olmadan. Oxuduğum hər cümlədə səni axtarıb, nöqtəni sənlə qoyuram. Romanım, povestim, oçerkim, essemsən. Hekayəmsən, hekayəm. Maraqla başladığım, tərəddüdlə davam etdiyim, sonunu bilmədiyim... Musiqimsən. Artıq musiqiləri bir başqa cür dinləyirəm. Rəngini, fərqini, ölçüsünü dəyişib mahnılar. Sənlə musiqimin ən gözəl notlarını yaşayıram. Hər gün bir notunu yazdığım, maraqlı sözlər qoşduğum, dinlədiyim zaman ruhum pərvazlanan musiqim. Klassikam, retrom, cazım.

Bütün insanları sıfıra endirənim. Bütün hadisələrə gözəllik saçıb onu mükəmməlləşdirənim. Nə Suriya hadisələri, nə İŞİD, nə vertolyot vurulması, nə müharibə başlamağı ehtimalı, nə qətliamlar heç biri vecimə deyil. Ağlımı sənlə pozmuşam. Səni düşünməyimə mane olan hər şeyi silib təmizləyirəm.

Bir politoloq dostumla çoxdandır görüşmürdük. Yoxluğunda onunla da görüşüb xeyli söhbətləşdik. Çəkişmələrdən, müxalifətin çökməsindən, bu günlərdə baş tutmuş mitinqdən, oliqarxların son zamanlar bir-biri ilə şəxsi ədavətlərindən danışırdı. Bu söhbətləri hər zaman dinləyirdim. Amma indi bütün bunlar məni maraqlandırmır, çünki siyasətim də sənsən, siyasi söhbətlərim də. Üzərində baş sındırdığım, gecə gündüz müqayisələr, mübahisələr,

analizlər edib, şərhlər verdiyim… Min bir fikrə düşdüyüm, içindən çıxmağa çalışdığım, lakin içərisindəcə batıb qaldığım siyasətimsən. Günlərdir müharibə elan etdiyim, lakin indi məğlub olub geri çəkildiyim müharibəm. Siyasi təşkilatım da sənsən, partiyam da, mitinqim də, aksiyam da, sammitim də, hamısı sənsən! Nə zaman ruhuma, beynimə bu qədər hakim kəsilmisən? Hər yerim sən olub! Dövlətimsən, içərisi gərginliklə, çəkişmələrlə aşıb-daşan dövlətim. Amma bir fərq var ki, bütün xalqın etdiyini, sən ürəyimdə tək bacarırsan. Möcüzəsən, sehrindən çıxa bilmirəm. Elə bir hissən ki, düşüncələrimi, beynimi, ruhumu, fikrimi, arzumu, duyğumu zəbt etmisən. Səndən öncə məkanlarını, sevdiklərini, çevrəni, seçimlərini sevdim. Xatırlayıram, səni tapdığım vaxt yağış yağırdı şəhərə. İndi az qalıram yağış yağanda suyunu içim, sevgimdən, sevindiyimdən.

İncəsənətimsən…

Ən gözəl rəsm əsərlərim, sərgim, sərgimin şah əsərisən. Sərt və yumşaq kətana çəkilən, özündə minlərlə rəng birləşdirən boyamsan. Bədii obrazım, kompozisiyam, koloritim, ritm kimi təsvirim, ifadə vasitəmsən.

Səni təsvir edirəm, hər anımda. Həyatımın müxtəlif hissələrində sənlə bağlı rəsmlər çəkirəm. Səndə başlayıb səndə bitirəm. Səndə doğulub, səndə ölürəm. Rəsmlərim sənin kimi rəngarəng, mənim kimi qarışıq, sənin kimi çılğın, dəli-doludur.

Dəyərimsən. Uğuruna möhtəşəm xətalar edə biləcəyim dəyərim. Sən insanlara olan mərhəmətimsən. Ürəyiaçıqlığım, məsuliyyətimsən. Çirkaba batmış həyatımda məsuliyyətimin simvolusan. Üzümdəki kədərə qarşı sevincimsən. Dəyərin bütün sevgiləri heç edir. Varlığın bütün maraqları mənasızlaşdırır.

Dəyərimin özü, ən yaxşım, nə yaxşı ki, varsan!

Düşünürəm, gəlməsən, nə olardı? Dadım qaçardı. Rənglərim qarışardı, ritmim pozulardı. Standartların bir parçası olardım.

Siqaretinin qoxusu ətrim, içkin şipşirin şərbətimə çevrilib. Sənlə məkanlar seçimi heç olub. Sənlə saatım 24 saatlıq sistemdən çıxıb. Birlikdə dəqiqələrin hər saniyəsi çiçək açmaqla məşğuldur. Mübahisələrin ardından "gəl" deyə bilirəmsə və bir neçə dəqiqə sonra səni yanımda görürəmsə, bax bu sənsən. Sevmədiyim yeməyi iştahla və ləzzətlə yeyirəmsə, bax bu sənsən. Şəhərin bir ucundan o biri ucuna piyada getməkdir sənin fərqin. Dəyərimsən, məntiqimsən, dünyaya baxan gözəlliyimsən, insanların icindəki pislikləri görməzdən gəldiyimsən...

Varlığın sunami kimi daxil olub həyatıma. Səndən öncə olan hər şeyi vurub dağıdıb, yuyub aparıb. Sənlə günəş başqa cür doğur.

Bu aralar havalar soyuqdur, sadəcə şəhərimdə yox, elə sənsiz qalmış ürəyimdə də…

Artıq sinəmə döymürəm"Get dediyim kimi," Gəl" deyirəm. Bu dəfə sadəcə gəl..

Yoxluğun çəkilmir. Sənə aid olmayan hər yer və hər şey maraqsızdır, cansıxıcıdır. Qayıt!

Səni sevdiyim zaman bu şəhərə yağış yağır.

Şəhərimə geri dön... Dön, yağış bizə birlikdə yağsın.

Dön…

GÖZLƏNİLƏN İP

"Xərçəngsiniz! Qısa zamanda kimyaterapiyalara başlanmalıdır...."

Səs qulağımda əks-səda verərək təkrarlanırdı. Udquna bilmirdim. Boğazım düyünlənmişdi. Həyəcanlana bilmirdim. Reaksiyasız qalmışdım. Qışqırmalı idim? Bəlkə ağlasam, özümə gələrdim?! Hər zaman hər şeyi detalına qədər sual verən mən, bu dəfə aciz idim. Üzümdə elə dəhşətli bir soyuqluq vardı ki, heç bir şey düşünə bilmirdim. Donmuş vəziyyətdə ayağa qalxdım. Həkimin otağından xəstəxanın dəhlizinə necə çıxdım, dəhlizdən liftə doğru necə getdim, bilmirəm. Birinci mərtəbəyə düşmək üçün liftin düyməsini basdım. Lift birinci mərtəbəyə çatmışdı, amma mən bunun fərqində deyildim. Ta ki, "Doktor Əliyev, təcili əməliyyat otağına" deyilənə qədər. Özümə gələndə yeddinci mərtəbənin rəqəmi yanıb sönməyə başladı. Yenidən birinci mərtəbənin düyməsini sıxıb aşağı düşdüm.

Liftdən çıxdım. Bu gün sanki hər kəsin başına hadisə gəlmişdi, çünki izdiham səngimirdi. Ya da mənim süstlüyüm qarşısında mənə elə gəlmişdi. Xəstəxanadan çölə çıxdım. Hava tutqun idi, arada bir yağış damlaları düşürdü. Elə bu düşüncədə idim, birdən güclü yağış yağmağa başladı. Sanki silkələnib özümə gəldim. Bütün bədənim boşaldı,

ətrafa baxdım, dizlərim yerə çökdü. Hönkürərək ağlamağa başladım. Bütün dünya başıma yıxılmışdı. Üstüm palçıq idi. Güclü yağış olduğu üçün ətrafda heç kim gözə dəymirdi. Səsim xırıldayana qədər hönkürməyə davam etdim. Telefonum susmurdu. Özümdə güc tapıb baxdım , 47 zəng gəlmişdi.

Cəmi bir il idi evli idim. Zəng edən də həyat yoldaşım idi. Telefonu çantaya atdım. Şüursuz idim. Baş verənləri dərk etməyə çalışırdım.

Düşünürdüm! Birinci olaraq müalicə yox, ölüm gəlmişdi ağlıma. Çünki özümü dərk edəndən bu xəstəlik haqqında hər kəs qorxaraq, dəhşətlə danışırdı. Əksər insanların da bir neçə ay ərzində həyatdan köçdüklərinin şahidi olduğum üçün ölümdən başqa ağlıma heç nə gəlmirdi. Özümü güvən içində olan bir gəminin içərisində, anidən dalğalı dənizə düşmüş kimi hiss edirdim. Dəhşətli dalğalarla necə rəftar edəcəyimi bilmirdim!

Dünyam dağılmışdı. Xərçəng həyatıma anidən dağıdıcı bir sarsıntı kimi daxil oldu. Adını belə deməkdən qorxduğum xəstəlik, artıq içimdə, vücudumda dolaşırdı. Evə gəldim. Bir müddət heç nə etmədən oturdum. Saat yeddidə qapının zəngi çalındı. Açdım. Yoldaşım məni görəndə qorxdu. Ömür boyu üzündən təbəssüm əskik olmayan bir insanın üzünə qəbir soyuqluğu çökmüşdü. "Nə olub?" deyə sual verdi. Birbaşa, soyuqqanlılıqla, heç nə olmamış kimi "xərçəngəm" dedim. İnanmadı, dediklərimi zarafat saydı. Amma üzümdəki dəhşəti görəndə alındı, qucaqladı məni. Dəli kimi üsyan etdi. Sonra hər yerdən əli üzləndə göylərə baxıb Allahdan imdad dilədi.

Yoldaşım özünə yer tapmırdı, fəryad edirdi. Bu fəryad mənə, bəlkə də, ən azı xəstəliyim qədər təsir etmişdi. Əlinə keçəni vurub-dağıdırdı. Ən son olaraq gül qabını güzgüyə çırpdı. Mən donmuş vəziyyətdə ona baxırdım. Birdən qırılan güzgünün parçalarından məni görüb özünə gəldi. Dönüb məni qucaqladı. Mən də onu qucaqladım. Sanki bu an öləcəkmişəm kimi, dəlicəsinə... Sanki bir azdan hər şey əlimdən uçub gedəcəkdi…

Bundan sonra yaşayacağım 20-30 ilimi elə həmin gecə yaşayıb bitirəcək kimi hiss edirdim özümü. Bu çox aydın yadımdadır ki, gecə onu necə qucaqlamışdımsa, səhər də eyni formada gözlərimi açmışdım.

Səhər açıldı. Birlikdə getdik həkimə. Həkim dedi, təcili əməliyyat olunmasa, yayıla bilər. Qorxduğum başıma gəlmişdi, döşümün biri kəsiləcəkdi.

İndi düşünürəm ki, biz qadınlar ölüm ayağında belə estetik gözəlliyin qeydinə qalırıq. Qüsursuz sinəm və bədənim indi yarımçıq qalacaqdı. Həyat yoldaşım "nə lazımdırsa, dərhal edilsin!" deyəndə mən öz dünyama qapılmışdım. İki gün ərzində əməliyyat olmalı idim.

Çarəsizlik...

Əməliyyat olunmaq üçün Mərkəzi Xəstəxanaya üz tutdum. Qorxurdum. İçimdə dəhşət var idi. Öz ayağımla bədənimin parçasını kəsmək üçün xəstəxanaya gəlmişdim. İndi necə olacaqdım? Doşüm kəsiləndə mən necə yaçayacaqdım? Yarım vəziyyətdə? Əməliyyat otağına daxil olduq. Son dəfə başımı qaldırıb sinəmə baxdım. Ölüyə son dəfə baxan kimi. Ayılandan sonra isə heç nə hiss etmirdim. Bir dəfə başımı aşağı əyib, sinəmə baxdım. Gözlərimi qapayıb yatdım. Bir müddət sonra xəstəxanadan çıxdım, özümü yarımçıq hiss edirdim. Sanki hər kəsin gözü üstümdə idi. Heç yerə çıxmaq istəmirdim. Düşünürdüm ki, sinəmin aqibətindən hamının xəbəri var. İnsanlardan qaçırdım. Həyat yoldaşımın hər baxışının altında nə düşündüyünü görmək üçün gözümü ondan çəkmirdim. Ən dəhsətlisi bilirsiniz nədir? O, xoş, sevgi ilə davrananda da, soyuq rəftar edəndə də bu, mənə təsir edirdi. Birinci ona görə ki, yazığı gəldiyini düşünürdüm. Soyuq davranan da isə məni istəmədiyini və məcburiyyətdən yanımda qaldığını düşünürdüm. Amma zaman hər şeyi daha aydın göstərəcəkdi.

Saçlarım...

Artıq bir müddətdir evdə idik. Günlərimi düşünməklə keçirirdim. Eyni zamanda hər gün xəstəliyimin bir surprizi ilə qarşılaşırdım. Hər səhər ovuc-ovuc saçın yastığın üstündən yığılması başqa hissdir. Kimyaterapiyalar üçün saçlarım kökündən kəsilməli idi. Bu mənə ayrıca dəhşət yaşatmışdı. Başqa vaxt saçımı 1 sm kəsdi deyə saatlarla ustamla dava edirdim, indi isə kökündən gedəcəkdi. Sevdiyim saçlarım artıq yox idi, kəsilmişdi. Baxımlı olduğum hər kəsə məlum

idi. Dırnaqlarım, kilom, saçlarım hər zaman qaydasında olurdu. Amma indi vücudum yaralı və yarımçıq idi. Ruhum sarsılmışdı. Qadınlığımı unudurdum artıq. Hər ötən gün bu hiss məni daha da boğurdu.

Ümidsizlik...

Bir müddət sonra hər şey hiss etdiyim kimi olmağa başladı. Həyat yoldaşımın soyuqluğu artıq məni üşüdürdü. Dediyim kimi, hər şeyi zaman göstərəcəkdi və göstərdi. Laqeyd münasibət, gizli mesajlaşmalar, diqqətsizlik, evə gec gəlmələr, gələn və anında rədd edilən zənglər… Artıq hər şey aydın idi. Gözümün qarşısında çox sonralar baş verəcəyini düşündüyüm, amma ilk fürsətdə gördüyüm xəyanət baş verirdi. Başa düşürdüm ki, sevgi dediyim əslində vücud vurğunluğu imiş. Sarsıldım, amma susdum. Həmin vaxtlar daha da sərtləşdim. Torpaq kimi, üstümə basıldıqca sərtləşdim. Gözüm heç nəyi görmürdü. Hər kəs bilir ki, bu xəstəliyə düçar olanlara stress olmaz. Ailəm yanımda idi. Dəstək olurdu. Müalicələr davam edirdi. Hər ay kimyaterapiya dəhşəti yaşayırdım. Artıq nə düşündüyümü belə bilmirdim. Bir yol var və mən o yolu sonu nə olduğunu bilmədən gedirdim. Ümid bağlayacağım bir şey qalmamışdı. Hər dəfə müayinələrə gedəndə həkimin ağzından çıxan sözün baş hərfini belə səbirsizliklə gözləyirdim. İnsan özünü bilirsiniz nə zaman çarəsiz hiss edir? Həkimin qarşısında həyatını həll edəcək cavab gözləyərkən. Ölərkən kimdənsə asılılığın olmur, çarəyə gərək qalmır. Amma ölümlə həkim arasında qalmaq ən dəhşətli hadisədir. Artıq təsəlliedici sözlər istəmirdim. Nə baş verir deyə sual verərkən yalanlar arxasında gizlənən gerçəkləri axtarırdı gözlərim.

Ümid...

Bir gün ürəkbulanmalar daha da artdı. Düşünürdüm ki, aldığım kimyaterapiyalardandır. Növbəti analizlərin birində həkim heyrətlənmiş halda otağa daxil oldu. Daha sonra digər həkimləri çağırdı. Analizlərin cavabını məndən alıb çöldə gözləməyimi xahiş etdilər. İçimi qorxu bürümüşdü. Düşünürdüm ki, xəstəliyim yayılmağa başlayıb. Artıq həyatdan əlimi üzmüşdüm. Sadəcə son cavabı gözləyirdim. Elə o an başa düşmüşdüm ki, ümid doğurdan da sonda ölür. Gözləyirdim. Bir qədər sonra çağırıb, 2 aylıq hamiləsən dedilər. Bunu mən nə qədər gözləmişdim. İllərlə arzuladığım ən çarəsiz vaxtımda gəldi. Bu qədər baş verənlərdən sonra, bədənimdən, parçamdan, sevgimdən məhrum olduğumu düşündüyüm anda sən demə içimdə yeni bir bədən, sevgi böyüyürmüş. Qaranlıq bir gecənin ardından günəş doğmuşdu həyatıma. Susuz səhrada göl çıxmışdı qarşıma. Həyatımın dönüş nöqtəsi idi. Həkimlər kimyaterapiya ilə hamilə qalmağın çətin olacağını deyirdi. Amma mən qərarlı idim. Əlimi yandırsa da, bu günəşin qarşısını tutmamaqda qətiyyətli idim. Həyatda möcüzələrə inanmırdım, ta ki, içimdəki sevgi özünü göstərənə qədər. Artıq daha da məsuliyyətli olmağım vacib idi. Bütün üzüntülərimdən qurtulmaq və yeni bir həyat üçün körpəm var idi. Yaşasam, onunla yaşayacaqdım. Həkimlərlə bütün danışıqlardan sonra qərar verildi ki, körpə dünyaya gəlsin. Artıq aldığım nəfəsə belə nəzarət edirdim. Çünki körpəm var idi. Mənə stimul verənim…

Doğan günəş və sevgi...

Artıq üstündən 2 il keçib. Bütün çətinliklərə rəğmən ayaqdayam. Bir şeyi başa düşdüm ki, nə olur olsun yaşamağa dəyər. Vücudun parçası getsə də, onu hansısa formada geri gətirmək mümkündür. Bunu başa düşdüm ki, bütün çətinliklər keçir. Ola bilər ki, quyunun dibində çarəsiz gözləyirik. Amma bir gün o quyuya mütləq bir ip enəcək. İnam vacibdir. Həyat insanların etdikləri pislikləri ciddiyə almayacaq qədər, onlara enerji xərcləməyəcək qədər dəyərlidir. Bunu başa düşdüm ki, necə olur-olsun, bütün bağlı qapıların açarı sevgi və inamdır. Həyatda hər şeyi başqa formada geri qaytarmaq mümkündür. Ola bilər ki, həyat yoldaşımı və bədənimin bir parçasını itirdim. Amma o, mənə bütöv halda zgeri qaytarıldı. Budur, əlindən tutub, onkologiyaya gedirəm. Bu gün muayinə vaxtımdır…

Sərvər KAMRANLI

RAHAT OLASAN

Durasan ayağa... özün-özünə,
Bir əlac qılasan, rahat olasan.
Tanrının əlindən qanı qaralmış,
Qələmin alasan, rahat olasan.

Artırıb sevincin, dəmin sayını,
Verəsən kədərin, qəmin payını.
Tapasan dərdlərin şah sarayını,
Taxtından salasan, rahat olasan.

Əzab qan ağlaya, gözünü sıxa...
Ömürdən getməyə yaman darıxa...
Kədər qız cildində qarşına çıxa,
Saçını yolasan, rahat olasan.

Yerdə gün atılır ömürdən hələ...
Göylərin adama yazığı gələ...
Asa yaxasından, yağmasan belə,
Buludtək dolasan, rahat olasan.

QOL AÇIB GÖYLƏRLƏ QUCAQLAŞASAN

Göz yumub dünyanın halına bir gün,
Özündən ayrılıb uzaqlaşasan.
İnciyib gedəsən bu yer üzündən,
Qol açıb göylərlə qucaqlaşasan.

Sevməyə ürəyin kimi, kimsəni,
Axtarıb tapmaya ta heç kim səni...
Qocalıq səpdikcə saçına dəni,
Sənsə yavaş-yavaş uşaqlaşasan.

Hardasa bir yetim uşağı görsən,
Boynunu bükülmüş, aşağı görsən...
Soyuqdan titrəyən dodağın görsən,
Girəsən qəlbinə, ocaqlaşasan.

GEDİRƏM KƏNDİMƏ UŞAQLAŞMAĞA…

Yenə də yolları geyib əynimə,
Vətəndən Vətənə səfər edirəm.
Hələlik dostlarla sağollaşmışam,
Özümdən özümə qonaq gedirəm.

Ora Vətənimin uca zirvəsi,
Orda ulduzlar da yaxındır yerə...
Orda bir qız ola səni sevəsi,
Hələ gəldiyimi yuxuda görə.

...Özümü unudub, bənzəyib yada,
Xəyalım yol alıb dərəyə, dağa.
Çəkdiyim qayğını qoyub Bakıda
Gedirəm kəndimə uşaqlaşmağa.

MƏNİM ADIM Çalğındı

- Özünü necə təqdim edərdin?

- Məhəmməd Rza Cəfəri Çalğın - 1976-cı ildə Təbrizdə doğulmuşam, Təbriz Universitetinin riyaziyyat fakultəsini bitirmişəm, 13 yaşımdan şeir yazıram.

- Necə oldu ki, ədəbiyyata gəldin?

- Uşaqlıqdan musiqini sevirdim, amma ailədə musiqini mənə qadağan etdilər. Şeir yazmağa başladım. Sonra şeiri atıb 6 il rəssamlıqla məşğul oldum və günlərin birində yenidən şeirə döndüm.

- Kimi özünə ustad sayırsan?

- Azərbaycan ədəbiyyatını sətir-sətir oxudum, aşıq şeirləri ilə tanış oldum, ilk dəfə olaraq Nüsrət Kəsəmənlini, Şahmar Əkbərzadəni Təbrizdə gördüm. Bu görüşlər yaradıcılığımda dönüş nöqtəsi oldu. Xüsusilə dil baxımından dəyişiklik yaratdı. Təbrizdə şeir məclislərində heca vəzni ilə yazdığım şeirləri oxuyurdum, yaxşı da qarşılanırdı. Sonra dünya ədəbiyyatı ilə tanış olub modern və postmodern şeirlər yazmağa başladım:

Kainatda təkrar yox:
Nə yağış həmən yağışdı,
Nə bulud həmən bulud
Nə gündüzlər təkrarlanır,
Nə gecələr...
Nə sən həmən sənsən,
Nə mən həmən mən.
Kainatda təkrar yox:
İki kəpənək bir-birinə oxşamır,
İki çiçək də...

Əllərin ardımca su səpən əllərin deyil,
Sular da sən səpən suya bənzəmir
Günlərdə də təkrar yox:
Bu gün gözlərinin maviliyini qorusam da,
Baxışların həminki baxışlar deyil.
Dünən yuxularımı küçənizdə qaçırtsam da,
Bu gün yorğanımı başıma çəkib yatıram...

- Kimləri daha çox oxuyursan?

- Türkiyədən Ənəc Batur, Cavad Çapan, ərəblərdən Nəzər Qappani, Adonis, rus ədəbiyyatından Mayakovski, Ləhistandan Şamboriska, farslardan Əhməd Şamlo, Azərbaycandan Ramiz Rövşən, Qulu Ağsəs, Şahmar Əkbərzadə, Səlim Babullaoğlu, Nüsrət Kəsəmənli,Qəşəm Nəcəfzadə və s...

- Ədəbiyyat sənin üçün nədir?

- Ədəbiyyat şeirdən illərdi ki, ayrılıb. Çünki ədəbiyyat dünyanın çağdaş elmlərini izləmək zorundadır, amma şeir yalnız hünərdir.

- Şeirin fəlsəfədən uzaqlaşmasına necə baxırsız?

- Şeir bu gün fəlsəfədən və şüardan bağlılığını kəsib, şeir dilin qulluğundadır.

- Şeirin cinsi varmı?

- Bəli, şeir əsər olaraq öz müəllifinin cinsini göstərməlidir. Biz qadın şairlərdən qadın şeiri eşitməliyik.

- 38 yaşın var, hələ də subaysan. Həyat qurmağına, bəlkə, şeir mane olur?

- Mən şeirlə evlənmişəm...

Sən evlənə bilməzsən, Çalğın,
Gözlərim soyuq cənazə idi dəniz rəngində
Saçlarım gün bozartmış asfalt,
Yanaqlarında Günəş yayılmışdı,
Dodaqlarında dalğa...
Qadınlığını unudub oturmuşdu böyrümdə,
Sağ əlində höyüşnə, sol əlində sevgi.
Üzümə dedi bu sözləri parkda alagözlü bir qız:
Sən evlənə bilməzsən, Çalğın,
Sənin atan, qaşqabağına baxarsan
qarğa rəngində,
Anan göz yaşlarının iyini verir,
Qardaşların məşərləyindən
əyilməyən manekenlər,
Masxaran bəyləridir qardaşların.
Çünki sən seçə bilməzsən dərdi baxışlarınla,
Sevgini göz yaşlarınla seçə bilməzsən;
Etirafdır sevgi...
Səni sevirəm, qızarır üfüq, buludlar kişnəyir,
Səni sevirəm, ağaclar gül açır,
Səni sevirəm, sən məni sevmirsən.
Sən evlənə bilməzsən Çalğın.

- Gənclərə nə tövsiyə edərdin?

- Təqlid və yamsılamaq şəxsiyyətin qidasıdır, gənc yazarlara sözüm odur ki, dünya ədəbiyyatını oxusunlar, amma Azərbaycan morfologiyasını və dilini unutmasınlar. Və bu dillə bu millətə layiq olan əsərlər yaratsınlar.

- Şeir nə verdi və nəyi aldı səndən?

- Şeir özünü ucaltmaq üçün məni məndən aldı və məni ucaltmaq üçün sərhədləri sındırdı.

- Sənin üçün dərd nədir?

- Mənim üçün ən böyük dərd dərdsizlikdir. Bir şeirim var, deyim:

Dərd şirin -
Xiyaban qızlarının ürəyini sərinlədən
akvariumdakı şüvərən
Dərd acı -
Halal qadınların haram qazancı,
Biranklarda Doğum evlərinə
götürülən sancı…
Dərd, yəni bacı,
Dərd
Biarti utubuslarında xanımların
oralarına uzanan əllər,
Dərd yabancı -
Iransel cənablarının
sənə bağışladığı avans…
Qara bankın qabağında papiyonlanmış şans
Qardaşını ölümə götürən eleqans…
Dərd - baş ağrıların toxtadan həbdir,
Gücün çatırsa, qorxma,
Dərd indi dəbdir.
Qonqa başında ayaqyalın qaçır dönmüş
arabanın ardınca
Qurd meydanında
üstünə qar yağmış dərdin…
Dərd - düşüncə.
Sətir-sətir oxuduğun kitablar,
Gördüklərinin yanında görmədiklərin,
Görmədiklərinin yanında gördüklərin.
Sevmədiklərinin yaninda sevdiklərindir

Dərd - yəni qürurun vitrinlərə əl açması
Gözləri anamın şəvə muncuğuna bənzəyən
qızın əzrailnən qoşulub qaçması.
Dərd – yəni mən…
Qanadından yaralanmış göyərçinəm,
elə keçmə böyrümdən.
Dərd – yəni sən.
Göy məscidin həyətindəki dərdlərin
çox suyuşirindir, giləm
Ooooooy, Təbrizim,
Dərdlərini görəndə ölürəm.

- Bu yaxınlarda Bakıya şairlər gününə dəvət olunmuşdun, hansı xatirələrlə qayıtdın?

- Bakını çox sevdim, sağ olsun, Səlim Babullaoğlunun dəvəti ilə gəlmişdim, Xəyal Rzanın təşəbbüsü ilə keçirilən Şayirlər günündə çıxış etdim, Müşfiq mükafatına laiq görüldüm, şəxsiyyətinə pərəstiş etdiyim Anar müəllimin təşəbbüsü ilə Yazıçılar Birliyinə qəbul olundum və çox qürur duydum. "525-ci qəzet"də, "Ədəbiyyat" qəzetində dərc olunan şeirlərim məni sevindirdi, "Ədalət" qəzetində Şəfiqə Şəfanın məndən götürdüyü müsahibə urəyimcə oldu. Qayıdanda özümlə, "Ulduz", "Azərbaycan", dünya dərgilərini və "Ədəbiyyat qəzeti"ndən nümunələr götürdüm. Və, doğrudan da, o tayda ədəbiyyat çox güclüdür, istedadlı gəncliyə heyran oldum. Sumqayıtda Əli Kərim adına Poeziya klubunun qonağı oldum, İbrahim İlyaslı, Sabir Yusifoğlu, Ehtiram İlham, Nadir Azayoğlu və başqalarını şeirlərini dinlədim. Gənclərdən Emin Piri və İntiqam Yaşarın şeirlərini çox sevdim. İnanıram ki, bu görüşlər, bu ünsiyyət davamlı olacaq.

- Bakıdan Təbriz necə görünür?

- Təbriz qızarır uzaqlardan:

Təbriz
Qızarır uzaqlardan
Bir gözü yaşıl,
Bir gözü dəniz
Ölümdən bir saat öncə gördüm sarışın qızı
Kölgədə, döşləri çılpaq, əlləri əlcəksiz,
Təbrizə gedir
Dostum yuxularında yol gedir gecələr
Duvarlara sığına-sığına yol gedir dostum
Polislərin gözlərindən iraq
Təbrizə gedir
Təbriz
Qızarır uzaqlardan
Bir gözü yaşıl,
Bir gözü dəniz

- Bakıya sözün?

- Ədəbiyyatı, şeiri sevən oxucalara, dostlara salam göndərirəm.

Söhbətləşdi:
Fərqanə MEHDİYEVA
Bakı- Təbriz- Bakı

DEBÜT



Qatardakı qız

(hekayə)

Şəhanə MÜŞFİQ

Bakıda yaşayan bütün dost-tanışla görüşmüş, vaxtını xoş keçirmişdi. Bu gün ona verilmiş məzuniyyətin son günü olduğundan vaxtını yaxşı dəyərləndirmək üçün dostları ilə şəhəri gəzməyə çıxmışdı. Səhər tezdən axşama qədər şəhərin "altını üstünə gətirmişdilər". Sonra dostlarından ayrılmış, hərə öz evinin yolunu tutmuşdu...

- Qapılar bağlanır, növbəti stansiya "Gənclik"...

Hər stansiya haqqında məlumat verən səs onu fikirlərdən ayırdı. Maraqla ətrafına boylandı. Birdən bu qədər yad insan arasında sanki doğma üz görmüş kimi içinə ilıq bir hiss yayıldı. Onunla üzbəüz əyləşmiş qızın mehriban baxışlarında donub qaldı. Bir andaca bayaqdan qulağını yağır eləmiş qatarın uğultusu kəsildi, insanla dolu olan vaqon boşaldı, hətta qatar dayandıqca stansiyaların adını çəkən, növbəti stansiya haqqında məlumat verən qadın da susdu, danışmağa cürət etmədi. Bu boyda dünyada bir o qaldı, bir də bu.

İyirmi iki yaşına qədər bircə dəfə sevmişdi, birinə bağlanmışdı. Hələ o vaxt on yeddi yaşı var idi. Orta məktəbin son sinfində oxuyurdu. Həmin il başqa məktəbdən gələn qıza aşiq olmuşdu. Qız onuncu sinifdə idi. Bir il müddətində qıza qəlbində gizli sevgi bəsləmişdi. Heç vaxt hisslərini açıb etiraf etməyə cəsarəti çatmamışdı. Məktəbi bitirib universitetə daxil olduğu il də bir neçə dəfə sevdiyi qızı görmək üçün gəlib - getmiş, sonra isə qızın başqası ilə nişanlandığını eşidib sevgisini əbədi ürəyində dəfn etmişdi.

Əsgərlikdə, demək olar ki, ondan başqa bütün əsgər yoldaşlarının qoyub gəldiyi, yolunu gözləyəni var idi. Demək olar ki, hər gün, hər axşam kiminsə sevgilisi, nişanlısı haqqındakı həsrət dolu söhbətlərini dinləyir, qurduğu

xəyallara şahid olurdu. Ancaq heç vaxt özü bu söhbətlərin qəhrəmanı olmazdı. Çünki onu gözləyən, həsrətini çəkən, qovuşmaq xəyalları qurduğu biri yox idi. Amma heç kimə bildirməsə də, gizli-gizli təsəvvüründə canlandırdığı bir qız xəyalında yaşayırdı.

Indi xəyallarındakı həmin sevgisini qarşısında, onu evinə aparan qatarın hansısa vaqonunda tapmışdı. Buna inanmaq o qədər çətin idi ki...

Gözlərini qızdan çəkə bilmirdi. Qız heç onu görmürmüş kimi ətrafına baxır, tez-tez də pəncərədən boylanırdı, deyəsən, hansı stansiyada olduğunu öyrənməyə çalışırdı. Qızın gözlərinin dərinliyində elə bir işıq var idi ki, oğlan o işığın təsiriylə ürəyinin əridiyini hiss edirdi.

- Neftçilər stansiyası...

Səs onu xəyallarından ayırdı. Qız ayağa qalxdı. Onun qatarı tərk etməyə hazırlaşdığını görən oğlan da ani bir qərarla qatardan endi. Qız arxasına baxmadan gedirdi. O bir yandan qızı gözündən qaçırmamağa çalışır, bir yandan da ürəyində qıza deyəcəyi cümlələri qururdu.

Nəhayət, cəsarətini toplayıb sürətini artırdı, qıza yaxınlaşıb onunla yanaşı addımlamağa başladı. Qız bunun fərqində deyilmiş kimi başını qaldırmadan yoluna davam edirdi. Bir az da beləcə yan-yana addımlayandan sonra oğlan dilləndi:

- Salam, xanım.

Qız əhvalını da pozmadan yoluna davam edirdi.

- Xanım, bağışlayın, narahat edirəm, sizə sözüm var.

Qız yenə də heç nə eşitmirmiş kimi başını yuxarı qaldırmırdı. Oğlan əlinə düşən bu fürsəti itirmək istəmirdi, necə olsa da xəyallarının sevgisi ilə qarşılaşmışdı, bunu əlindən verə bilməzdi. Ona görə də xəfifcə qızın qoluna toxunub onu yolundan saxladı:

- Xanım, nolar bircə dəqiqə mənə qulaq asın. Sizdən çox xoşum gəlib. Vallah, heç bir pis fikrim yoxdu, sizinlə ciddi şəkildə olmaq istəyirəm.

Oğlan tələsik bunları deyib dərindən nəfəs aldı. Həyəcanla çırpınan ürəyinin səsini qulaqlarında eşidirdi. Ümidlə qızın üzünə baxdı. Qız isə təəccüblə gah oğlana, gah da ətrafına baxır, heç nə demirdi. Oğlan son bir ümidlə yenidən dilləndi:

- Xahiş edirəm, etiraz etməyin, nolar mənə bir şans verin.

Qız yenə təəccüblə oğlana baxırdı. Birdən üzündə təəssüf dolu təbəssüm parladı və gözlərinin dərinliyindəki o işıq bir andaca söndü. Nəhayət, ağır-ağır əlini qaldırıb barmağıyla boğazını və qulağını göstərdi. Sonra isə başını aşağı salıb yoluna davam etdi...

Oğlan hisslərini lal-kar qıza necə başa salacağını düşünərək yolun ortasında qaldı…



Nazim ƏHMƏDLİ

BİR GÜN MƏN DƏ BULUD OLUM

bir gün mən də bulud olum,
göy üzündən baxım sənə;
sonra qaralım, bozarım,
guruldayım yağım sənə;

əllərini uzat göyə,
“Yağma, yağma” deyə-deyə;
mən də qoşulum küləyə,
toxunsun ayağım sənə;

sonra dönüm işıq olum,
baxım sənə, aşiq olum;
yaşıl bir sarmaşıq olum,
dolansın budağım sənə;

bir az saral, bir az da sol,
bir az kövrəl, bir az da dol;
sonra bir şirin bulaq ol,
qurusun dodağım sənə.

BELƏ LAL BAXIŞ OLARMI

belə lal baxış olarmı,
istədim su olub axım;
üzünü çevirmə yana,
qoy sənə doyunca baxım;

oyansın otlar, çiçəklər,
oynasın xırda böcəklər;
könlümdə həsrət çiçəklər,
gəl səni bağrıma sıxım;

mənə təntimə, acıma,
əllərini çək saçıma;
ürəyini qoy ovcuma,
qaçım bu dünyadan çıxım.

ÜZÜN-GÖZÜN NƏ ŞİRİNDİ

ağ duman dağa büründü,
həsrətin yeri göründü;
üzün- gözün nə şirindi,
dodağında çiyələk var;

odumnan, közümnən gəldim,
üzüldüm özümdən, gəldim;
qəlbi Göyüzündən gəldim,
hər çiynimdə bir mələk var;

gözlərin ala boyandı,
əllərim alışdı, yandı;
qara tellərin oyandı,
elə bil dağda külək var;

gəl, nağıl yoğurum sənə,
yazılsın axırım sənə;
yaxın gəl, toxunum sənə,
qanadlarımda lələk var;

bir az da ayrılma, dayan,
dərdlə dolub o yan, bu yan;
alnımıza yazı oyan,
aramızda bir fələk var.

BİLMƏDİM BU NƏ SƏSİYDİ

bilmədim bu nə səsiydi,
gəldi min atlı, deyəsən;
çığrışdı qara saçlarım,
qulağım batdı, deyəsən;

bu qış deyil, çillədi ki,
hər yanı ağ bələdi ki;
həsrət elə mələdi ki,
dərd özün atdı, deyəsən;

nədi, nədi dərdin adı?
gəldi hər yanı daladı;
o nə güldü, nə ağladı,
o da boyatdı, deyəsən;

dedilər ki, qaçaqaçdı,
ürəyimin rəngi qaçdı;
ruhumdan bir dua uçdu,
Allaha çatdı, deyəsən.

MƏN DAHA, DAHA DA KÖHNƏ

mən daha, daha da köhnə
mən min illərin adamı;
yazın, yazın ağaclara,
yazın daşlara adımı;

nə bilim, yoxam, bəlkə də,
yürüyüb çıxam bəlkədən;
gələm bir uzaq ölkədən,
təzələyəm boyatımı;

nə var, nə var axı burda,
çıxım gedim itən yurda;
qismət olum bir ac qurda,
bilsin ağzının dadını;

ürəyim baxır içimdən,
elə söz axır içimdən;
gəl, məni çağır içimdən,
çağır, könlümün qadını;

çağır məni öz adımnan,
çağır Doğumnan, Batımnan;
çağır məni boyatımnan,
yandırım eşqin odunu.

USTADIM SABİR DEMİŞKƏN...

Sona XƏYAL

Əhməd Anatollu Məşədi Muxtar oğlu Səfərov (1894-1973) Bakının Maştağa kəndindəndir. Atası Muxtar Bisavad öz dövründə sənətkar şair kimi tanınmışdı. Bakıda fəaliyyət göstərən "Məcməüş-şüəra" ədəbi məclisinin üzvü olmuş, əsasən lirik qəzəllər və növhələr yazmışdır. Onun evində də şeir məclisləri keçirirmiş və bu yığıncaqlarda o dövrün klassik şeirin bütün janrlarında qələmini sınamış məşhur şairləri iştirak edərmiş. Balaca Əhməd də bu yığıncaqlarda onların şeirləşmələrinə diqqət kəsilər, gizlində öz fikirlərini misralayardı. Bunu bilən Azər Buzovnalı yığıncaqların birində ona şeir oxumasını təklif edir. Onun şeiri məclis iştirakçılarının xoşuna gəlir və Əhməd bundan sonra daha çox yazmağa başlayır. Əvvəlcə lirik şeirlər yazan Əhməd, sonralar qələmini satirada sınayır və bu sahədə daha böyük uğur qazanır. "Laməzhəb" və "Naseh" təxəllüsü ilə satirik və lirik şeirlər yazır.

Özünə "Anatollu" (Anadolulu) təxəllüsünü götürür. Tərcümeyi-halından məlum olur ki, Əhməd molla yanında Quranı üzündən oxumağı öyrənmiş, ərəb-fars-türk dilində lüğət kitabından istifadə edərək oxuduqlarını anlamağa çalışmışdır. Bir il oxuduqdan sonra atası: "Kifayətdir oxudun, Quranı bilirsən, ölənlərimizə yasin oxuyarsan" demiş və onu özü ilə fəhləliyə aparmışdır.

Əhməd Anatollunun satiraları Bakıda və Tiflisdə müxtəlif mətbuat orqanlarında ("Molla Nəsrəddin", "Zənbur", "Kirpi" "Kommunist", "Kəndli", "Şərq qapısı", "Şəki fəhləsi", "Yeni fikir") çap olunmuşdur. AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əski çap kitabları bölməsində Əhməd Anatollunun 3 ərəb qrafikalı və 1 köhnə latın qrafikalı əlifbada çap olunmuş "Kupletlər" (1925), "Acı həqiqət" (1925), "Şapalaq" (1927), "Çuvalduz" (1930) adlı kitabları, şəxsi fondlar bölməsində Hüseynqulu Sarabskinin arxivində isə ərəb əlifbasında yazılmış əsərləri (fond 15, saxlanma vahidi 393) mühafizə olunur.

Əhməd Anatollu şeirlərini əruz və heca vəznlərində yazmış, müxtəlif forma və şəkillərə müraciət etmişdir. Onun hətta bəhri-təvili də vardır. Bir çox şeirləri səhnə üçün yazıldığından və çox vaxt musiqi ilə birlikdə qələmə alındığından şeir kimi oxunduqda bəzi vəzn xətalarına rast gəlinir. Bəzi şeirlər hətta meyxananı xatırladır. Bu şeirlər içərisində mövzu rəngarəngliyi diqqəti çəkir. Əhməd Anatollu cəmiyyətin hər bir sahəsində olan neqativ hallara öz tənqidi münasibətini bildirmişdir. Müəllifin gözündən heç nə yayınmamış, o hər adi bir vətəndaşın nöqsanlarından tutmuş, vəzifəli şəxslərin bütün yaramazlıqlarına kimi tənqid atəşinə tutmuşdur. Xalqı min fırıldaqla aldadan alverçi də, fırıldaq işlədib artıq pul qopardan faytonçu da, taksi sürücüsü də, daydaya ümid bağlayan tələbə də, imtahanqabağı oyunların oyunçuları da, vətəndaşları get-gələ salan süründürməçi müdirlər də, dövlət əmlakına xor baxan müxtəlif vəzifə adamları

da, Baksoyuz, Komunxoz və s. idarələrin öz cibini güdən işçiləri də onun tənqid hədəfinə çevrirmişdir. "Kislovodski" adlı şeirində yazır:

Gələndə yay zamanı, basır səni müştəri,
Gəlir səni görməyə ildə beş-on min pəri.
Burdan gedən xanımlar bir sümükdür, bir dəri,
Arıqları kökəltdin sən, ay Kislovodski.
Parij şəhrini ötdün, can, ay Kislovodski.

Bu şeirdə imkanlıların gedib Kislovodskidə kef çəkdiklərini, kasıbların Mərdəkanda, Buzovna bağlarında həsrətlə yaşadıqlarını qeyd edən müəllif, Kislovodskinin bir çoxlarını hətta çörəkvay edib yola saldığını də vurğulayır.

Əsasən möhtəkirləri, qanunsuz iş quranları tənqid atəşinə tutan Anatollunun "Qovladılar" adlı şeirinin hər bəndi bir obrazın dilindən verilmişdir:

Köhnə alverçi idim gərçi qabaq,
İndi də məxfi görürdüm işimi.
Salmış idim əlimə altı otaq,
"Yeni yol" qəzetəsi eşdi işimi.
Məni də qovladılar, qovladılar.

İl yarımdı komitə sədri idim,
Çox da incitməz idim hər gələni.
Üzvlük haqqını bir dəfə yedim,
"Vışka" qurdu mənə zorba tələni.
Məni də qovladılar, qovladılar.

Bu şeirdə şöhrət üçün firqəyə girən, sonralar üç töhmət alıb qovulan, qoltuğunda daim portfel, kənd içində ağalıq edən, sonra qovulan sədr, nahaq tənqid üstündə qovulan rüşvətxor müxbir, bütün günü sərxoş olduğu üçün qovulan işçi, hətta məktəb içrə yolunu azan, məktəbli qıza məktub yazan belə şairin tənqid hədəfinə çevrilib.

Anatollunun "Zəhər qatdı aşıma"adlı şeirində isə "Kirpi"nın müxtəlif tiplərin aşına zəhər qatdığının şahidi oluruq:

Müdir idim bir zaman, yaxşı gün keçirirdim,
Tamahkarlıq ucundan vəzifəmi itirdim.
Başqa iş axtarırdım, hər idarəyə girdim,
Bir də gördüm lapbadan "Kirpi" çıxdı qarşıma.

Burada əvvəllər çoxlu "fırıldaq işlədən işçi" iş axtarmaq üçün idarələrə ayaq basdığı zaman, idarə sədri "tənqidi xirtdəkləyib boğduğu zaman", tanış müfəttişə güvənən satıcı alıcını aldadan zaman, anbardar kolxozun malını gecə ikən oğurlamaq istəyən zaman "Kirpi"ni başı üstündə hazır görür.

Əhməd Anatollu "Qəzet yazanlar deyir" adlı satirasında yazır:

Yazmayanda yollarından azırlar,
Bir-birinə dərin quyu qazırlar.
Gündə elə qəzetlərdə yazırlar:
Bir para qulluqçu pis işlər görür.
Mən demirəm, qəzet yazanlar deyir.

Kəndlilərin işi gör nə haldadır,
Vaqonlarda başları min qaldadır.
Alverin ən yaxşısı vağzaldadır,
Hambalı, kasserləri rüşvət verir.
Mən demirəm, qəzet yazanlar deyir.

Haqq sözdən bəzi adamların incidiyini qeyd edən müəllif "Yaxşı fikir versə, görər haqq sözü" deyə insanları həqiqəti görnəyə çağırır. Otuz manat məvacib alanın gündə bir kostyum geyməsinə, rüşvətxor qulluqçuların hələ də işdən kənarlaşdırılmamasına, köhnə fikirli adamların davranışına öz tənqidi münasibətini bildirir, lakin hər dəfə bunu qəzetlərin boynuna qoyur.

Anatollunun dövlət idarələrini tənqid edən satiraları daha çox diqqəti çəkir. Ən maraqlı şeirlərdən biri "Hərəsindən bir az"dır. Burada Bakı Elektrik şəbəkəsinin, Bakqazın, ATS-in, Bakı şollar suyunun, Bakpromtorqun, Ət kombinatının, Çəkmə fabrikinin işi "tərif edilir":

Bilmirəm ki, niyə illər uzunu
BakESin söhbəti hər yanda olur.
Halbuki, daima evimizdə bizim
Şamımız hər gecə şamdanda olur.
Buna mən bir tikə nöqsan demərəm,
Demiş olsam əgər, böhtan demərəm.

Müəllif şeirin növbəti bəndlərində yaz günlərində qazın fantan etdiyini, qışda az-maz gəldiyini, telefonların ayın on beş gününü lal-dinməz olduğunu, qışda seltək axan şollar suyunun

yayda damcıladığını, qış mallarının yazda satıldığını, qəssabların qoyun ətinə cöngə əti qatdığını, çəkmələrin bir tayı kiçik, digərinin böyük olduğunu qeyd edir, hər bəndin sonunda təzad yaradaraq obrazlı şəkildə "bu nöqsan deyil, nöqsan deyilsə əgər, böhtan deyil" deyə tənqidi fikrini bildirir. Diqqətlə baxanda 80-90 il əvvəl yazılmış şeirdəki nöqsanlar elə bu gün də olduğu kimi durur...

Anatollunun rüşvətlə yaxşı qiymət alanları, rüşvətxor müəllimləri tənqid edən satiraları da diqqəti çəkir ki, bunlar da bugünkü gün üçün aktual olan bir problemə işıq salır. "İmtahandan-imtahana" şeirində:

Kirpi lələ, yuxunda da heç gətirməzsən gümana,
Bilsən əgər, nələr olur imtahandan-imtahana".

Hər kəsin öz əmoğlusu, yerlisi var, hörməti var,
Üç kərə üç neçə edər, bilməyənin qiyməti var.
Özgəsinin həqiqətən "beş" almağa cürəti var,
Təəssüf ki, bir kənarda durub baxır yana-yana.
Baxın görün nələr olur imtahandan-imtahana.

Müəllif yazır ki, məktəbdə hər şöbənin öz əlaltısı, dəllalı var. Zəng edənin sözü sorğusuz qəbul edilir. Sonda müəllifin maraqlı bir sualı var: "Deyir, düşüncəsiz adam qanmır əgər rüşvət alır, Bəs bu qanan düşüncəli niyə alır qana-qana?".

"İmtahanqabağı" adlı şeirdə isə daha maraqlı mənzərənin şahidi oluruq. Müəllif göstərir ki, may ayından başlayaraq bina fermaya dönür. "İmtahanqabağı buzov, dana, inək, toyuq, cücə, qaz, ördək bir yana, hər blokda qoyun-quzu mələyir". Şeir belə yekunlaşır:

Dəftərə "beş" yazmaq üçün kağız-qələm inciməyir,
Haqqını ver, diplomu al, qapaz da vur, söz deməyir.
İş budur ki, aldığını şəxsən özü tək yeməyir,
Müdir ilə dostcasına bölər imtahanqabağı.

Əhməd Anatollu üçün nə dövrün, nə də şəxsin fərqi yoxdur. O, çar dövrü insanlarının mənfi xüsusiyyətlərini pislədiyi kimi, müsavat dövründə yaşayanların da, sovet vətəndaşlarının da qüsur və nöqsanlarını çəkinmədən tənqid edir. Onun satiralarının böyük əksəriyyəti bu gün üçün də aktual mövzuları əks etdirir. Çünki günümüzün demokratiyanı anarxiya kimi başa düşən mənfi qəhrəmanları daha çox tənqid olunmalı tiplərdir.

Anatollunun mollaları, rövzəxanları, mərsiyəxanları və digər din xadimlərini tənqid edən əsərləri də var. İlk baxışda dinin tənqidi kimi bu görünən şeirləri dərindən oxuyub düşündükdə görürük ki, müəllifin məqsədi heç də dini dəyərləri tənqid etmək deyil, əksinə, dini dəyərlərimizi öz cibini doldurmaq xatirinə, zahirən guya təbliğ edən, əslində isə təhqir edən fırıldaqçıları ifşa etməkdir. İrandan gəlib burada mərsiyəxan olan çayçı məmişlər, insanları məhərrəmlikdə aşura günündə baş yarmağa çağıran, lakin özləri bircə dəfə də olsun baş yarmayan mollalar, dini oçaqlarda imamlar adından pul yığıb ciblərini dolduranlar, alver zamanı imamların adına and içən baqqallar, qəssablar, dini dəyərləri öz xeyri üçün ucuzlaşdıran digər tiplər Anatollunun tənqid hədəfləridir.

Əhməd Anatollu ömür boyu vicdanlı, təmiz insan kimi yaşamış, bütün həyatını səhnəyə həsr etmiş, yaramazları tənqid etmiş, insanları düz yola çağırmışdır. O, adətən tipləri öz dili ilə tənqid edirdi, bu mənada böyük Mirzə Ələkbər Sabirin yoluyla. "Mən deyən oldu" adlı satirasında "Ustadım Sabir demişkən, mən deyən oldu-olmadı" rədif misrasında da öz istiqamətini bildirir.

Əhməd Anatollunun rəngarəng yaradıcılığını bu kiçik məqaləmizdə əhatə etmək qeyri-mümkündür. Biz sadəcə bir neçə mövzuya toxunduq. Öz dövründə məşhur məzhəkə ustası kimi tanınan, Azərbaycan Musiqili Komediya teatrının yaranmasında əvəzsiz xidmətləri olan, estradamızın əsasını qoyan, xidmətlərinə görə fəxri fərmanlar, orden-medallarla təltif olunan, Azərbaycanın Əməkdar artisti adına layiq görülən, "Arşın mal alan"da Vəli, "O olmasın, bu olsun"da Hambal kimi yaddaqalan rollar yaradan Anatollu bir çox səhnəçiklərin müəllifidir. Bu səhnəciklərdə də dövrünün neqativ hallarını, yaramaz ünsürlərini tənqid atəşinə tutan müəllifin digər tənqid hədəfləri haqqında gələcək yazılarımızda söhbət açılacaq.

Zamiq MEHDİSOY

ELƏ BİL

Çəkmişəm qəmin azını,
Çoxusu gəlir elə bil.
Hər tərəfdən ayrılığın
Qoxusu gəlir elə bil.

Son ümiddən tutub bərk-bərk
Boylanıram ürkək-ürkək.
Könlümə nəsə itirmək
Qorxusu gəlir elə bil.

Aldanıb şirin xülyaya
Öldüm yaşaya-yaşaya.
Tanrı ta baxmır dünyaya,
Yuxusu gəlir elə bil.

MƏN ŞƏHİDƏM

Qanımı mürəkkəb etdim,
Vətən torpağını kağız.
Son şeirimi yazdım,
Oxudum bircə ağız:
Mən şəhidəm!

Anam məni ağlamasın,
Bacım qara bağlamasın.
Bir kimsə üzülməsin,
Yasımı saxlamasın -
Mən şəhidəm!

Şəhidlər ölmür axı,
Mənə ölü deməyin!
Qırx gün şəklimə baxıb
Ehsanımı yeməyin -
Mən şəhidəm!

Yaradanın sevimli
Qullarınnan biriyəm.
Məni sanmayın ölü,
Sizlərdən də diriyəm -
Mən şəhidəm!

Bir az sayğı göstərin,
Hörmət edin bu ada.
Məni nakam bilməyin,
Yetişmişəm murada -
Mən şəhidəm!

HƏR BAXDIĞIM YERDƏSƏN

Mən səni axtarmıram
Yollarda, küçələrdə.
Ey mənim ürəkparam,
Sən uzun gecələrdə,
Darıxdığım yerdəsən.

Yol almışam həyatın
Sevgi adlı səmtinə.
Bitməyən məhəbbətin
Düşüb labirintinə
Karıxdığım yerdəsən.

Kədərimsən bir ürək,
Sevincimsən bir qucaq.
Nə xəyalsan, nə gerçək,
Nə yaxınsan, nə uzaq,
Hər baxdığm yerdəsən.

UNUTMAĞA TAPMAYASAN HEÇ KİMİ

Unutmağa tapmayasan heç kimi,
Unudasan, unudasan özünü.
Qovub ürəyindən həsrəti, qəmi,
Ovudasan, ovudasan özünü.

Baş alasan bu dünyadan uzağa,
Düşməyəsən qar-yağışa, sazağa,
gedib çatasan bir isti qucağa,
Uyudasan, uyudasan özünü.

Ayrılığı daşıyasan birtəhər,
Dözə-dözə yaşıyasan birtəhər.
Sevdiyinin gözlərində bir səhər
Oyadasan, oyadasan özünü.

Zeynəb ƏLİQIZI

Ana-Bala oyunu

(hekayə)

- Bibi!
- Can!
- Neynirsən orda?
- Yorğan-döşəyi yığışdırıram, ağrın alım.
- Bibi, gəl ana-bala oynayaq.
- Qoy işimi qurtarım, gülüm. Oynayarıq.

***

- Bibi!
- Hə, eşidirəm.
- Yenə vaxtın yoxdu?
- Nədir ki, qızım?
- Ana-bala oynayaq…
- Qoy qabları yuyum…
- Yaxşı…

***

- Bibi.
- Yatmaq vaxtıdır, ağrın alım. Səhər yuxudan durandan sonra nə desən, oynayarıq, yaxşımı?
- Yox, onu demirəm e. Gəl ana-bala kimi yataq də, nə olar, bibi.
- Biz elə ana-balayıq də, başına dönüm. Onsuz da bir yerdə yatırıq, bir yerdə dururuq. Elə bütün günü bir yerdəyik.
- Bibi, məni qucağına al…
- Ağrın alım, axı mən yazı yazmalıyam…
- Bibi, niyə hamı yatandan sonra sən yazı yazırsan?
- Ona görə ki, hamı yatandan sonra səs salan olmur.
- Bəs hamı oyaq olanda?
- Hamı oyaq olanda səs-küy olur. Hamı oyaq olanda mənim işlərim də çox olur. Yemək bişirirəm, qabları yuyuram, ev-eşiyi təmizləyirəm, paltar yuyuram…
- Bibi…
- Hə, nədi, şeytan balam?
- Niyə mənim anam o işləri görməyib çıxıb getdi?
- Nə bilim, getdi də.
- Onsuz da o mənim anam deyildi…
- Adam elə deməz.

Bibi xeyli susdu, sonra dedi:

- O getdi ki, biz sənlə ana-bala oynayaq.

Hər ikisi güldü.

- Di yat, gecə keçir, indi bütün uşaqlar yatmış olurlar.

- Bütün uşaqlar anaları ilə yatıblar, amma sən mənim yanıma gəlmirsən…

Qızcığaz doluxsundu.

- Yaxşı, gəlirəm…

- Bəs yazı yazmayacaqsan?

- Sonra yazaram.

- Sonra? Sonra nə vaxt?

- Sən böyüyəndə.

* * *

Bibinin anasının ildönümü idi, qəbirüstü ziyarətdən qayıtmışdı. Əhvalı yaxşı deyildi. Qızcığaz oyuncaqları ilə oynayırdı, atılıb-düşürdü. Bibinin gözləri nəmli idi. Qız ona yaxınlaşdı:

- Niyə kefin yoxdu, bibi? Atan dalaşıb? (Bibisinin ərini onun atası bilirdi.)

- Nə bilim, qızım, yorulmuşam.

- Yorulmusan? Dincələndən sonra ana-bala oynayaqmı?

- Oynayaq. Nə deyirəm ki. Yaxşı, necə oynayaq, mən bilmirəm axı?

- Bax belə. Guya sən mənim anamsan. Mənə pul verib bazara göndərirsən. Mən də gedib bax, bu oyuncaqları alıram. Yaxşı?

- Yox…

- Niyə yox? – qızın təbəssümü yox oldu, gözləri iriləndi.

- Sən mənim anam olarsa?…

Qızcığaz qəhqəhə çəkdi.

- Bibi, mən boyda ana olar? Balacayam axı!

- Bəs o gün deyirdin ki, mən böyük qızam. Nə oldu, indi balacalaşdım?

- Bibi… ana sən olmalısan…

- Niyə axı?

- Çünki sən böyüksən, mən uşağam.

- Yox, sən mənim anam olmalısan.

- Niyə, bibi?

- Çünki mən sənə anamın adını qoymuşam.

Qız fikrə getdi. Sonra dedi:

- Onda gəl… ikimiz də ana olaq. Olsun belə?

- Olsun…

- Bibi, sənin anan ölüb?

- Yox, çıxıb gedib.

- Hara?

- O biri dünyaya…

- Elə mənimki də… Axı həqiqi analar niyə gedirlər e? Nə var o biri dünyada?.. Bibi, gəl ikimiz də ana olaq. Özü də həqiqi ana.

- …həm də bala…

- Bəs bir-birimizə nə deyək?

- Anam balası…

- Sağ ol, bibi! Sən nə yaxşı ki, mənimlə ana-bala oynayırsan!

Bu vaxt qapının ağzında donub durmuş, ana-bala oyununu seyr edən əmisinə gözü sataşdı.

- Əmi, biz bibimlə ana-bala oynayırıq. O mənə…

Əmi içini çəkə-çəkə ağlayırdı.

- Əmi, əmi, nə oldu sənə? Ağlama, biz səni də oyunumuza qatarıq. Bibim sənə də pul verib bazara göndərəcək. Atama da… Mən hamınızın anası olaram… Ağlama, əmi…

İntiqam YAŞAR

DEYƏRSƏN UNUTDUM

Mənim əllərimdə bir əl soyuyar,
Sənin gözlərində bir baxış sönər.
Deyərsən: unutdum, deyərəm: unutmadın.

Mən taleyin zərbələrinə tab etdikcə
Sən həyat gözəldi deyərsən... yalandan...
Deyərsən: unutdum, deyərəm: unutmadın.

Məni dünənlər qovurduqca sabahlar isladar,
Sən heç nə olmamış kimi xəlvətdə sızlayarsan,
Deyərsən: unutdum, deyərəm: unutmadın.

Hər gün səndən qalan xatirələri oxşaya-oxşaya arxanca getdiyimdə
Sənin qayıtdığını görərəm... toqquşar baxışlarımız.
Deyərsən: unutdum, deyərəm: unutmadın.

Qarşımda bir gün illər öncənin nurlu simasıyla sən dayanarsan,
Qarşında bir gün illər sonranın donuq simasıyla mən dayanaram.
Deyərsən: unutdum, deyərəm: unutmadın.

QOVDUM ÜMİDLƏRİMİ

Qovdum ümidlərimi, qovdum,
Payızdan yaza, yazdan payıza.
Ümidlər yoruldu, mən yoruldum,
Yetişə bilmədik, bilmədik o qıza.

Gözlərim olduğuna şübhəm olmasın deyə,
Sürət əsrində surət saxladım.
Qoxlayıb təsəlli tapmaq xətrinə
Evin hər küncündə həsrət saxladım.

Onu yada saldıqca özümü unutdum.
O da daxil halım hamıya gülməli gəldi.
Bəzən eşidib eşitməməzliyə vurdum,
Pıçıldadılar aralarında :''Baxın, dəli gəldi''.

O qədər də bacarıqlı deyilmişəm,
Ömrü sürə bilmədim, sürüdüm, demək olar ki.
Özümə zindan yaratdım ciddi-cəhdlə.
Yaratdığım içində də çürüdüm, demək olar ki.

Doğrudur, üsyankaram, üsyankar olmaqla bərabər,
Taleyə inananam, kimisə qınamağa da dəyməz.
Nə yaşadımsa, yaşadım, oldu, keçdi,
Yenidən cəhd eləməyə, yenidən sınamağa da dəyməz.

Qovdum ümidlərimi, qovdum,
Payızdan yaza, yazdan payıza.
Ümidlər yoruldu, mən yoruldum,
Yetişə bilmədik, bilmədik o qıza.

RAHAT OLASAN

Baş altına hansı daşı
Qoyasan, rahat olasan?!
Rahatlıqcün neçəsini
Sayasan, rahat olasan?!

Görməməkçün izlərini,
Əl dərini, üz dərini,
Özün elə öz dərini
Soyasan, rahat olasan.

Sərf edir ağlı olana,
Qismət ucuzdu alana,
Bu cür bir şirin yalana
Uyasan, rahat olasan.

Dünya arxayın özünə,
Xoş danış, baxmaz sözünə,
Hər şeyini lap üzünə
Söyəsən, rahat olasan.

MƏNƏ SUAL VERMƏ ÇOX

Mənə sual vermə çox
ayrılığın dadından.
Hələ ayrılmamışam
ayrıldığım qadından.

Elə asan gəlməsin
sənə "əlvida" sözü.
Necə dediyimi də
xatırlamıram düzü.

Təkcə sağ qolum çıxır,
soyuq alnıma yiyə.
Gecələr dörddə, beşdə
getdiyim an mürgüyə.

Pəncərə şüşələri
diş ağardır halıma.
Nə var-nə var tənhayam,
Söykənmişəm qoluma.

Budur səhər açılır,
Məktubunu aç, oxu.
Verdiyin sualların
cavabsız qaldı çoxu.

BİRCƏ MƏNİ UNUTSAN

Bircə məni unutsan,
hamını unudarsan.
Məni kim unudardı,
gülüm, nə yaxşı varsan.

Heç utanıb eləmə,
Unut cəsarət ilə.
Sıradan dərd olmasın,
Belə qiyamət elə.

Ayrılıq addımın da
özünə məxsus olsun.
Ayrıla bilməyənlər
hamısı məyus olsun.

İndi ayrılığa da
Tamarzılar sürünür.
Bu miskin əhvalından
Çox razılar sürünür.

Mən sənə inanmışam,
bir azdan gələcəksən.
Bəhanən bu olacaq,
"Ayrılsam, öləcəksən."

SƏN DARIXDIĞIN QƏDƏR

Vaqif Səmədoğlunun
xatirəsinə

Bir az daha ucaldın,
yer üzündən göy üzünə...
Kimlərin izinə düşmüşdün,
kim bilir kimlər düşəcək izinə.
Qəbrinə pıçıldayanlar olacaq,
şəklinə gileylənənlər olacaq səndən.
Hələ xısın-xısın ağlayanları demirəm uzaqdan,
Sən özün də bilmədən
azad etmişdin özünü var olan yoxluqlar kimi.
Bu olduqca darısqal aləmdə
Ayrıca bir bucaq bağışlamışdın özünə.
Mən inanmıram ki, səndən ötrü insanlar darıxa,
yüz desinlər, heç sən də inanma.
İnsanlar uzağı qırx gün darıxa bilir,
ona da darıxmaq demək olmaz.
Sənincün həmişəlik darıxacaq Xəzər,
Sən darıxdığın qədər.
Sən darıxdığın qədər.

İLHAMƏ

Quşların səsi həyəti bürümüşdü. Sərçələr bir-bİri ilə oynayır, bala sərçə işıq xəttinın üstündən tez-tez yerə düşürdü. Ana onun yanına düşür, balasına qanad çalıb yuxarı qalxmağı öyrədirdi. İlahə eyvanda oturub bu mənzərəni seyr edirdi. Əlini çənəsinə dirəyib onlara baxdıqca gülümsəyirdi. Ağacların başında başqa quşlar da oxuyurdular. Arada bir yumşaq əsən meh çiçək açmış ağacların ətrini həyətə doldururdu.

İlahə kəndə tez-tez gəlirdi. Hər il bu vaxt isə mütləq kənddə olurdu. Aprel ayında həm həyat yoldaşının ad günü idi, həm də toy günləri. İyirmi iki il Bakıda yaşamasına baxmayaraq, şəhər mühiti onu heç dəyişməmişdi.

Darvaza astadan döyüldü. İlahə nədənsə döyülən qapını qonşu qapısı hesab edib səsini çıxartmadı. Qapı yenə döyüldü. Bu dəfə hətta daşla danqıldadırdılar. İlahə zarafatla ucadan:

- Höyyy... gəl görüm kimsən? - dedi.

Qapı astaca açıldı. Yaşlı bir kişi başını qapıdan içəri uzatdı.

İlahə onu görüb irəliyə tərəf getdi.

- Kimsən? Nə lazımdır, ağsaqqal? - dedi.

Kişi həyətin ortasında dayanıb heyrətlə həyət-bacaya baxırdı. Dərindən köks ötürdü.

İlahə həyətə girən yaşlı adamın üst-başına baxdı, nimdaş geyinmişdi.

Kişi xırıltılı səslə:

- Tanımadın? - soruşdu.

Onu başdan-ayağa bir də süzüb:

- Yox! - deyə İlahə təəccüblə başını yellədi.

- Mənəm... Cəmil - boğazında qəhər düyünləndi.

İlahə qarşısındakı adamdan qorxmuş kimi başını yelləyərək geri çəkildi..

Cəmilin gözləri dolmuşdu, üzündə ağrılı bir təbəssüm var idi.

İlahə iki əliylə başını tutub "yox..yox... ola bilməz, ola bilməz" deyə-deyə ayaq üstə sayıqlayırdı.

Cəmil onun qarşısında durub astadan pıçıldadı:

- Mən qayıtdım... qayıtdım.

İlahə göz yaşlarını saxlaya bilmirdi. İllərdi onun qayıdacağına inanırdı, bilirdi ki, onun əri etibarsız deyil, onu düşmən gülləsi öldürə bilməz. Şahidlər öldüyünü desələr də, inanmırdı, öz-özünə deyirdi ki, Cəmil qayıdacaq. Əsir düşsə də, qaçmağın yolunu tapacaq. O, bu evi başsız qoymaz. İndi Cəmil qarşısındaydı və o, gözlərinə inanmırdı.

Cəmil onu bağrına basdı. İlahə ərinin qollarının arasında həsrətdən acığını çıxırdı.

Özünü itirmişdi, bilmirdi Cəmilə qulluq eləsin, yoxsa eləcə qollarının arasında qalsın.

Qorxurdu ki, Cəmil yenə gedər. Müharibə yenə Cəmili onun əlindən alar.

Otağa girdilər. Cəmil divara vurulmuş şəklinə baxırdı - əsir düşməmişdən iki gün əvvəl çəkdirmişdi. Əl atıb çərçivəyə bağlanmış qara lenti siyirib çıxartdı. Düyününü açıb yerə atdı. Arxadan onun çiyinlərini qucaqlayan İlahə pıçıltıyla:

- Bu qara lentə görə məni bağışla. Mən bilirdim ki, sən ölməmisən. Amma...

Cəmil çevrilib İlahənin saçlarından öpdü.

- Bilirəm... bilirəm...

- Şükür sənə, İlahi, Cəmilim qayıtdı. Sən orda, o xarabada, əsirlikdə qalanların da qapısını aç.

- İlahə, gələndə kəndin başında bir çayxanaya girdim. Bir az oturdum orda. Heç kim məni tanımadı. Mən gedəndə cavanların çoxu dünyaya gəlməmişdi. İndi əməlli-başlı kişidilər.

- Cəmil heç uşağımızı soruşmursan?

- Onun atası da, anası da sənsən. Mənim haqqım yoxdu,..

- Elə demə, o, bizim oğlumuzdu. Sən gedəndə mən...

- Bilirəm, iki aylıq hamiləydin. Oğlumuz olub. Ucaboy, enlikürək, bir az da cavanlığıma oxşayır. Çayxanada gördüm.

- Üç nəvən var, onu da bilirsənmi?

- Onu da öyrənmişəm... Özüylə danışdım. Amma "atanam" deyə bilmədim. Oğlum atasının qəhrəmancasına şəhid olduğunu bilir. Dedim, qoy elə də bilsin. – Cəmil məmnun halda dedi. Sonra İlahənin alnından öpdü - Getməliyəm.

- Hara?

- Gəldiyim yerə... Axı müharibə hələ bitməyib.

- Yox! Yox! Qoymaram. – İlahə onun qucaqlayıb qollarını Cəmilin belinə dolamışdı, başını sinəsinə sıxmışdı.

- Getməliyəm.

- Axı sən qayıtmısan, Cəmil!

- Gəlmişdim deyəm ki, sağam... sağ-salamat...

Cəmil darvazadan çıxanda İlahə hələ otağın küncünə sıxılıb dizlərini qucaqlayaraq "Cəmil, qayıt! Yalvarıram, qayıt. Getmə! Getmə..." deyib hönkür-hönkür ağlayır, başını qaldırıb divardakı şəklə, çərçivəyə bağlanmış qara lentə baxırdı. Cəmil gedəndə lent çərcivəyə qayıtmışdı və yenə düyünlənmişdi. İlahə birdən durub çərçivədəki qara lenti dartaraq qopardıb atdı.

Darvaza astadan döyülürdü...

Oğlum, razı deyildim ki, yazı-pozu ilə məşğul olasan. Əzablı, enişli-yoxuşlu bu yolda ürəyinin ağrımasına qıymaq istəmirdim. Bu yolda qələbə olmur. Uzaqdadı bu yolun əvvəli. Düşmənlərin çox olacaq, mənim balam, hər dəqiqə, hər an səni sıxacaqlar. Halalca haqqını alacaqlar əlindən. Zaman insafsız, həqiqətsə uzaqda... Bəlkə mən də həyatda yox...

Atan kimi cibində validol gəzdirəcəksən. Bir nadanın yanında dizlərin titrəyəcək, əllərin əsəcək. Sağ olsaydım, titrəyən dizinə qurban olardım, heç olmasa, etibarlı dostun olardım. Ona görə istəmirdim şeir yazasan. Amma görəndə ki, sən gözünün ucuyla əşyadan və ya əşyanın ifadə etdiyi mənadan əl çəkə bilmirsən, bax, onda "yaz" dedim. Yazdın da... bir...iki... üç... sonra kitabın çıxdı, "Çatlamış fincan", özün demiş,çatlamış həyat və ya dodaq, ya pəncərə şüşəsi, ya da çatlamış şeirlər. Niyə belə adlar qoydun şeirlərinə? Sonra romanların "Çöl", "Pozğun" və "Səkkizinci gün"...

Sən ki həyatımı əzbər bilirsən. Yadındadı, balaca vaxtı qoymurdun məni şeir yazmağa. Bir misra yazan kimi elə möhkəm qışqırırdın ki, əlimdən qələm düşürdü stolun altına. Elə bil mənə deyirdin ki, şair olma, ata ol... Tez südü qızdırıb şüşəyə tökürdüm, anan əmziklə verirdi sənə. Elə bilirdim, işlər düzəldi. Amma yenə ağlamaq, gecə konserti, dinləyici iki nəfər, anan və mən. Səni qucağıma alıb həyətdə gəzdirirdim, qucağımda yuxu tuturdu səni. Ay işığı üzündə dolaşırdı, onda da mən ağlamaq istəyirdim. Deyirdim ki, görəsən səni boya-başa çatdıra biləcəyəmmi? Bəzən elə olurdu ki, səni sinəmin üstündə yatırdırdım. Bunu ən çox sən istəyirdin. Onda ürəklərimiz daha çox yaxınlaşırdı bir-birinə. Bir dəfə qızdırman qalxmışdı, düz qırx. Elə ağlayırdım ki, qonşu arvadları məni güclə kiritdilər. İstəyirdim sən qığıldayasan, at olurdum, keçi olurdum, sənin kimi iməkləyirdim ki, bəlkə qığıldayasan, bəlkə qızdırmadan qaysaqlanmış dodaqlarının qan-qırmızılığı açıla. Sənin üçün nə eləmədim ki... it kimi hürürdüm, pişik kimi miyoldayırdım, qoyun kimi mələyirdim. Təki bircə dəfə güləsən deyə...

Sən artıq iməkləyirdin. Ürək kardioqramlarımı, dərman reseptlərimi uc-uca bağlayıb evdə "maşın" sürürdün. Cibimdəki dərmanları töküb "ev" tikirdin. Yenə məni qoymurdun şeir yazmağa... Özü də əllərinlə dağıdırdın hər şeyi. Əvvəl əllərini döşəyirdin vərəqlərin üstünə. Mən sənin barmaqlarının arasından misraları güclə yazırdım kağıza. Gördün yox, alınmadı, vərəqlərimi cırıq-cırıq eləyirdin, harada otururdum iməkləyib çatırdın mənə. Ağ kağızları boğub pişik kimi çığırırdın.

Bir dəfə nə elədim? Birdən-birə ağlıma gəldi bu. Səni aparıb otağın o biri küncünə qoydum. Özümsə keçirdim iş başına. Sən iməkləyib mənə çatana kimi iki misra yazırdım. Elə sürətlə iməkləyirdin ki, iki misra ancaq yazmaq olurdu. Səni qucağıma alıb yenə həmin küncə qoyub qayıdırdım "iş yerimə". Sən gələnə kimi yenə iki misra... Axırda gör neylədim? Səni otağın başqa bir küncünə aparıb, nənənin güllü yaylığının bir ucunu toppuş ayağına, bir ucunu isə şifonerin ayağına bağladım. Gəlib yazmağa başladım. Əvvəlçə çox dartındın. Sonra həm öz ayağına, həm də şifonerin ayağına bir xeyli tamaşa elədin. Qayıdıb mənə baxdın, sanki birdən-birə mənə əziyyət verdiyinə inandığını hiss elədin, ürəyim şan-şan oldu. Gəlib ayağını açdım ki, di gəl, cır

kağızları. Gəlmədin, yaylığı götürüb ağladın ki, tez ol ayağımı ora bağla. Deyəsən, xoşuna gəlmişdi. Sonralar da hey ağlayırdın ki, tez olun mənim ayağımı şifonerin ayağına bağlayın, yaylığı da əlində hazır tuturdun. Sən öz istəyinlə ayağını şifonerin qıçına bağladıb saatlarla öz yerində qığıldayırdın.

Bir vaxt sənin üçün bir dəftər də ayırmışdım. Dilindən çıxan ilk sözləri və əşyalara qoyduğun adları ora köçürürdüm. Sən suya "düvə", qəndə "qaqqa", ayaqqabıya "ayçi", mənə "ava", avtobusa "aqqouz", Quluya "lulu", Sevdaya "deda", bəbəyə "ənnə", gözə "qoz" deyirdin. Bəlkə də bunlar sənin ilk şeirin idi. Sözə qədərki anlaşılmaz səsin idi, mənim balam.

Bir dəfə barmağın sobada yanmışdı. Yəqin, yoxlamaq istəmişdin ki, görəsən bu nədi? Əlini dönə-dönə sarıtdırdın. Ağlayıb özünü öldürürdün. Anan az qala balaca barmağını yorğanla sarısın. Bunu sən istəyirdin. Bəlkə də elə bilirdin ki, barmağını isti yox, soyuq yandırıb. Nənə yanan barmağına soyuq qatıq sürtdü. Həmişə yediyin qatığı barmağına bulaşmış görəndə daha da qışqırmağa başladın. Axırda əllərinin qatığını yuyub, suluqlamış barmağından öpdüm, sənin dilinlə desəm, "moç" elədim. O saat barmağın sağaldı. Bəlkə də mənə inandığın üçün sağaldı. Yaran sağalandan sonra da tez-tez barmağını mənə öpdürərdin. Guya öpməsəydim, barmağını ağrı tutacaqdı. Bir dəfə nə oldu? Guya yanmasın deyə əllərini arxanda gizlədərək (görünür, sən bir az ağıllanmışdın) dodaqlarını isti qazana yaxınlaşdırıb yeməkdən xəbərdar olmaq istədin. Bu dəfə də dodaqların yandı. Şübhəsiz ki, mənim öpməyimlə tezliklə sağaldı. Nənən sənə pendir yedirdəndə dodaqların göynədi, elə bildin ki, pendir də dodaq yandırır. Odu, budu o vaxtdan bəri dilinə pendir vurmursan. Dodaqların yanandan sonra bizə ocağı göstərib həmişə deyərdin: "cızza". Sanki bizə başa salmaq istəyirdin ki, əl vurmayın, əlinizi yandırar.

Bir dəfə çox maraqlı bir hadisə baş verdi. Biz rayona köçmüşdük. 3 yaşın tamam olmasına baxmayaraq, hələ də soska əmirdin. Tez-tez də itirirdin. Axırda anan soska düşüb itməsin deyə, ucuna sap bağlayıb sancaqla paltarının yaxasına bərkitdi. Bir gün fermaya, babanın yanına, Şirinqum qışlağına getdik. Sən qonşunun özün yaşda olan oğlu ilə alaçığın böyründə oynayırdın. Birdən nə görsəm yaxşıdı? Sən qonşunun uşağı ilə o qədər yaxın dayanmışdın (sonralar bildim ki, bunu soskanın sapının gödəkliyi tələb edirmiş)... kənarda yalnız iki baş görünürdü. İşə bax, sən yaxandakı soskanı qonşunun oğlunun ağzına taxmışdın və özün də onun əlindəki peçenyeləri iştahla yeyirdin. O da sənin soskanı elə tələsik əmirdi ki...Elə bil bu saat əlindən alacaqlar. O, ferma uşağı idi. Soskanı ilk dəfə idi ki, ləzzətlə dadırdı. Bu "şəhər yeməyi"ndən tezliklə doymaq istəyirdi. Sən də... Maşallah... Qohum-əqrəbanı çağırdım ki, bu maraqlı mənzərəni seyr eləsinlər. Xeyli bu səhnəyə güldük. Eləcə fotoaparatla şəklinizi çəkdim. Mən insan balasının yaşamaq uğrunda mübarizəsinin ibtidai formasını görürdüm...

Gözümün qabağındaca beləcə sürətlə böyüdün. Orta məktəbi bitirib Bakı Dövlət Universitetinə daxil oldun. Tarixdən dörd test kitabın nəşr olundu. Redaktoru da akademik Nizamı Cəfərov idi. Sonra da şeirlərin... ilk şeir kitabın... romanların, müsahibələrin, köşələrin... Universitetin nəzdində "Metofora" dərnəyini yaratdın... Poeziya gecələri, şairlərlə görüşlər təşkil elədin... "Ulduz" jurnalının Gənc Ədiblər Məktəbinə həsr edilmiş buraxılışının redaktoru oldun... Müasir yazıçılarla əlaqələrin, internetdə fəallığın, şair və yazıçılarla təşkil etdiyin görüşlər, yazdığın şeirlər, "O,", "Deputatın qabağında çox əzilib-büzülürəm" və başqa hekayələrin müasir ədəbi prosesin diqqətindən, yaxşı ki, yayınmadı. Səni sevdilər. Dostların mənimkindən çox oldu. Sənin dostların mənim dostlarımdan vəfalı çıxdılar.

Hə, mənim balam, sən yenə mənim üçün körpəsən. Balaca ayaqların (42 ölçülü), balaca boyun (178sm) yenə də mənim gözlərimdə kövrəkdi. Qucağıma götürəcək qədər balacadı.

Bir dəfə bir şeirimdə yazmışdım ki, harda şeirlərim qafiyəsizdi, uşaqların üstünü örtmüşəm onda. İndi bu sətirləri yazarkən sən o biri otaqda mışıl-mışıl yatırsan. Kürəyin açıq... üstünü örtüb gəlirəm indi. Bu yazını səhər tezdən oxuyacaqsan, oxu, amma bu dediklərimi yadında saxla.

Dönər yemə. Mədən ağrıyar, ən çox sulu yeməklər ye. Bir də balaca vaxtı öpdüyüm barmağını unutma. Bir üzük yeri var orda. Sən də öz balanın həmin barmağından öpərsən, yaxşımı?

Qəşəm NƏCƏFZADƏ

ƏDƏBİYYAT ÜZRƏ NOBEL MÜKAFATI LAUREATLARI

"Ulduz" jurnalı ilə ayb.az saytının birgə layihəsi İlham Abbasovun təqdimatında

Uilyam YEYTS.
MÜKAFATI BAŞQALARI İLƏ BÖLMƏYƏ HAZIR OLAN LAUREAT

Nobel Mükafatları Komitəsinin qərarı ilə 1923-cü ildə ədəbiyyat üzrə iyirmi üçüncü Nobel mükafatı ingilis dilində yazan irland şairi və dramaturqu Uilyam Yeytsə verildi. İsveç Akademiyasının təqdimatında öz ölkəsində kifayət qədər məşhur olsa da, dünyada o qədər də tanınmayan yazıçının bu mükafata "milli ruhu yüksək bədii formada əks etdirən ilhamlı poetik yaradıcılığına görə" layiq görüldüyü qeyd olunsa da, hamıya aydın idi ki, ali ədəbiyyat mükafatı bu dəfə müəllifin özündən çox onun ölkəsinə verilib. Avropa tarixində o qədər də önəmli rol oynamayan İrlandiyanın belə bir fövqəladə şərəfə layiq görülməsi nə ilə bağlı idi?

Britaniyaya yalnız V əsrin ortalarında – Avropada hunların hücumları nəticəsində baş verən "xalqların böyük köçü" zamanı gələrək buranı zəbt etmiş anqlo-sakslardan (ingilis və şotlandların babalarından) fərqli olaraq, irlandların ulu əcdadları olan kelt tayfaları bu torpaqların yerli sakinləri idilər. Əvvəlcə yalnız Böyük Britaniya adasını ələ keçirmiş gəlmələr XII əsrdə kelt torpaqlarının özəyi sayılan İrlandiya adasını da işğal edərək irland lordluğu statusunda öz krallıqlarına birləşdirdilər. Bundan dərhal sonra baş verən böyük taun epidemiyası az qala irlandların kökünü kəsəcəkdi... Ancaq heç nəyə, heç bir məşəqqətə baxmadan əsrlər boyu azadlıqsevər irland xalqı əsarətlə barışmır və ingilis asılılığından xilas olmaq uğrunda mübarizə aparır. Zaman-zaman bu mübarizələr uğursuzluqla nəticələnsə də, bu, irlandları azadlıq istəyindən və mübarizə əzmindən döndərə bilmir.

XVI əsrdə xristianlıqda islahatlar keçirilməsi və xristian dünyasının orta əsrlər zülmətindən qurtularaq tərəqqi yoluna çıxması ilə nəticələnən Reformasiyanın gedişində ingilislər yeni məzhəbə - protestantlığa (lüteranlığın anqlikan qoluna) keçsələr də, irlandlar köhnə məzhəbdən dönmədilər, katolik olaraq qaldılar və bu amil iki etnos arasındakı ziddiyyətləri daha da gücləndirdi. (Qeyd edək ki, ingilislərlə irlandlar arasında dini zəmində qarşıdurma zaman-zaman məzmununu dəyişsə də, faktiki olaraq bu günəcən davam edir.)

XVII əsrdə İngiltərə Burjua İnqilabı və Vətəndaş müharibəsi dövründə İrlandiya qısa müddətə müstəqillik qazanır, lakin 1649-cu ildə inqilab rəhbəri Oliver Kromvel İrlandiyanı yenidən işğal edir və əhalinin təxminən yarısını məhv edərək onların yerinə ingilis və şotlandları köçürür. Həmin dövrdən irland dilinin ünsiyyət vasitəsi kimi ingilis dili tərəfindən sıxışdırılması başlayır və şəhər əhalisinin, təhsilli adamların xeyli qismi ana dilini unudur.

1801-ci ildə İrlandiya rəsmi şəkildə Birləşmiş Krallığın tərkibinə daxil edilir. XIX əsrin ortalarında keçirilən aqrar islahatdan sonra İrlandiyada baş verən böyük aclıq nəticəsində yenə də əhalinin xeyli hissəsi tələf olur. Bu

hadisədən vahiməyə düşən irlandların bir qismi vətəni tərk edərək mühacirətə (əsasən ABŞ-a) getməyə məcbur olur. Əsrin ikinci yarısında İrlandiyada milli azadlıq hərəkatı baş qaldırır, əsrin sonuna doğru mübarizə daha da şiddətlənir. Elə həmin dövrdən gələcək Nobel mükafatçısının da fəal iştirakçısına çevrildiyi azadlıq mübarizəsi ildən-ilə güclənərək son məqsədə qədər davam edir və 1919-cu ildə İrlandiya öz müstəqilliyini elan edir. 1921-ci ildə Böyük Britaniya ilə İrlandiya arasında bağlanmış sülh müqaviləsinə əsasən, ölkə parçalanır, İrlandiyanın cənub hissəsinin müstəqilliyi rəsmiləşir, Şimali İrlandiya isə Birləşmiş Krallığın tərkibində qalır.

U.Yeytsin 1923-cü ildə təltif edildiyi Nobel mükafatı Qərbi Abropanın müstəqilliyini yenicə qazanmış ən gənc dövlətinə verilmiş mənəvi dəstək, "bayram hədiyyəsi" kimi qiymətləndirilir. Yaradıcılığının mükafata qədərki mərhələsində böyük sənət uğurları və şan-şöhrət qazanmış bir çox sənətkarların Nobel mükafatından sonra yaradıcılıq böhranı ilə üzləşməsi, əvvəlki sənət vüsətini saxlaya bilməməsi dəfələrlə rast gəlinən bir haldır. Amma U.Yeyts, bəlkə də, yeganə müəllif idi ki, mükafatdan ruhlanaraq sonrakı yaradıcılığında əvvəlki ilə müqayisədə həm ideya və məzmun, həm də bədii ifadə və üslub yetkinliyi baxımından daha mükəmməl nəticələr qazanmış, daha böyük şöhrətə çatmışdı. Mükafata layiq görülərkən bir çoxları onun laureatlığına skeptik yanaşırdısa, sonrakı illərdə əksəriyyət U.Yeytsi ingiliscə yazan digər şairlər üçün örnək sayırdı. Məsələn, gələcəyin digər bir Nobel mükafatçısı Tomas Eliot onu "zəmanəmizin ən böyük şairi" adlandıranda heç kəs bu fikri ədalətsiz hesab etməmişdi.

Uilyam Batler Yeyts 15 iyun 1865-ci ildə İrlandiyanın paytaxtı Dublinin yaxınlığındakı Sendimaunt şəhərciyində doğulmuşdu. Onun ata babası dənizçi, ana babası isə ticarətçi olmuşdu. Uilyam dörduşaqlı ailənin böyük övladı idi. Onun iki bacısı və bir qardaşı vardı. Ailənin başçısı Con Yeyts ixtisasca hüquqçu idi. Hamı onu savadlı və bacarıqlı vəkil sayır, gələcək karyerasının uğurlu olacağına inanırdı. Ancaq onun qəlbində başqa bir istək baş qaldırmışdı: Billin iki yaşı olanda atası vəkillik işini ataraq rəssamlıq təhsili almaq məqsədilə ailəsi ilə birlikdə Londona köçdü. Londonda onların ailəsi əsasən incəsənət adamlarının məskunlaşdığı Bekford-Park məhəlləsində yaşayırdı. Buranın mənəvi atmosferi Uilyamın ürəyincə olsa da, vətəni üçün çox darıxır, bütün tətil günlərini İrlandiyada – nənə-babasının yanında keçirirdi. Peşəkar rəssamlıq təhsili alandan sonra Con Yeyts ölkəsində portret ustası kimi məşhurlaşdı. Onun çoxsaylı əsərləri sırasında gələcək şairin bir neçə uşaqlıq portreti də var. Uilyamın kiçik qardaşı Cek də atasının yolu ilə gedərək İrlandiyanın tanınmış rəssamı oldu. Sonralar Amerikaya köçmüş və ABŞ vətəndaşlığını qəbul etmiş C.Yeyts istedadlı portret ustası kimi tanınsa da, heç zaman azad yaradıcılıq istəklərini zəngin müştərilərin sifarişlərinə qurban vermədi. Dostlarından birinə göndərdiyi məktubda o yazırdı: "Yalnız indi – azad sənətkar olandan sonra özümü əsl insan kimi hiss etməyə başlamışam. Bundan əvvəl isə sanki sirli bir mexanizmin cansız və ruhsuz bir vintciyi idim."

Atasının xarakterindən, dünyagörüşündən bir insan və sənətkar kimi özü üçün çox şey əxz etmiş Uilyam ona yazdığı bir məktubda bunu xüsusi vurğulayırdı: "Yalnız bəzi xırda detalları istisna etmək şərtilə, mən, demək olar ki, bütün həyat fəlsəfəmi bir vərəsə kimi səndən almışam." Gələcək Nobel mükafatçısı ilk təhsilini Londonda aldıqdan sonra ailələri 1880-ci ildə vətənə qayıdaraq Dublində yaşamağa başlayır. Orta təhsilini başa vuran Uilyam ailənin qərarı ilə rəssamlıq məktəbinə daxil olur. Gəncin rəssamlıq qabiliyyəti olsa da, vəkilliyi atıb rəssamlığı seçən atası kimi, onun da qəlbində başqa istək hökm sürürdü. Rəssamlıq məktəbinin tələbəsi gənc və perspektivli şair kimi tanınmağa başlayır. Onun ilk qələm təcrübələrini yüksək qiymətləndirənlər sırasında o zamankı İrlandiyanın ən məşhur yazıçısı Oskar Uayld da vardı. Hələ yeniyetmə yaşlarından əsas məşğuliyyəti klassik ədəbiyyatı oxumaq olan, Şekspirin, demək olar, bütün əsərlərini əzbər bilən Uilyam oxuduğu əsərləri atası ilə müzakirə etməyi sevirdi. Müzakirələrin predmeti isə əsərlərin məzmunundan daha çox poetik dil və üslub məsələləri olurdu. Bu gənclik həvəsi gələcəkdə U.Yeytsin poeziyasında məhz həmin cəhətlərin dominant rol oynamasına həlledici təsir göstərdi.

U.Yeyts hələ gənc yaşlarından bədii yaradıcılıqla yanaşı, mistisizmə və magiyaya da

ciddi maraq göstərməyə başlamış, bu bağlılığı bütün ömrü boyu qoruyub saxlamışdı. Atası gənc Uilyamın ədəbi yaradıcılıq həvəsinə rəğbətlə yanaşsa da, onun mistika və okkultizmə meylini şarlatanlıq sayır, neqativ münasibət bəsləyirdi.

U.Yeytsin 1885-ci ildə çap olunmuş ilk mətbu şeirlərində paralel olaraq həm irland folklorunun, həm də mistisizmin təsiri duyulurdu. Elə həmin il gənc şair İrlandiyanın müstəqilliyi uğrunda mübarizə aparan gizli təşkilatın rəhbərlərindən biri olan Con O'Liri ilə tanış olur. Yeni tanışının təsiri ilə U.Yeytsin poeziyasında vətənpərvərlik mövzusu və qədim irland – kelt mədəniyyəti motivləri güclənməyə başlayır. Gənc şair 1887-ci ildən Londonda yaşamağa başlayır və yaradıcılığının bu mərhələsində, "Oyseynin səyahəti"(1889) adlı ilk şeir kitabında və "Qrafinya Ketlin"(1892) adlı ilk dram əsərində qədim kelt dünyagörüşünə daha çox bağlanan şair mifoloji arxetiplər vasitəsilə nəsillər arasındakı qırılmaz əlaqələri ifadə etməyə can atır, bununla da milli ruhun ölməzliyini nümayiş etdirirdi. Pyesin qəhrəmanı, irland əsilzadəsi xanım Ketlin ac kəndliləri olümdən xilas etmək üçün ruhunu iblisə satmağa razı olur. Avropa ədəbiyyatının klassik ənənələrindən yaxşı tanış olan bu motiv U.Yeytsə vətənin azadlığı naminə hər şeydən keçməyin mümkünlüyü ideyasını təlqin etmək üçün lazım olmuşdu.

1989-cu ildə gənc yazıçının ilk kitabı nəşr olunmaqla yanaşı, onun həyatında bütün sonrakı ömrünün gedişatını müəyyən edən daha bir mühüm hadisə baş verdi. Həmin il yanvarın 30-da o, həyatının ilk, bəlkə də, yeganə böyük sevgisi olan aktrisa Mod Honn ilə tanış oldu. Təbiətən adamayovuşmaz və utancaq olan, Mod ilə tanışlığa qədər bütün ilk gənclik illərini qapalı həyat tərzi şəraitində keçirən Uilyam bu tanışlıq sayəsində 23 yaşında sanki dünyaya yenidən gəldi. Adətən, yaradıcı adamlar ictimai fəaliyyətlə sevimli qadın arasında seçim etmək məcburiyyəti qarşısında qalırlar. U.Yeytsin həyatında isə hər şey tamam fərqli şəkildə baş verdi – məhz sevimli qadın onu aktiv ictimai fəaliyyətə sövq etdi. Özü milliyyətcə irland olmasa da, "İrlandiyanın Janna d'Arkı" roluna iddialı olan Mod Honn Dublinin ən gözəl xanımı sayılmaqla bərabər, həm də irland milli-azadlıq hərəkatının nüfuzlu liderlərindən biri idi. O, gənc şairi eyni zamanda həm sevgi intriqasına, həm də vətənpərvərlik fəaliyyətinə cəlb etdi. Britaniya kralının İrlandiyanı idarə edən canişininin yaxın əyanlarından birinin qızı olan təmiz ingilis qanlı bu kübar xanım taleyin anlaşılmaz hökmü ilə irlandların Britaniyaya qarşı milli-azadlıq hərəkatının ən mübariz liderlərindən birinə çevrilmişdi. Şəxsi həyatını da bu mübarizəyə qurban vemiş xanım Honn U.Yeytsin israrlı təkidlərinə və aralarındakı sevgi duyğularına baxmayaraq, onun ailə qurmaq təklifini qəbul etmirdi.

Mod Honna bəslədiyi sevgi hissi gəncin həyatına xilasedici bir qüvvə kimi nüfuz edərək onun yalnız ictimai fəaliyyətinə deyil, həm də ədəbi yaradıcılığına bir aktivlik, çeviklik gətirdi. Həyatının bu mərhələsində onun yaradıcılığında lirika ilə paralel olaraq, əvvəlcə esselər, sonra isə hekayələr də meydana gəlməyə başlayır. 1891-ci ildə yenicə yaradılmış "Qafiyəçilər klubu"na üzv olması U.Yeytsin poetik yaradıcılığında yeni

mərhələnin başlanmasına təkan verir. Oskar Uayld və Obri Berdsley kimi tanınmış şairlərin rəhbərliyi ilə bu kluba toplaşan Layonel Conson, Ernest Dayson, Artur Simons kimi istedadlı gənclər peşəkarlıq yolunda getdikcə daha inamlı addımlar atmağa başlayırdılar. U.Yeytsin 90-cı illərdə yazdığı ən yaxşı poeziya nümunələri bu klubun nəşr etdirdiyi almanaxlarda və "Lirik şeirlər"(1895), "Arzulanan torpaq"(1894) "Şeirlər"(1895), "Poemalar"(1895), "Qamışlıqda əsən yellər"(1899), "Kölgəli sular"(1900), "Yeddi meşə"(1903) kitablarında dərc olunmuşdu. Onun bu dövrdəki poeziyasında məhəbbət lirikası aparıcı rol oynayır. Elə həmin illərdə U.Yeytsin bir neçə nəsr və araşdırma kitabı – "Arzulanan torpaq"(1894), "Kelt toranlıqları"(1893), "Gizli qızılgül"(1897 - irland xalq nağılları və onlara aid tədqiqatlar), "Tanrının və İblisin ideyaları"(1903 – magiya və mistisizm mövzusunda mühakimələr), "Bolonya meşəsində"(1903 – irland eposu mövzusunda şeirlər və araşdırmalar) nəşr olunmuşdu. Bu kitablarda isə, lirikadan fərqli olaraq, daha çox müəllifin ictimai mövqeyi öz ifadəsini tapırdı.

1896-cı il iyunun 21- də baş vermiş bir görüş U.Yeytsin bioqrafiyasında yeni mərhələnin başlanğıcını qoyur. Həmin gün şair Edvard Martinin malikanəsində o, gənc şair həmkarı Con Millinqton Sinq və irland kübar dairələrinin çox nüfuzlu bir nümayəndəsi qrafinya Avqusta Qreqori ilə tanış olur. Bu üç görkəmli vətənpərvər ziyalının həmin gün başlanan məslək dostluğu yekunda İrlandiya mədəniyyəti tarixində mühüm bir hadisə — 1906-cı ildə İrland Milli Ədəbi Teatrının yaradılması ilə nəticələnir. Tezliklə teatr yalnız irland mədəni həyatının deyil, ümumən İrlandiya milli azadlıq mübarizəsinin ideya mərkəzinə çevrilir. O vaxtacan artıq iki dram əsəri – "Qrafinya Ketlin"(1892) və "Xoşbəxtlik diyarı"(1894) mənzum pyesləri tamaşaya qoyulmuş U.Yeyts yeni teatrın direktoru seçilir. Yeni teatrın yaranması onun yaradıcılığında dramaturgiyanın ön plana çıxmasına təkan verir. Bundan sonra onun adı ən görkəmli irland yazıçıları O.Uayld, C.Coys və E.Paundla yanaşı çəkilməyə başlayır.

Ledi Qreqori kimi çox ağıllı və sədaqətli, zəngin və səxavətli bir dostun onun həyatında peyda olması şairin taleyində şox önəmli rol oynayır. Bu xanımın himayədarlığı sayəsində yazıçı üzləşdiyi maddi sıxıntılardan xilas olur, yaradıcılıq üçün yeni mənəvi stimul qazanır. Ledi onun ailə qurub xoşbəxtliyə qovuşması üçün də kömək və qayğısını əsirgəmir. Lakin bu kübar xanımın onun şəxsi həyatını da nizama salmaq arzusu baş tutmur. 1903-cü ildə şairin çoxillik istəklisi Mod Honnun Britaniya ordusunun polkovniki ilə ailə qurması şairin ömrünün bu nakam və romantik səhifəsinin qapanması ilə nəticələnir. Bu acı xəbəri Mod 14 il sürən sevgi romanları müddətində ona göndərdiyi 300-cü məktubunda bildirmişdi. İndi muzeydə qorunan bu məktubların hamısını şair sevə-sevə əzizləyərək saxlamışdı. Həmin hadisədən sonra səhhətinin tamam pozulduğu, psixoloji depressiya, mənəvi ruh düşkünlüyü ilə üzləşdiyi bir məqamda da U.Yeytsə məhz xanım Avqusta dayaq olur.

U.Yeyts ilə C. Sinqin yenə də qrafinya Avqusta Qreqorinin maddi və mənəvi dəstəyi ilə yaratdıqları teatr həqiqətən milli ruhlu ilk irland teatrı olmaqla bərabər, həm də yenilikçi bir sənət oçağı idi. Teatrın yaradıcılıq işinə tanınmış ingilis rejissoru Qopdon Kreq rəhbərlik edirdi. İrland cəmiyyətinin qabaqcıl nümayəndələri, vətənpərvər ruhlu ziyalılar və sıravi vətəndaşlar teatrın yaşamasına, xalq kütlələrinin vətənpərvərlik və milli azadlıq ideyaları zəminində tərbiyəsi üçün əvəzsiz fəaliyyətini davam etdirməsinə əllərindən gələn köməyi əsirgəmirdilər. Teatra ən çox şöhrət qazandıran səhnə əsəri U.Yeytsin "Qum saatları" pyesi əsasında hazırlanmış tamaşa olmuşdu. Teatr tezliklə Dublinin əsas mədəniyyət mərkəzlərindən birinə çevrilsə də, U.Yeyts bundan tam məmnun deyildi, çünki o, öz sənəti və yaradıcılıq fəaliyyəti qarşısına, sadəcə olaraq, mədəni uğurlar qazanmaq yox, xalqının və vətəninin azadlığa qovuşması naminə böyük işlər görmək məqsədi qoyurdu. Şairin 1899-cu ildə nəşr edilmiş "Qamışlıqda əsən yellər" şeir kitabı ilə növbəti poetik toplusu olan "Məsuliyyət"(1914) arasında keçən on beş il şeir yaradıcılığı baxımından o qədər də məhsuldar olmamışdı, çünki bu dövrdə o, yaradıcılıq enerjisini daha çox teatr və dramaturgiyaya həsr etmişdi.

U.Yeyts azadlıq hərəkatının fəal üzvü olsa da, onun vətənpərvərliyi radikal millətçilikdən və ekstremizmdən uzaq idi. O, İrlandiyanı daha çox pərəstiş etdiyi mənəvi dəyərlərin ocağı kimi

qəbul edir və ilk növbədə bu dəyərləri İngiltərənin mənfəətpərəst siyasətindən qorumağa çalışırdı. Öz yaradıcılıq kredosunu - "mənim bütün həyatım və dünyagörüşüm şeirlərimdə ifadə olunub. Mənim bütün gəncliyim, arzularım və ümidlərim onlarda gömülüb." – sözləri ilə ifadə edən şair poeziyada olduğu kimi, ictimai fəaliyyətdə də heç zaman ləyaqət və vicdanın ziddinə bir addım belə atmağı özünə rəva bilməmiş, əyri yollardan həmişə imtina etmişdi: "Həyatda elə şeylər var ki, hətta millətin xilası naminə belə, onlara yol vermək olmaz."

XX əsrin ilk onilliyində U.Yeytsin gənc şair Ezra Raundla tanışlığı yaxın dostluğa çevrilir və bu dostruq onun yaradıcılığının da xarakterinə təsirsiz ötüşmür. Daha çox imajizm cərəyanının tərəfdarı olan gənc şair "Villi dayı"ya müasir dünyagörüşü ilə ayaqlaşmaq fikrini israrla təlqin edirdi. Poetik ifadə tərzində isə gənc dostu ondan abstraksiyadan uzaqlaşmağı, aydınlıq və dəqiqlik "tələb edirdi." 1906-cı ildə nəşr olunmuş "Kəşflər" adlı esselər toplusunda U.Yeyts adiliklə ülviliyin estetik vəhdətinin bədii yaradıcılıq üçün ən vacib şərt olması ideyasını irəli sürür. Özünün də etiraf etdiyi kimi, U.Yeytsin bir sənətkar olaraq ən böyük arzusu isə incəsənətlə təbiət arasında qarşıdurma və münaqişənin olmadığı, qarşılıqlı ahəngdarlıq və harmoniyanın hökm sürdüyü mükəmməl bir fəlsəfi-estetik sistem yaratmaq idi.

1910-cu ildən başlayaraq şair gənclik dövrü yaradıcılığı üçün səciyyəvi olan romantik xəyalpərəstlikdən tədricən uzaqlaşmağa başlayır. "Cavabdehlik"(1914), "Vəhşi qu quşları"(1919), "Maykl Robartis və rəqqasə"(1921) kimi şeir toplularında onun poetik ifadə tərzinin də xeyli sadələşdiyi, mürəkkəb metaforizmlərin adi danışıq üslubunun detalları ilə əvəz olunduğu müşahidə edilir.

U.Yeytsin irland poeziyası tarixindəki yerinin özünəməxsusluğu, orijinallığı, hətta qəribəliyi bir də onda idi ki, o, ilk dəfə olaraq milli ruhun daşıyıcısı olan qədim kelt ənənələrini irland dilində yox, ingilis dilində yazdığı əsərlərlə ifadə edirdi. Halbuki onun məhz ingilis ağalığına qarşı mübarizədə istinad etdiyi, mövzu və ideyalarını götürdüyü bütün qədim kelt mifologiyası və irland folkloru yalnız irland dilində idi. Bu fakt bəzən dillə milliliyi mütləq mənada identikləşdirənlərin mövqeyini şübhə altına qoyur. U.Yeytsin özündən sonrakı irland poeziyasına təsirini dahi rus şairi A.S.Puşkinin rus ədəbiyyatına istiqamətverici təsiri ilə müqayisə etmək olar. Bu mənada F.Dostoyevskinin "Puşkin bizim hər şeyimizdir" sözlərini U.Yeytsin irland ədəbiyyatındakı mövqeyinə də aid etmək mümkündür.

Onun sənət yolu bədii yaradıcılıq metodu baxımından simvolizm və mifoloji romantizmdəm realist inikas üsullarına qədər ziddiyyətli bir təkamül prosesindən keçmişdir. XIX əsrin son illərində bədii yaradıcılığında simvolizmə meyllənən yazıçının o dövrdə yazdığı "Simvolizmin incəsənətə gəlişi"(1898), "Xəzan çağı"(1898), "Poeziyada simvolizm"(1902) kimi esselərdə həmin cərəyanın nəzəri-estetik müddəaları ilə bağlı mülahizələri də öz ifadəsini tapmışdır. Onun simvolizm yaradıcılıq metodu haqqında əsas dəyərləndirici fikri bu cümlədə əks olunmuşdur: "Adi insan baxışlarından gizli qalan və adi poetik vasitələrlə ifadə edilə bilməyən qeyri-adi gözəllikləri yalnız simvolizmin vasitələri ilə ifadə etmək mümkündür."

XX əsrin ikinci onilliyində U.Yeytsin dramaturji yaradıcılığı üçün əlamətdar olan bir yenilik də Milli Teatrın səhnəsində onun "Qızıl quş bulağı yanında"(1916), "Keçmişin xəyalatları"(1917) və "Qalqofa"(1918) adlı xoreoqrafik pyeslərdən ibarət trilogiyasının tamaşaya qoyulması olmuşdu. Yaradıcılığının poetik forma baxımından çox rəngarəng olduğunu göstərən bu əsərlərlə yazıçı, əslində, dramaturgiyada yeni bir janrın əsasını qoymuşdu. Bu pyeslərin tamaşası ənənəvi yapon teatrı prinsiplərinə uyğun hazırlanmışdı. Bu əsərlərdə müəllif faciəli mühitdə insanın fərdi həyatının da faciə ilə üzləşəcəyi qənaətinə gəlir.

U.Yeyts də daxil olmaqla irland vətənpərvərlərinin apardığı azadlıq mübarizəsi nəticəsində 1916-cı ilin aprelində Dublində Britaniya hakimiyyətinə qarşı "Pasxa üsyanı" adlandırılan qiyam baş verdi. Üsyanı qan içində boğaraq amansızlıqla yatırtdılar. Ümumilikdə beş yüzdən artıq adam oldürüldü. Hərəkat rəhbərlərindən on altı nəfər London məhkəməsinin hökmü ilə edam edildi. Üsyan günlərində Dublində olmaması U.Yeytsi ölüm cəzasından xilas etdi. Lakin əqidəsindən dönməyən şair bu hadisələrə həsr olunmuş şeirlərində inqilab qəhrəmanlarını və qurbanlarını cəsarətlə vəsf edirdi. Elə həmin ilin

sonlarında nəşr olunmuş "Pasxa-1916" adlı kitabındakı şeirlərdə, təbii ki, vətənpərvərlik və mübarizə mövzusu aparıcı rol oynayırdı. İki ildən sonra İrlandiya siyasi müstəqillik qazandıqda U.Yeyts ölkə parlamentinin ilk senatorlarından biri seçildi.

İrlandiyanın ictimai mühitində mübarizə pafosu bir qədər səngiyəndən sonra U.Yeyts, nəhayət ki, şəxsi həyatına da diqqət ayırmaq qərarına gəldi. 1917-ci il oktyabrın 21-də 52 yaşlı şair ozündən 27 yaş kiçik olan Corci Hayt-Liz adlı bir xanımla ailə qurdu. Xoşbəxt ailə başçısı rolunda özünü çox məmnun hiss edən şair gənc xanımına dərin sevgi duyğuları bəsləyirdi. Evlənəndən sonra yazıçı Qoluey qraflığında qədim bir qəsr alaraq təmir etdirir və ailəsi ilə bu malikanədə yaşamağa başlayır. Onların bir qızı və bir oğlu dünyaya gəlir. Evliliyi ona həm də yeni yaradıcılıq stimulu verdi. Xanımı da onun ictimai və ədəbi fəaliyyəyinə əlindən gələn köməyi edirdi. 1921-ci ildə U.Yeyts gələcəyin digər Nobel mükafatçısı, görkəmli dramaturq Bernard Şou ilə birlikdə İrlandiya Ədəbiyyat Akademiyasının əsasını qoydu.

1923-cü ildə ədəbiyyat üzrə Nobel mükafatı ilə təltif olunması, təbii ki, U.Yeytsin ədəbi və ictimai fəaliyyətinin zəfər məqamı idi. Əvvəldə qeyd etiyimiz kimi, Nobel Mükafatları Komitəsinin bu qərarında subyektiv amil güclü olsa da, irland şairi sonrakı yaradıcılığı ilə bu ali mükafata layiq görülməsini tamamilə doğrultdu. Təsadüfi deyildi ki, namizədliyi müzakirə edilərkən İsveç Akademiyasının üzvü Per Halmstrem onu kelt-irland dirçəlişinin əsas siması adlandırmış, onun yüksək poetik tələblərə cavab verən sənətkar olmaqla yanaşı, həm də xalqa bağlılığını heç zaman itirməməsini şəxsiyyətinin mühüm məziyyətlərindən biri kimi dəyərləndirmişdi. Maraqlıdır ki, Nobel mükafatının təqdimat mərasimindəki nitqində U.Yeyts özü də diqqəti ədəbi yaradıcılıqdan daha çox milli azadlıq mübarizəsindəki və irland milli teatrının yaradılması işindəki fəaliyyətinə yönəltmiş, mübarizə yoldaşlarını xatırladaraq bu ali mükafata Avqusta Qreqori və Con Sinqin də onun qədər layiq olduqlarını vurğulamışdı. Bu çıxışdan irland vətənpərvərlərinin azadlıq ideyalarını yaymaq üçün teatr yaratmaq məqsədinin XIX əsr Azərbaycan maarifçilərinin – Mirzə Fətəlinin və onun ardıcıllarının xalqı nadanlıqdan xilas etmək naminə teatr yaratmaq istəyilə necə üst-üstə düşdüyü aydın görünür.

Bəlkə də, bu ali ədəbiyyat mükafatının laureatları sırasında U.Yeyts yeganə sənətkardır ki, mütəxəssislər onun mükafatdan sonrakı yaradıcılığını mükafatdan əvvəlki ilə müqayisədə daha yüksək qiymətləndirirlər. Həqiqətən də mükafatdan sonra irland şairinin yaradıcılığı yüksələn xətlə davam etmiş, yeni-yeni uğurlu əsərlərin meydana gəlməsi ilə əlamətdar olmuşdur. Əgər əvvəlki əsərlərində Nobel mükafatçısı gözəlliyi əbədiyyət simvolu olaraq real həyata qarşı qoyurdusa, indi o, əbədi gözəlliyi real həyatın öz təzahürlərində axtarmağa başlayır. 20-ci illərin axırlarında çap olunan "Çevrələr", "Lacivərd", "Faciəvi sevinc" şeir silsilələri onun poetik yaradıcılığında bədii cəhətdən daha mükəmməl yeni bir mərhələnin başlandığından soraq verir. Bu sıraya şairin "Qüllə"(1928) və "Dairəvi pilləkən"(1933) kitablarını və "Son şeirlər" adlandırılan silsiləsini də aid etmək olar. Haqlı olaraq poetik yaradıcılığının zirvəsi sayılan bu əsərlər onu vətəninin milli-mənəvi simvoluna çevirmişdir.

U.Yeyts bütün Qərb ədəbiyyatında modernizmin çiçəklənmə dövrünün şairi olsa da, öz yaradıcılığında ənənəvi estetik və mənəvi dəyərlərin əks etdirilməsi, qorunması yolunu tutmuşdu. Təsadüfi deyildi ki, müasirləri onun yaradıcılığını "əski inancların poeziyası" adlandırırdılar. Əsrin əvvəllərində belə bir mövqe, şərti də olsa, anlaşılan sayıla bilərdisə, artıq 30-cu illərdə onun öz mövqeyində inadla dayanaraq heç bir dəyişiklik etmək istəməməsi Avropa ədəbi ictimaiyyəti tərəfindən Nobel mükafatçısının "müasirliklə ayaqlaşa bilməməsi" kimi qiymətləndirilirdi. Bütün dünyanın rasional baxışlara üstünlük verdiyi bir zamanda mistik təsəvvürlərin əsiri olaraq qalmaq, əlbəttə ki, köhnəlik kimi görünürdü. Yalnız U.Yeytsin özünü qədim kelt mədəniyyətinin mənəvi varisi və bu ənənələrin davamçısı hesab etməsi ona qarşı barışmaz münasibətləri bir qədər yumşaldırdı.

İrlandiyanın müstəqillikdən sonrakı ictimai həyatının U.Yeytsin müqəddəs tutduğu, pərəstiş etdiyi ənənəvi mənəvi dəyərlərdən uzaq düşərək daha çox ingilissayağı maddi dəyərlərə üstünlük

verməsi onu çox məyus edirdi. Bəzi məqamlarda o, hətta aparılan mübarizənin, verilən qurbanların hədər getməsi fikrini dilə gətirməkdən belə özünü saxlaya bilmirdi. Onun fikrincə, ağır mübarizə nəticəsində əldə edilmiş qələbənin bəhrələri qaragüruha qismət olub. Şair belə bir fikrə gəlir: "Əgər bu hakimiyyət sındırılmasa, irland cəmiyyəti bəlalara düçar olacaq." Əslində, burada təəccüblü bir şey yoxdur. Bu, irland inqilabının da bütün inqilablar üçün ümumi olan qanunauyğunluqla baş verdiyini təsdiq edir. Çoxdan etiraf olunmuş bir həqiqətdir: "İnqilabları müdriklər hazırlayır, qəhrəmanlar həyata keçirir, bəhrəsini isə alçaqlar görür."

1936-cı ildə bütün dünyada İkinci Dünya müharibəsinin nəfəsi duyulmağa başladığı bir məqamda U.Yeyts qarşıdurmanın bütün tərəflərini obyektiv mövqedən ittiham edərək yazırdı: "Kommunistlər, faşistlər, millətçilər, klerikallar – hamısı törətdikləri cinayətlərə müvafiq cəzalarını almalıdırlar."

1937-ci ildə magiya və mistisizm haqqında görüşlərini əhatə edən məşhur "Görüntülər" kitabının təkrar nəşrini çap etdirən U.Yeyts bir dostuna göndərdiyi məktubda yazırdı: "Bilmirəm, bəlkə də, başqaları üçün bu kitabın heç bir dəyəri yoxdur, mənim üçünsə o, dünyanın xaosuna qarşı mübarizədə sonuncu cəhddir."

1938-ci ilin dekabr ayında yazıçı "Kuxulinin ölümü" adlı son pyesini tamamlayır və bir aydan sonra qəflətən vəfat edir. Maraqlıdır ki, İrlandiyanın ən köhnəsayaq şairinin ölümü münasibətilə ən təsirli yazını ölkənin ən avanqard şairi – yenilikçi irland şeirinin lideri sayılan Uinisten Oden yazmışdı. O, U.Yeytsin yaradıcılığına tənqidi yanaşaraq onun ictimai və estetik mövqeyini tam qəbul etməsə də, poeziyasının yüksək bədii keyfiyyətlərini qəbul etməli olur: "İrlandiyanın poeziya bulağı qurudu."

O, 74 illik həyatı, yarım əsrdən artıq sürən yaradıcılığı boyunca böyük təbəddülatlarla dolu təkamül yolu keçsə də, bütün ziddiyyət və tərəddüdlərinə baxmayaraq, bütöv Şəxsiyyət və Şair kimi yaşamış, ömrünün sonuna qədər öz gənclik arzularına və seçdiyi həyat yoluna sadiq qalmışdı. O, həyatının və sənətinin bütün gedişatını ömrünü həsr etdiyi böyük amala tabe tutmağı bacarmış, heç birində vicdan ölçülərindən kənara çıxan addımlar atmamışdı.

U.Yeytsin əsərlərindən heç biri nə müəllifin sağlığında, nə də ölümündən sonra Azərbaycan dilinə tərcümə edilməmişdi. Yalnız 2014-cü ilin dekabrında Azərbaycan Nazirlər Kabineti yanında Tərcümə mərkəzinin nəşr etdirdiyi "Bəşəri poeziya" adlı şeir toplusunda Zakir Fəxrinin tərcüməsində dünya poeziyasının Uilyam Bleyk, Con Kits, Edqar Po, Uolt Uitmen, Emil Dikinson, Pol Verlen, Artur Rembo, Emil Verharn, Federilo Qarsia Lorka, Silviya Plat, Tomas Tranströmer kimi görkəmli nümayəndələri sırasında U.Yeytsin də şeirlərinə yer verilib.

Kelt mədəniyyətinin beşiyi olan qədim İrlandiyada şairləri iki qismə bölürdülər: mübariz ruhlu, ictimai çağırış və satirik məzmunlu nəğmələrin ifaçısı olan bardlar və daha çox mənəvi müdrikliyin ifadəçisi olan filidlər. Xalqının mənəvi sərvətini, poetik irsini bütöv halda qəbul edən U.Yeyts öz yaradıcılığında bu təmayülləri bir vəhdətdə birləşdirməyə çalışmış və çox zaman buna nail olmuşdur.

Uilyam Yeyts 28 yanvar 1939-cu ildə Fransanın cənubunda, dəniz sahilində yerləşən Rokbrün şəhərciyində vəfat etmiş, orada müvəqqəti dəfn olunmuşdu. Doqquz ildən sonra, 1948-ci ildə onun nəşini vətəninə köçürüb öz vəsiyyətinə uyğun olaraq, Dranklif kəndində, həmin kəndin kəşişi olmuş ulu babasının məzarı yanında dəfn etdilər.

U.Yeyts

İrland teatrının təşəkkülü
(Nobel mükafatının təqdimat mərasimindəki nitqi)

Mən öz nitqim üçün mövzu olaraq irland teatrının formalaşması məsələsini seçmişəm, çünki layiq görüldüyüm yüksək mükafatı qəbul edərkən özümü sizin tanıdığınız və tanımadığınız bir çox şəxslərin adını çəkməyə borclu bilirəm. Yəqin ki, pyeslər və teatr haqqında məqalələr yazmasaydım, yalnız lirik şeirlərə görə mənim adım bütöv bir hərəkatın rəmzinə çevrilməzdi və bu fəxri mükafatı mənə verməzdilər. Buna görə də burada əməl və mübarizə yoldaşlarımın adlarını çəkmək, onların əməyi barədə, çətinlikləri və qələbələri haqqında danışmaq istəyirəm.

İrland-ingilis mücadiləsini hazırlamış müasir irland ədəbiyyatı, daha geniş götürsək, ictimai fikir hərəkatı 1891-ci ildən – Parnell hakimiyyətdən kənarlaşdırıldıqdan sonra meydana gəlmişdi. Hadisələrin gedişindən məyus olmuş İrlandiya parlament siyasətindən üz döndərmiş, həyat sanki ölü nöqtədə donub qalmışdı, çünki xalq uzun illər qəlbində bəslədiyi azadlıq arzularının doğrulmaması səbəbindən tamam ümidsizliyə düçar olmuşdu.

Bu zaman doktor Hayld Kelt Liqası təşkilatını yaratdı və bu liqanın fəaliyyəti sayəsində siyasi mübahisələr kelt dilinin öyrənilməsi, siyasi mitinqlər isə kelt nəğmələrinin oxunması ilə əvəz olundu. Müasir İrlandiyanın ingilis dilində düşündüyünü və danışdığını nəzərə alaraq, mən də ingilisdillilər hərəkatını yaratdım. Biz ingilis dilində yazan irland yazıçılarının əsərlərini və ingilis dilinə tərcümə olunmuş kelt ədəbiyyatı nümunələrini cəmiyyətin bütün təbəqələri arasında yaymağa, təbliğ etməyə çalışırdıq. Fəqət bizim siyasi çıxışlara aludə olmuş xalqımız bədii ədəbiyyatı az oxuyurdu və biz öz ideyalarımızı yaymaq məqsədinə yaxınlaşa bilmirdik. Bu halda biz zəruri olaraq öz teatrımızı yaratmaq qərarına gəldik. Dublində fəaliyyət göstərən teatrlardan heç birini biz öz teatrımız saya bilməzdik. Bu teatrların heç birinin daimi truppası yox idi. Onlar, əslində, hərdən qastrola gələn ingilis teatrlarının icarəyə götürdükləri boş binalardan ibarət idi. Bizə isə irland pyesləri və irland aktyorları lazım idi. Biz irland xalqına irland dilində irland azadlığı ideyasını təlqin edən tamaşalar göstərmək istəyirdik. Bizim milliyyətçiliyimiz romantik bir hərəkat idi, buna görə də ideyalarımızın poeziya və teatr vasitəsilə həyata keçəcəyinə inanırdıq.

...Biz öz istəklərimizi yalnız ledi Avqusta Qreqorinin nəcib himayədarlığı sayəsində həyata keçirə bildik. Qədim zadəgan nəslindən çıxsa da, xalqa çox bağlı olan bu xanımla mən 1896-cı ildə tanış olanda ona milli teatr yaratmaq ideyası barədə danışdım və maddi imkansızlıq ucbatından bu planı həyata keçirə bilmədiyimizi dedim. Onun xahişi ilə mülkədar Edvard Martin bizim ilk tamaşalarımızın xərcini öz boynuna götürdü. Aktyorları isə İngiltərədən dəvət etmişdik. Tezliklə irland teatr həvəskarlarını cəlb edib onlarla işləməyə başladıq. Az müddətdə onların içərisindən iki nəfər – bir vəkil köməkçisi və bir fəhlə seçilərək baş rolları peşəkar səviyyədə ifa etməyə qadir olduqlarını göstərdilər. Aktrisaları isə cəmiyyətin nisbətən fəal, oxumuş təbəqəsi içərisindən seçdik. Onların çoxu teatr işinə vətənpərvərlik duyğularının təsiri ilə qoşulmuşdu. Ancaq onların sırasında da bir neçə parlaq artistlik istedadına malik xanım tapıldı.

Pulumuz az idi. İmkanlı adamlar bir qədər yardım edirdilər, həm də aza qane olmağa öyrəşmişdik. Teatrın idarə olunması üçün ledi Qreqori, Con Sinq və mənim daxil olduğum rəhbərlik seçildi. Repertuara daxil olan, əsasən vətənpərvərlik məzmunlu dramatik və satirik

pyeslərin çoxunu da özümüz yazırdıq. Üzləşdiyimiz bütün ağlagəlməz çətinliklərə baxmayaraq, teatrı bu günəcən qoruyub saxlaya bilmişik. ...Bu gün bizim teatrın taleyini qabaqcadan söyləmək çox çətindir. Əgər aktyorların əmək haqqını verə bilsək, teatr bağlanmayacaq. Bizim maliyyə vəziyyətimiz çox acınacaqlıdır, çünki Dünya və Vətəndaş müharibələrindən keçib gəlmişik. Küçədə atəş səsləri eşidiləndə isə tamaşaçıların sırası dərhal seyrəlir. Amma bu qədər çətinlikləri dəf etdikdən sonra mən bəxt ulduzumuzun parlayacağına inanıram. Buna görə də teatrımızın taleyi haqqında bu nitqimi aralıq hesabatı sayıram.

Zənnimcə, mənim bu çıxışım İsveç kralının əlindən aldığım yüksək mükafata nəyə görə layiq görüldüyüm haqqında təsəvvür yaratmaq üçün kifayətdir. Hesab edirəm ki, bu gün bu kürsüdə mənim bir yanımda, əfsus ki, artıq dünyadan köçmüş cavan bir kişi, bir yanımda isə alicənab bir yaşlı qadın dayanmalı idi. Əminəm ki, mənim kimi, Con Sinq və Ledi Qreqori də İsveçdə onlara göstərilən lütfkarlıq və hörmət-izzətdən şərəf duyardılar. İsveçdə mən İrlandiyada qurmaq istədiyimiz cəmiyyətin parlaq nümunəsini gördüm.

U.Yeytsin aforizmlərindən seçmələr

- İnsanı qocaldan duyğularının kütləşməsidir.
- İndiyə qədər heç kim gözəllikdən bir fayda görməyib.
- İlahi, qəlbimin yaxasını bərk-bərk düymələ.
- İnsan ən qatı düşmənində də bəyənməli, ən yaxın dostunda da rədd etməli nə isə tapa bilər.
- Qadın həyat normalarına nə qədər sədaqət göstərsə də, gözlənilməz addımlara daha çox meyilli olur.
- Cəhənnəmi, insanlar özlərini yaxşı aparsınlar deyə, keşişlər uydurub.
- Hər bir xalqın nağıllarındakı qulyabanılar xaraktercə onun özünə oxşayır.
- Qəhrəman həyatı ilk məğlubiyyətə, şair isə ilk uğursuzluğa qədər sevir.
- Şər qüvvələrin gücünü görmək istəyirsinizsə, irland, xeyir qüvvələrin gücünü görmək istəyirsinizsə, şotland nağıllarını oxuyun.
-İndiki zamanda mənim məqsədim çiçək açmaq deyil, köklərimi və budaqlarımı möhkəmləndirməkdir.
- Göylərin hakimi olmaq Tanrıya kifayət etmir, yer üzünün də hökmdarı olmaq istəyir.
- Öz qəlbini məhəbbətə bütünlüklə təslim edən adam axırda həmişə uduzur.
- Axmaqlıq da ölümün bir növüdür.
- İnsan qəlbinə dolan hissin nə olduğunu anlayana qədər ömrün çoxu keçib gedir.
- Tütünün və alkaqolun ziyanı haqqında o qədər oxudu ki, axırda onları yox, oxumağı tərgitmək qərarına gəldi.
- İnsan bütün həqiqətləri qocalıqla ölüm arasındakı müddətdə öyrənir.
- Düşünəndə müdrik kimi düşün, amma danışanda adi adam kimi danış.
- İnsan üçün sənət əsərinin gözəlliyini qavramaqdan daha ülvi bir məşğuliyyət yoxdur.
- Tale qurduğu oyunlarda bizim hərəmizə bir təlxək rolu tapşırır.
- Xəyal yalan deyil, yalan onun gerçəkləşdirilməsidir.
- Əgər insana gözəllik verilibsə, həm onu qorumaq, həm də ondan qorunmaq lazımdır.
- Xalqın ən nəcib keyfiyyətləri öz ifadəsini xalq sənətində tapır.
- İnsanın başqaları ilə mükaliməsindən bəlağət, özü ilə mükaliməsindən poeziya yaranır.
- Yalnız o sənətkar həqiqi mənada böyük gözəllik yarada bilər ki, onu özünün qəlb iztirablarından keçirmiş olsun.
- İnsanın yerinə yetmis istəyi son istək ola bilməz, son istək həmişə yerinə yetməyən istəkdir.
- Cavanlar arzuların, qocalar xatirələrin əsiri olurlar.
- Həyatımızın ən adi halı ətrafımızdakı insanların qəlbimizdə doğurduğu qıcıqlanmadır.
- Nə qədər acınacaqlıdır ki, təxəyyülünün qüdrəti ilə bu qədər gözəl obrazlar yaratmış sənətkar onları real həyatda gerçəkləşdirə bilmir.
- Əsl poeziya ifadə etdiklərindən dəfələrlə artıq mətləbləri öz daxilində gizləyir.
- İnsan böyük planlarından çoxunun əldən çıxmağına görə ruhdan düşməməyi bacarmalıdır.
- Əsl sənət əsərləri daxili bənzərsizliyini qorumaq xatirinə zahiri oxşarlıqlarla barışmağa məcbur olurlar.

Yol ver sənə yollanmağa...

Nuranə NUR

Nuranə Nur - şair-publisist, Yazıçılar Birliyinin üzvüdür. Şeirləri "Azərbaycan", "Ulduz", "Литературный Азербайджан" jurnallarında, "Ədəbiyyat qəzeti", "525-ci qəzet", "Ədalət", "Kaspi" qəzetlərində çap olunur. "Poeziya günü" almanaxında (2010), Vaşinqtonda nəşr edilmiş "Buta" (2010) poeziya antologiyasında yer alıb. Şeirləri bir neçə xarici dilə tərcümə edilib. Şairin 2010-cu ildə "Yazıçı" nəşriyyatında "Yanaqda yağış yeri" ilk şeirlər kitabı işıq üzü görüb. 2010-cu ildə Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təsis etdiyi Gənç Ədiblər Məktəbinin, eləcə də Bakı Slavyan Universitetinin "Yaradıcılıq" fakültəsinin məzunu olub. 2012-ci ildə Prezident təqaüdünə layiq görülüb.

2013-cü ildə ikinci - "Yoxluğuna və sağlığına" adlı şeirlər kitabı nəşr olunub.

ŞEİR ÜZLÜM

Gedəndə...
Atdım arxanca
Yaz yağışlarından topladığım göz yaşlarımı.
Düşünmək - unutmaq cəhdimdi,
Qüsurlarını xatırlamaq da sənə toxunmaqdı.
Şeir üzlüm,
Şairlər qısqanar bu adı sənə.
Yağışlar buludlara qayıdanda gəlimmi?
Bəlkə də söz verdim, gələ bilmədim,
Təkcə sevmək azdı, günahımdan keç,
Gəlib pəncərənə yağa bilmədim,
Sizin qapınızı tanımadım heç…

HƏYAT

Yordum səni, HƏYAT
Üz çevirsən də məndən,
düz gözlərinin içinə baxıram...
Gözlərinin dilini yaxşı bilirəm.
Rahat olsun başqasına verəcəyin könlün,
Bir öpüş də almağa qıymadım,
Başqasını sevərsən deyə...

AĞLINA GƏLMƏYƏN YERDƏ

Çox canlar yaxmışdın,
Sənin canını da yaxan oldu, canım...
Əvəzində
Tac elədin onu qürurlu başına.
Soyundun qarşısında,
Ömür boyu soyunmaqdan utandığın,
İki kəlmədən ibarət
o ən uzun cümləni...
Çox canlar yaxmışdın,
Sənin canını da yaxan oldu, canım...
Əvəzində
Gündüzlərindən Gün,
Gecələrindən Ay,
Ruhundan can,
Ciyərindən nəfəs,
Ümidsizliyindən ümid,
imkansızlığından imkan
ayırdın, ona bağışlamağa.
Həyatlandın səsinin qucağında,
Günəşləndin kölgəsində.
Çox canlar yaxmışdın, canım,
İndi səni odlayan közdən
Bircə ovuc əksilərsə,
Ciyərlərimə batar bu küt nəfəs,
Gülməz üzümə aynalar,
Gülməz bir də...
Mümkün olsa, gizlədərdim bu dünyanı
Ağlına gəlməyən yerdə...

DARIXMAQ KİMİ...

Darıxmaq kimidir hər şey -
Günüm də mənim günümdə
Bu gün deyə bilməmişəm,
Adın islanıb dilimdə.

Gecə düşər, günüm doğar
Ulduz-ulduz xəyalıma.
Arzularımı udmuşam,
Ağrı verir sol yanıma.

Günün qapısı aralı,
Sabah dolur bir anlığa.
Gecənin ömrü yetmədi,
Bir pəncərə qaranlığa.

Üşüyür şəklin əlimdə,
Ürpənir, bax, nəfəsim də.
Qışın da ürəyi əsir,
Quşbaşı qar həvəsində.

Darıxmaq kimidir hər şey,
Günüm də mənim günümdə.
Bu gün deyə bilməmişəm,
Adın islanıb dilimdə.

FOTO

Nə vardı gözlərindən gələcəyi oxumağa,
Keçmişini xatırlatmasaydı,
Belə yaxın durmasaydı,
Nəsə uydurmasaydı...
Özündən gizlənməsəydi bu baxışlar.
Düşüncələr qucağından qoymur yerə
Bu dəcəl uşağı.
Qoysa, yoxuşlara yuvarlanar.
Xəstələnib sakit durunca dəcəl uşaqlar,
Anaları yalvararlar Allaha ,
Tez sağalıb dağıtsın ev-eşiyi.
Ən sevdikləri, qoruduqları əşyaları
verərlər əllərinə.
Bax, elə vermişəm könlümü bu adama
Bircə mən bilirəm,
Ən yaxşı fotosu,
Ömür boyu çəkdikləridi bu adamın.

UNUT GETSİN!

Daha mən o mən deyiləm,
Sənin də həsrətin bitsin.
Daha nəyinə lazımam?
Əgər xatırlayırsansa,
Unut getsin!

Nazik saxladım, ürəyim soyuqladı,
Sonra bilmədim heç nə geydiyini.
Ömrüm boyu "unutmaram" dediyini,
Əgər xatırlayırsansa,
Unut getsin!

Qoyub gəldiyim izə qayıdımmı?
O demədiyim sözə qayıdımmı?
Ürəyim də gəlmir, yolundan etsin,
Əgər xatırlayırsansa,
Unut getsin!

Əlini üzəndən üzü bu yana
Eləcə durmuşam durduğum yerdə.
Yerim yaddaşından itib, qoy itsin,
Əgər xatırlayırsansa,
Unut getsin!

Körpələr yuxuda böyüyər, sən de,
Könlünə yatanı belə böyütsün.
Gözləmə ta hamı unudanacan,
Əgər xatırlayırsansa,
Unut, getsin!

YOL VER

Misralar neyləsin,
Qafiyə tapmıram sənə gəlməyə.
Sözlər nə bilsin,
Yenisini axtarıram sənə deməyə.
Yollar nə bilsin,
Yenisini axtarıram ölçülməyən,
gedilməyən.

Xətrimə dəyən küləklər,
Otların yaşıllığını diz çökdürüb
Havanı əyən küləklər.
Havanın ayağı üzülür yerdən.

Ömrünü Günəşə bağışlayan günlərə
And olsun!

Bəlkə…
Min dəfə, min yol axtarmısan
O anı qucaqlamağa,
Qucağını tapmamısan.

İndi…
Qolların axtarır səni,
Öz boynuna dolanmağa.
Səni yola bağışladım,
Çəkil yolumun üstündən,
Yol ver, sənə yollanmağa.

ƏSLİNDƏ

Kimsə kimsəni tərk etməz əslində,
Yalqızlıq zamanın işidir.
Şairlərin paylaşa bilmədiyi bəd duasını,
    hər gün yanından keçib getdiyin,
quş yuvasını
    bu gün görməkdi.
Boy atdı yenə sözlər,
yaşanmamış sevgilərə yazılan şeirlər kimi…
Boyatdı yenə sevgilər,
ulduzları baxışlarınla söndürürmüş kimi…
Bir çılpaq fəsildə düşmək zamanın
ayaqlarına,
Yalvarmaq, yalvarmaq,
Mümkünsə, dümağ geyinənə kimi…
Yalqızlığını basıb bağrına
Bu şəhərin ən qaranlıq küçəsində belə,
gizlənə bilməmək səhərə kimi…
Üst-başından təmizləmək sevgiləri,
Üstündə bir ümid də cücərməyən
Gələcəyə könül vermək, can verənə kimi…

BU GECƏYƏ

Bu gecənin qaranlığı,
Qaranlıq qalırdı mənə.
Oydum gözlərini,
Yırtdım ulduzlayan bətnini,
Odlayıb söndürdüm ayazını.
Bu gecənin hər misrası,
Nağıl rəngdə kabus imiş.
Süfrə açdım göy üzünə,
Buludlar iştaha gəldi,
Yuxuların qarnı toxdu.
Axtardım səhərə qədər,
Bu gecənin
Cini var, lampası yoxdu.

YADINDADI?

Yadındadı?
Payız idi…
Yadındadı?
O ilk baxış?
Baxışından elə çaşdım,
Sənə qaçdım…
Azca ayağım büdrədi,
mənə güldün…
o payız mən gülüşünlə
çiçək açdım…
O payız dünya gözümdə
Qızlıq, qadınlıq taxtıydı.
Sənə niyə inanmışdım,
Mənə "gülüm" deyəndə sən
Güllərin solan vaxtıydı…
Yadındadı?
Uzağa baxıram deyərdin mənə,
Uzaqgörən deyiləmmiş…
Heç gözləmədiyim tərəfdən
gəldin, amma ...
Gözlədiyim tərəfdə də yoxsan indi.
O istəyin,o həvəsin
Bu payızdan o payıza
Qayıdarmı bir də geri?
Özün doldura bilmirsən
Xəyalın dolduran yeri.

SONRALAR…

Yaşanmış bir ömür,
İşlənmiş bir əşyanın qutusu kimi.
Gedilmiş yol,
İzləri süpürülmüş küçələr .
Adiləşir bütün qəribələr ...
İlk dəfə məni görəndə
Roman oxuyarkən, qəflətən,
Diqqətini aparan xəyal kimi,
Maraqlandırmışdım səni.
İtirmişdin özünü,
Belə deyirdin, sonralar...
Bir elan da vermişdin -
"Məni tapana mükafatım var."
Nə?.. bilmirdim.
Bilə bilməzdim,
mən ola bilməzdim,
tutduğu balığı
dənizə bağışlayacaq...
Nuhun gəmisində də yer yox idi bizə.
Sonralar...
heç bir romanda
rast gəlmədim özümüzə.
Unutduğum qədər xatırladım səni,..
Sonralar...

YETMƏYƏCƏK

Heç vaxt, heç nə yetməyəcək
bu sevgiyə,
heç vaxt... heç nə...
Nə sənin gözlərimə baxıb köks ötürməyin,
Nə mənim ürəkdə sevinməyim.
Yetməyəcək,
min dəfə "sevirəm" deməyin.
Hər görüşdə bir az daha böyüməyin.
Yetməyəcək gecikdiyin üçün,
dizlərinə döyməyin.
Nə qurban versək də,
Nə istədiyini heç vaxt bilməyəcəyik bu eşqin.
Azad sevgi arzulayan,
Yasaq eşq həsrətliləri;
Azadlıq - bir qadinin evi qədər,
Bir kişinin cibi qədər olur.
Yetməyəcək böyük sevgiyə bu qədəri.
Ala bilsən,
Gəl, al məni taleyimin əlindən
Yetməyəcək gücün buna, bilirsən.
"Yetər!" deyirsən.

GETMƏK

Getmək…
Arxanca baxacaq bir cüt
Sevdiyin gözün olduğunu bilə-bilə.
Rəsmlərinlə,
Sözlərinlə,
Gözlərinlə,
Xatırlanacağını bilə-bilə,
Getmək…
Ayrı-ayrı ürəklərdə eyni kədəri bölmək,
Ayrı-ayrı kəlmələrlə eyni sözu eşitmək
Və getmək…
Kəpənək ömrü ilə kifayətlənmək,
Yaşanacaq çox şeyin olduğunu bilə-bilə,
tərk etmək
Və getmək…
Hələ doğulmayanlarla
Hələ ölməyənlərin
Heç birinin həyatda olmadıqlarını
dərk etmək,
Və getmək…

MƏNİ ANLASA

Günəş əritdiyi gecədən üzr istəyib
doğur hər gün üzümüzə.
Havada yenə günah qoxusu var.
Məncə, günahkarların əvəzinə
Onların əməlləri cavabdeh olmadır.
Qürurunun kölgəsində daldalanan,
Xoşbəxtliyi duyub
Yaşaya bilməyənlər
Susurlarsa...
Bu, fırtınaya işarədir.
Məni anlasa, yalnız bir şair anlaya bilər.

GÜNAHKAR

Hər şeyimi sənsizliyimlə paylaşandan
Mənliyim sən doludur.
Sənsiz keçirdiyim hər an
Bir boşluq manifestidir,
Oxumadığım kitablarda yazılan
Və bir geniş məzardı varlığıma qazılan.
Zamanla üz-göz ola-ola,
Günlərimi saya-saya keçirdiyim ömürdə
Könülsüz doğulan,
Və bir dayaz qəmzədə boğulan təbəssümümdü.
Sənlə keçirdiyim sənsizliyin şərəfinə...
Başıma çəkirəm göz yaşlarımı.
Sevməyi bacarana mükafat,
Günahlar günahsızına cəzadır bu.
Neyləyim,
Suyun axib öz çuxurunu tapdığı qədər
günahkaram.